# İSLAMA ƏSASƏN SEKSUAL HƏYAT

**Müəllif: Ali Rza Dəmircan**

Azərbaycan dilinə çevirib uyğunlaşdıran Fəqani Bəylərov *(fəlsəfə doktoru: fəlsəfə və ilahiyyat elmləri)*

## I FƏSİL

## CİNSİ TƏLİM-TƏRBİYƏ İLƏ MƏŞĞUL OLMAQ İSLAM DİNİNƏ ƏSASƏN VACİB BİR MƏSƏLƏDİR

### MÜHÜM BİR QEYD

İnsan elə bir varlıqdır ki, Allah onu yaratdıqlarının böyük əksəriyyətindən üstün edib. Göylərdə və yerdə olan varlıqlar onun istifadəsinə verilib.

Şübhə yoxdur ki, insanın cismani xüsusiyyətləri ruhi-mənəvi üstünlükləri ilə müqayisədə çox zəifdir. Cinsi ləzzətləri də mənəvi həzz və zövqlərinə nəzərən olduqca kobud və səthidir.

Biz bu kitabımızda İslam dininin iki əsas mənbəyi olan Quran və Sünnəyə[1] əsasən insanın intim dünyasını və cinsi həyatını izah etməyə cəhd göstərdik.

Bu məsələni lazımi qaydada izah etmək məqsədilə insanı müntəzəm olaraq seksual xüsusiyyətləri baxımından təhlil etdik. Quran və Sünnə prinsiplərinin məhz seksual xarakterli məqamlarına xüsusi diqqət yetirməyə çalışdıq.

Kitabımızı oxuyan və Quran və Sünnənin cinsi həyatla əlaqədar qaydaları ilə ardıcıllıqla tanış olan oxucumuz: “Məgər Quran və Sünnə ancaq seksuallıqla əlaqədardır?”, - kimi bir hissə qapılmamalıdır. Çünki əvvəl də izah etdiyimiz kimi, kitabımızda təkcə cinsi həyat tədqiq olunur və buna görə də Quran və Sünnənin sadəcə olaraq intim münasibətlərlə bağlı prinsiplərinə yer verilir.

Yaxşı bilmək lazımdır ki, Quran və Sünnə bəşəriyyətin yeganə həyat sistemidir. Bir-birini tamamlayan bu iki müqəddəs mənbə ancaq

---

1 *Sünnə* sözü Ərəb dilində *adət-ənənə, gedişat, tutulub gedilən yol, cığır, qanun* və *rəvayət* kimi müxtəlif mənalarda işlənir. Qurani-Kərimdə isə bu söz sabit qanunları bildirmək məqsədi ilə işlədilmişdir. Sünnə bir termin olaraq dini ədəbiyyatda *həzrəti Muhəmmədin bütün kəlam (söz, nitq), davranış, mülahizə, fikir* və *rəylərinin məcmuyunu* ifadə edir - *tərcüməçinin qeydi.*

cinsiyyəti deyil, insanla əlaqədar əqidəvi (etiqadi, inancla əlaqədar), siyasi, ictimai, iqtisadi, hüquqi, əxlaqi və sairə kimi məsələləri də əhatə edir. Beləliklə, insanı dünya və axirətdə xoşbəxtliyə çatdırmaq kimi bir xüsusiyyətə malikdir.

**Quran və Sünnə prinsiplərinə əsasən cinsi təlim-tərbiyə vacibdir**

**“Belə dua et: Ey Rəbbim! Mənim elmimi artır!”** (Taha, 20/114)

İslam dini prinsipləri Allah və Onun peyğəmbəri həzrəti Muhəmməd (əs) tərəfindən qoyulmuş bir yaşayış sistemidir.

Uca Allahın insanları iman gətirmək və əməl etməklə cavabdeh saydığı bu müqəddəs din fərd və cəmiyyətin həyatını tamamilə əhatə edir. Bu din insanın həyatını hərtərəfli əhatə etdiyi kimi, cinsi həyatını da kənarda qoymur; qoruyucu və istiqamətləndirici qaydaları ilə onu da ibadət çərçivəsinə daxil edir.

**Seksual xarakterli vacib əməl və qadağaların tədris edilməsi fərzdir**

İslam dininin iman əsaslarını, eləcə də insanı cavabdeh hesab edən bütün buyuruq və qadağalarını öyrənmək fərzi-eyndir.[2] Yəni,

---

2 Fərzi-eyn: Hər bir mömin tərəfindən şəxsən yerinə yetirilməli olan Allah və ya peyğəmbər əmri.

mütləq surətdə yerinə yetirilməli olan islami bir tapşırıqdır.

Öyrənilməsi hər bir mömin tərəfindən fərzi-eyn olan məlumatları öyrənməli olduğumuz kimi, şəxsən və yaxud ayrı-ayrı şəxs və müəssisələrin vasitəsilə oğlan və qız uşaqlarımıza öyrətmək də bizim borcumuzdur.

İslam alimləri bu məsələdə həmfikirdirlər.

İslamın cinsi həyatı tənzimləyən qaydalarının böyük əksəriyyəti yerinə yetirilməli olan əmrlər (fərz) və uzaq durmaq lazım olan qadağalar (haram) formasında ifadə olunur. Məhz buna görə də həmin ilahi əmr və qadağaların müəyyən etdiyi tədris proqramı çərçivəsində cinsi təlim-tərbiyə vacibdir.

Gəlin, indi də qayda halına gətirdiyimiz bu həqiqətə misal vermək üçün dinimizin cinsi həyatla əlaqədar qadağalarının (haramlar) bir hissəsinə nəzər salaq:

Seksual arzu ilə - şəhvətlə baxmaq, evlənməyin mümkün olduğu bir qadın, yaxud kişi ilə xəlvəti yerdə - baş-başa qalmaq, flirt, cinsi hisləri təhrik edən musiqi, zina, homoseksualizm, lezbiyanlıq, heyvanlarla seksual münasibət (zoofiliya), bədənin erotik yerlərini və örtülməli olan yerlərini aşkar etmək, qadın al-veri, kimi isə zina və homoseksuallıqla ittiham edib böhtan

atmaq, cənabət olub kirləndikdən sonra qüslü bir namazın vaxtını keçəcək qədər təxirə salmaq, xədim etmək (axtalamaq), qısırlaşmaq, öz arvadı ilə olsa belə, heyz (aybaşı) və zahılıq günlərində cinsi əlaqəyə girmək, arvadla tərs yoldan (anal) cinsi əlaqədə olmaq, dini və tibbi cəhətdən hər hansı bir üzrlü səbəb olmadan ərin cinsi istəklərinə qarşı çıxmaq, həyat yoldaşı olan qadına fikir verməmək, həyat yoldaşının haqq və azadlıqlarını məhdudlaşdıran cinsi qısqanclıq, oral (ağız yolu ilə) cinsi əlaqə və sairə...

Yuxarıda bəzilərini qeyd etdiyimiz Quran və Sünnəyə əsaslanan cinsi qadağaları və onlarla bağlı lazımi məlumatları öyrənmək və öyrətmək şübhəsiz ki, vacib bir məsələdir.

Əgər bu haramlar öyrənilməsə və tədris olunmasa, insanlar tərəfindən nə cür bilinə bilər? Əgər bilinməyəcəksə, onlardan uzaq durmaq necə mümkün olacaq? Əlavə olaraq, qeyd etdiyimiz haramlarla yanaşı, onlardan xeyli çox olan və seksual xarakter daşıyan bir çox vəzifəmiz var.

**Seksual xarakterli öhdəliklər və haramlar axirət həyatımızla sıx əlaqədardır**

Möminlərin sabit və düzgün, səviyyəli və problemləri az olan bir dünya həyatı yaşamaqları üçün cinsi haramları bilməyə və onlardan uzaq durmağa ehtiyacları var. Onlar buna eyni zamanda Cəhənnəm əzabından qorunmaq üçün

də möhtacdırlar. Çünki Allahın elçisi həzrəti Muhəmməd (əs) insanı Cəhənnəmə aparan əsas günahların dil və cinsiyyət üzvü ilə edilən günahlar olduğunu bildirib. O, Cənnətə daxil olmaq üçün seksual cəhətdən haram olan şeylərdən qorunmaq lazım olduğunu belə izah etmişdir:

مَنْ تَوَكَّلَ لِي مَا بَيْنَ رِجْلَيْهِ وَمَا بَيْنَ لَحْيَيْهِ تَوَكَّلْتُ لَهُ الْجَنَّةَ

“(Ey möminlər!) *Kim mənə iki çənəsinin arasındakı dilini və iki budunun arasındakı orqanını* (yalan və zina kimi haramlardan) *qoruyacağına dair təminat verə bilər? Ki, mən də ona Cənnətə girəcəyinə dair təminat verim.”*[3]

**Cinsi həyatla əlaqədar məsələləri öyrənmək və öyrətmək təkcə abır-həya çərçivəsində qiymətləndirilməməlidir**

Yuxarıdakı hədisdən də yaxşı məlum olur ki, Allahın elçisi həzrəti Muhəmməd (əs) cinsi həyatla bağlı ilahi əmr və qadağaların öyrənilməsi və öyrədilməsinə böyük əhəmiyyət vermişdir.

Allahın elçisi öz danışıq ədəb-ərkanı və ciddiliyini qoruyub saxlamaqla yanaşı, abır-həya (utanmaq, ar etmək) hissini seksual təlim-tərbiyəyə maneə kimi görməmiş, insanı cahillik

---

3 Buxari, *Hüdud,* 19; ət-Tac, 3/23, 5/62. Bu hədis bir növ Quranın Muminun surəsinin 5 və 6-cı ayələrininşərhidir.

və nadanlığa məhkum edən utancaqlığı münasib bir hal hesab etməmişdir.[4]

---

4 **Quran və Sünnənin cinsi həyatla əlaqədar üslubu**
Allahın elçisi tərəf-müqabilinin vəziyyətindən asılı olmaqla, əksər hallarda kişi-qadın münasibətlərindən üstüörtülü danışırdı. Çünki o, həyatının bütün mərhələlərində ona nazil edilən Qurana tabe olurdu. Eynilə bunun kimi, cinsi həyatla əlaqədar üslubunda da Qurana əsaslanırdı.
Uca Allah Qurani-Kərimdə cinsi həyatla əlaqədar qadağaları qoyub izah etdikdə "seksual birləşmə" haqqında bir sıra üstüörtülü-məcazi sözlər işlədib. Bu sözlərdən bəziləri "bədəni bədənin üstünə qoymaq", "qadınlara yaxınlaşmaq", "əkin-biçin yerinə istədiyi kimi gəlmək", "qadınlara girmək", "qadınlardan faydalanmaq", "kişinin qadını möhkəmcə örtməyi" və sairə kimi ifadələrdir (Baxın: Bəqərə, 2/187, 222-223; Nisa, 4/23-25; Əraf, 7/189). Ancaq bu ifadə və cümlələri hamı başa düşmür; hətta səhv anlayanlar olur. Ona görə də bütün müfəssirlər həmin ifadələri öz əsərlərində cima (cinsi əlaqə) və oxşar seksual münasibətlər kimi izah ediblər.
Biz də müxtəlif mədəni səviyyələrdə olan insanların hamısını nəzərə aldığımız üçün bu kitabda mötəbər müfəssir və alimlərin metodunu tətbiq etdik. Belə ki, həm ayə və hədislərin şərhində, həm də müxtəlif məsələlərin izahında sadə və açıq-aydın bir dil və üslub işlətməyə üstünlük verdik. Misal üçün, cinsi birləşməni ifadə etmək məqsədilə bəzən "cinsi əlaqə", bəzən "intim münasibət", bəzən "seksual münasibət", bəzi hallarda isə "cinsi yaxınlıq" ifadələrini işlətdik. Bu elə həssas bir sahədir ki, tədqiqat apardığımız vaxt lazımi söz və ifadələri işlətməli olduq. Çünki onlar olmadan bu yolda müvəffəq ola bilməzdik.

Məlumdur ki, insandakı utanma hissinin seksual məsələlərlə müəyyən bir əlaqəsi var. Seksual məsələlər də öz növbəsində abır-həya ilə əlaqəlidir. Ona görə də gəlin, bu faktoru nəzərə alıb həya məsələsinə bir aydınlıq gətirək.

Həya elə bir hisdir ki, insanı pərt olub peşmanlıq hissi keçirəcəyi söz, hərəkət və işlərdən qoruyur. Allaha iman və Onun dərgahında haqq-hesab ediləcəyinə inanmaqla inkişaf edən həya hissi ilahi əmr və qadağalarla obyektiv bir hala gəlir.

Əsl cövhəri insanın təbiətində mövcud olan həya Allah, mələklər və insanlara qarşı həya olmaqla müəyyən hissələrə bölünür.

Həya hər bir növü ilə islamidir. Bu elə bir xüsusiyyətdir ki, ona malik olmaq vacibdir. Həya bir xeyirdir. İslam dininin bütün əmr və qadağalarını öyrənmək də böyük bir xeyirdir. Elə isə xeyir xeyirə mane olmur; əksinə, onu

---

Nəticə olaraq deyə bilərik ki, kitabımızda işlətdiyimiz üslub təfsir, hədis və fiqh (İslam hüququ) kitablarımızda istifadə olunan üslubdur. Həqiqətən də, dini ədəbiyyatımızda (məsələn, "kitabu-t-təharət (təmizlik kitabı)", "kitabu-n-nikah (nikah kitabı)", "kitabu-l-həzri və-l-ibahə (qadağalar və mübahlar kitabı)" kimi əsərlərdə) bu üsluba dair çoxlu misallar var. Qeyd edək ki, biz bu kitabı yazdığımız vaxt Ərəb dilində və Osmanlıca olan və təzə nəsil tərəfindən başa düşülə bilməyən söz və ifadələri də ana dilimizə uyğun hala gətirdik.

dəstəkləyir. Həqiqətən də, Allahın elçisi: *"Əsl həya ancaq xeyir gətirər"*[5], - deməklə bunu çox gözəl izah edib. Buna görə də həya fərzi-eyn olan seksual təlim-tərbiyənin qarşısında bir maneə kimi qəbul olunmayıb. Üstəlik bu, gözəl bir xislət kimi izah edilib.

Əziz peyğəmbərimizin möhtərəm xanımı, sevgili anamız həzrəti Aişə (ra) Mədinəli müsəlman qadınları tərifləmək üçün belə demişdir:

*"Onlar nə qiymətli qadınlardırlar. Həya hissi onlara dinlərini yaxşı-yaxşı öyrənməyə mane olmadı."*[6]

İslam dininin cinsi həyatımızla əlaqədar əmr və qadağalarını öyrəndikdə və öyrətdikdə şübhəsiz ki, cinsiyyət üzvlərindən və onlardan xaric olan məni (sperm), məzi və qan kimi mayelərdən danışmaq labüddür. Eyni zamanda seksual hislər və onları inkişaf etdirən hərəkətləri tədqiq etmək lazımdır. Zina, homoseksualizm, oral cinsi əlaqə və bu kimi qadağalar da araşdırılmalıdır. Təbii ki, ər-arvad arasındakı seksual münasibətləri doyğunluğa çatdıran və onu qoruyub saxlayan metodlar da

---

5 Buxari, *Ədəb,* 7; Müslim, İman, 60.

6 Müslim, *Heyz,* 13 (60/332); əl-Camiu-s-səğir, 1/153. Baxın: Ahmet Davudoğlu, Səhih Müslim tərcümə və şərhi, 2/547.

qiymətləndirilməlidir. Seksual çatışmazlıq və xəstəliklər haqqında məlumata yiyələnmək üçün cinsiyyət üzvlərinin fiziki quruluşu da təfsilatla araşdırılmalı və müşahidə edilməlidir. Bu misalları çoxaltmaq da olar.

Əgər bütün bunlar islami həyanın qadağan edici çərçivəsində olsaydı, bu uca din öz bütünlüyü daxilində ziddiyyət təşkil edərdi.

**Muhəmməd peyğəmbərin (əs) cinsi məsələlərlə əlaqədar təlim-tərbiyə işləri**

**"Ey peyğəmbər! Rəbbin tərəfindən sənə nazil edilən buyuruqları təbliğ et! Əgər onları həqiqi mənada təbliğ etməsən, elçilik vəzifəsini layiqincə yerinə yetirmiş olmazsan. Vəzifəni yrinə yetirdikcə Allah səni insanlardan qoruyacaq. Şübhəsiz ki, Allah kafir tayfanı doğrulara çatdırmaz."** (Maidə, 5/67)

**Peyğəmbər Quran ayələrini təbliğ edir və açıqlayırdı**

Allahın elçisi həzrəti Muhəmməd cinsi həyatla əlaqədar Quran ayələri nazil olduqca onları təbliğ edirdi. Həmin ayələrlə əlaqədar lazımi izahları da edirdi. Məsələn, Allah Bəqərə surəsinin qadınların heyz halı ilə əlaqədar 222-ci ayəsini endirdiyi vaxt peyğəmbər onu təbliğ edib insanlara çatdırdı.

*Allahın elçisi bu ayəni təbliğ etdi və möminlərə buyurdu ki, heyz halında olan qadınlarla bir yerdə yeyib-içsinlər, evlərdə birlikdə oturub dursunlar. O, beləcə, onlara aralarında cinsi əlaqədən başqa hər növ adi münasibətləri qurmağı əmr etdi.*[7]

Muhəmməd peyğəmbər (əs) oxunan vəhy olan Quran ayələri çərçivəsində ona bildirilən seksual məzmunlu ilahi buyuruqları da izah edir və cinsi həyatla əlaqədar təlim-tərbiyəni davam etdirirdi. Onun bir hədisində belə deyilir:

اِسْتَحْيُوا، فَإِنَّ اللهَ لا يَسْتَحْيِي مِنَ الْحَقِّ، وَلا تَأْتُوا النِّسَاءَ فِي أَدْبَارِهِنَّ

“(Allah, mələklər və insanlara qarşı) həyalı *olun. Yaxşı bilin ki, Allah həqiqətləri bildirib əmr etməkdən həya etməz, çəkinməz.* (Ey möminlər!)

---

7 Tirmizi, *Təfsiru-l-Quran,* 2. Hədis nömrəsi 2981.
Kitabımızda qeyd edilən ayə və hədislərin demək olar ki, hamısında cinsi həyatla bir əlaqə var. Amma bu o demək deyil ki, biz bütün bu ayə və hədislərlə cinsi həyatın arasında xüsusi bir əlaqə qurmağa çalışırıq. Bunun əsl səbəbi tədqiq etdiyimiz mövzu ilə (vasitəli və ya bilavasitə) əlaqədar olan ayə və hədisləri bir yerə toplamağımızdır. Buna görə də oxucunun: *“Məgər Quran və Sünnə ancaq seksuallıqla əlaqədardır?”,* - kimi bir düşüncə və tərəddüdə düşməyi düzgün deyil.

*Qadınlarınıza arxa tərəfdən* (anal) *cinsi əlaqəyə girməyin."*[8]

**Peyğəmbər (əs) seksual məsələləri ondan soruşulan suallar və yaranan problemlərə əsasən izah edirdi**

Muhəmməd peyğəmbər (əs) ondan soruşulan suallara cavab verir və dolaylı formada üzə çıxan məsələlərə aydınlıq gətirirdi. Beləcə o, cinsi həyata dair təlim-tərbiyə ilə məşğul olurdu.

Misal üçün, o, uzun müddət səhrada qaldıqları üçün su tapmayan və cənabət halından azad ola bilməyən insanlara təyəmmüm etməli olduqlarını bildirmiş və bunun nə cür edildiyini öyrətmişdi.

Bir dəfə onun yanında qadının döl yatağından kənara boşalmaqla hamiləliyin qarşısını alan metoddan danışılırdı. O da həmin vaxt Qurana əsaslanaraq bu kimi tədbirləri *"uşağı gizlincə torpağa basdırmaq"* adlandırmış, Allahın qəza-qədər proqramında daxil etdiyi canlıların mütləq yaradılacağını bildirmişdi.[9]

**Şahid olduğu hadisələri də şərh edirdi**

Belə ki, o, qarnı üstə yatan bir adamı gördüyü vaxt belə demişdi:

---

8 Məcməu-z-zəvaid, 1/261, 4/298.

9 Zadu-l-məad, 4/18.

إِنَّ هَذِهِ ضَجْعَةٌ لا يُحِبُّهَا اللهُ

*"Bu cür yatmaq Allahın sevmədiyi bir şeydir* (belə yatmayın).*"*[10]

**İnsanlara öz hislərini əsas tutaraq da məlumat verirdi**

Allahın peyğəmbəri bir insan, eləcə də yetişmiş bir kişi olaraq şəxsən keçirdiyi cinsi-şəhvani hislərin həddi-büluğa çatmış başqa kişilər tərəfindən də keçirildiyini bilirdi. O, bu reallığa əsaslanaraq və istiqamətləndirici məlumatlar verməklə ilk müsəlmanları cinsi cəhətdən tərbiyə edirdi. O, aşağıdakı sözü də bu məqsədlə demişdir:

*"Sizin aranızdan bir nəfər xoşuna gələn bir qadına görə şəhvət hissi keçirsə, dərhal arvadının yanına gedib cinsi əlaqəyə girsin. Bu cür hərəkət etmək onun içində meydana gələn şeyi aradan qaldırır."*[11]

**Seksual məzmunlu təlim-tərbiyə qadınları da əhatə edirdi**

---

10 Tirmizi, *Ədəb,* 21 (hədis nömrəsi 2769). Üzü üstə yatmaq digər hədislərdə Allahı qəzəbləndirən, şeytani bir xüsusiyyət daşıyan və cəhənnəmlik insanların vərdiş etdikləri bir yatmaq forması kimi təsvir edilir.

11 ət-Tac, 2/331; Əlavə olaraq baxın: Müslim, hədis nömrəsi 1403.

Muhəmməd peyğəmbər (əs) yuxarıda toxunduğumuz seksual məzmunlu təlim-tərbiyəni təkcə kişilərə tətbiq etmirdi. Qadınlara da səslənir, onlara da məlumat verir və nəyin necə olduğunu başa salırdı. Onun birbaşa qadınlara müraciət edən hədisləri var. Biz burada həmin hədislərə aşağıdakı iki hədisi misal göstərə bilərik:

**أَيُّمَا امْرَأَةٍ اسْتَعْطَرَتْ ثُمَّ خَرَجَتْ فَمَرَّتْ عَلَى قَوْمٍ لِيَجِدُوا رِيْحَهَا فَهِيَ زَانِيَةٌ،**

**وَكُلُّ عَيْنٍ زَانِيَةٌ**

*"Hər hansı bir qadın ətir vurub* (evindən) *bayıra çıxsa və ətirinin iyini alıb onunla maraqlansınlar deyə* (kişilərdən ibarət), *bir dəstənin yanından keçsə, o qadın mənəvi olaraq zinakardır.* (Baxılmağı haram olan orqanlara baxan) *Hər göz də zinakardır."*[12]

*"Qadınların arasında lezbiyanlıq zinadır, haramdır."*[13]

---

12 Feyzu-l-qədir, 3/147. Hədis nömrəsi 2971. İzah edilən məqsədə əsasən ətir vuran qadının zinakar kimi tərif olunmağı bu cür ətir vurmağın qadını günahkar hala salacağını bildirmək və onu bundan təkidlə uzaqlaşdırmaq üçündür. Halbuki (bu, xüsusi bir fəsildə izah ediləcəkdir) zina evlilikdənkənar cinsi əlaqə ilə baş verən bir hadisədir.
13 Feyzu-l-qədir, hədis nömrəsi 2942 (3/137).

**Bəzən cinsi təlim-tərbiyə işləri birlikdə görülürdü**

Muhəmməd peyğəmbər (əs) cinsi həyatla əlaqədar olaraq yerinə yetirilməli və uzaq durulmalı olan məsələləri kişi və qadınlara bizim izah etməyə çalışdığımız vasitələrlə ayrı-ayrı öyrədirdi. Bununla belə, onun öyüd-nəsihət və tapşırıqları ilə camaat namazında kişilərlə yanaşı, qadınlar da iştirak edirdi. Bu səbəbdən bəzi hallarda cinsi həyata dair təlim-tərbiyə işləri ümumi olaraq – kişi və qadınların bir yerdə olduqları bir şəraitdə görülürdü.

Aşağıdakı hədisi buna misal göstərmək mümkündür:

Yezidin qızı Əsma (ra) şəxsən şahid olduğu bir hadisəni belə nəql etmişdir:

*“Peyğəmbərimiz camaata namaz qıldırdıqdan sonra ətrafında ayrı-ayrı oturan kişi və qadınlara işarə etdi ki, yerlərindən durmasınlar. Sonra kişilərdən belə bir sual soruşdu:*

*“Deyəsən sizin aranızda qapısını örtüb yoldaşı ilə əlaqədə olduqdan sonra onunla gördüyü işi açıb danışan kişilər var. Eləmi?”*

*Sonra üzünü qadınlara tutub soruşdu:*

*“Sizin aranızda da əri ilə yaşadıqlarını danışan qadınlar var?”*

*Camaatdan bir səs çıxmadı.*

*Mən bunun üstündən belə dedim:*

*“Bəli, ey Allahın elçisi, var! And olsun Allaha, kişilər də, qadınlar da belə sözlər danışırlar”.*

*Mənim bu sözlərimdən sonra peyğəmbər (əs) səbəbini izah edib belə dedi:*

**فَلاَ تَفْعَلُوا، فَإِنَّمَا مَثَلُ ذَلِكَ مَثَلُ شَيْطَانٍ لَقِيَ شَيْطَانَةً فَغَشِيَهَا وَالنَّاسُ يَنْظُرُونَ**

*“Cinsi həyatınızı aşkar edirmiş kimi danışmayın. Bu cür danışan kişi və qadın erkəyi dişisinə rast gələn və insanlar onlara baxdıqları halda, erkəyi dişisinin işini bitirən erkək və dişi şeytanlar kimidirlər.”*[14]

**Səhabələr aldıqları təhsilə müvafiq olaraq realist idilər**

Allahın elçisi Muhəmməd (əs) insanın seksual ehtiyacları və onun həmin ehtiyacların ödənməyi ilə cismani və mənəvi rahatlığa çatmağına dair halal hərəkətlərini insan həyatının təbii bir hissəsi kimi qəbul edirdi. O, cinsi həyatla

14 Məcməu-z-zəvaid, 4/294; Əbu Davud, *Nikah,* 49 (rəvayətlər birləşdirilib).

əlaqədar məsələləri də çox gözəl bir üslubla dilə gətirirdi.

Bütün bunlar ilk möminlər olan səhabələri realist insanlar halına gətirmişdi. Bəli, onlar həqiqətən də, peyğəmbərdən aldıqları təlim-tərbiyənin sayəsində cinsi həyata dair məsələlərdə olduqca realist idilər. Məhz buna görə də öyrənmək istədikləri məqamları gəlib peyğəmbərdən rahatlıqla soruşurdular. Bununla əlaqədar olaraq aşağıdakı hədisi bir misal kimi qəbul etmək mümkündür:

Cabir ibn Abdulla nəql edir:

Səhabələrdən biri peyğəmbərdən (əs) (cinsi əlaqə, masturbasiya və ya yuxuda kirlənmə nəticəsində) cünub olan insanın vəziyyətinin necə olacağı barədə bir sual soruşdu:

"(Ya peyğəmbər,) Cünub olan şəxs (yuyunmamış) yata bilər? Yemək yeyə bilər? Ya da bir şey içə bilərmi?"

Muhəmməd peyğəmbər (əs) cavab olaraq belə dedi:

*"Bəli,* (cinsiyyət üzvünü yuduğu və) *namaz üçün etdiyi kimi dəstəmaz aldığı vaxt yata bilər və nəsə yeyib-içə bilər."*[15]

---

15 Buxari, *Qüsl*, 27.

Səhabələr öyrənmək istədikləri şeyləri soruşduqları kimi, həyata keçirdikləri və günah hesab edib narahat olduqları məsələləri də gəlib peyğəmbərə (əs) danışır, beləliklə də nə etməli olduqlarını öyrənirdilər.

Ömər ibn Xəttab (ra) peyğəmbərin yanına gəlib belə dedi:

“Mən məhv oldum ey peyğəmbər!”

Peyğəmbər (əs) ondan soruşdu:

“Səni məhv edən nədir?”

Ömər cavabında dedi:

“Ya rəsulallah! Cinsiyyət orqanından, ancaq arxadan arvadımla əlaqədə oldum.”

Həzrəti peyğəmbər (əs) ona bir söz demədi. Bu dəm Quranın Bəqərə surəsinin 223-cü ayəsi nazil oldu:

**“Qadınlarınız sizin tarlanız - əkin yerlərinizdir. O halda məhsul götürəcəyiniz orqandan istədiyiniz kimi əlaqədə olun. Nəfsləriniz üçün** (dua, bismilah demək və sevişməyi) **qabağa salın. Allahın əmr və qadağalarına zidd düşməkdən çəkinin. Onun dərgahına gedəcəyinizi də bilin!** (Ey peyğəmbər! Heyz halında əlaqə və tərs yoldan cinsi münasibət kimi haramlardan uzaq duran) **möminlərə müjdə ver.”**

Muhəmməd peyğəmbər (əs) bu ayəni təbliğ etdikdən sonra bütün möminlərə səslənib belə dedi:

*“Qabaqdan və ya arxadan yaxınlaşaraq, amma mütləq cinsiyyət üzvündən olmaq şərti ilə cinsi əlaqədə ol. Arxadakı orqandan* (anus dəliyi) *və heyz halında olan arvadınla cinsi əlaqədə olma, bundan uzaq dur!”*[16]

Beləliklə, səhabələr Allahın elçisi Muhəmməd peyğəmbərə (əs) *“həyatın rəhbəri”* kimi inanır və üzləşdikləri bütün problemləri, o cümlədən cinsi həyatla bağlı çətinlikləri də ona danışırdılar. Onlar üçün siyasi və ya iqtisadi bir problemlə cinsi bir problemin arasında bir fərq yox idi. Əlavə olaraq, problemlərin həllini öyrənmədikcə bir iş görmürdülər.

---

16 Tirmizi, *Təfsiru-l-Quran,* hədis nömrəsi 2984.
Həzrəti Ömər (ra) kimi kamillik dövrünə çatan səhabələr ös sözləri, eləcə də hərəkətləri ilə ancaq Allahın razılığını qazanmaq istəyirdilər. Lakin bəzən bir şeyin günah olduğunu da düşünüb şübhələnirdilər. Onlar bu kimi hallarda Muhəmməd peyğəmbərin (əs) yanına gəlib əhvalatı ona danışırdılar. Bu cür hallarda nə etməli olduqlarını ondan öyrənirdilər. Peyğəmbər (əs) də ondan soruşulan sualları təbii qarşılayır və cavab verirdi. Buna görə də bəzi həssas möminlərin güman etdikləri kimi bu sualların soruşulmağında səhabələrin nüfuz və xətir-hörmətlərinə xələl gətirən bir çatışmazlıq yoxdur.

**Qadınlar da seksual məsələlərdə reallıqdan çıxış edirdilər**

Əvvəl də qeyd etdiyimiz kimi, Muhəmməd peyğəmbəri (əs) cinsi həyatla əlaqədar ilahi buyuruqları kişilərlə yanaşı, qadınlara da təbliğ edirdi. Beləcə, bu sahədə qadınların da müəyyən bir cavabdehliyinin olduğunu deyirdi. Bu da öz növbəsində qadınları cinsi həyatla maraqlanmağa sövq edirdi. Nəticə etibarilə qadınlar da peyğəmbərin yanına gedir, ondan müxtəlif suallar soruşurdular. Həmin sualların arasında elələri var idi ki, bir qadının intim dünyasının ən məhrəm cəhətlərini açıq-aydın ifadə edirdi.

Ümmü Süleym adlı qadın peyğəmbərin xanımlarından biri olan Ümmü Sələmənin (ra) qonşusu idi. Vaxtaşırı olaraq ona baş çəkirdi. Bu ziyarətlərin birində peyğəmbər də gəldi. Bu dəm Ümmü Süleym ondan soruşdu:

“Ya rəsulallah, yuxusunda ərinin (və ya başqa bir kişinin) onunla cinsi əlaqədə olduğunu görən bir qadın yuyunmalıdır? Bu barədə nə deyərdiniz?”

(Bu cür bir sualı eşitdiyi üçün utanan) həzrəti Ümmü Sələmə üzünü Ümmü Süleymə tutub gileyləndi:

“Allah sənə yaxşılıq etsin! Baltanı daşa vurdun ay xanım! Allahın elçisinin qarşısında qadınları pis vəziyyətə saldın.”

Ümmü Süleym isə ona belə cavab verdi:

“Şübhə yoxdur ki, Allah həqiqəti bildirib əmr verməkdən həya etməz və utanmağı da buyurmaz. Odur ki, bizim dəqiq bilmədiyimiz şeyləri peyğəmbərdən soruşmağımız həmin məsələləri bilməməyimizdən xeyirlidir (daha yaxşıdır).

Muhəmməd peyğəmbər (əs) (Ümmü Süleymin sualının və sualı nə üçün soruşduğunun düzgün olduğunu təsdiq etmək üçün) sözə qarışıb belə dedi:

“Allah əslində sənə yaxşılıq etsin ey Ümmü Sələmə! Əsl çıxılmaz vəziyyətə düşən sənsən.”

Sonra da Ümmü Süleymin sualına aşağıdakı kimi cavab verdi:

“Bəli, yuxusunda orqazm olub kirlənən qadın boşaldıqda yuyunmalıdır (qüsl). Əgər belə bir şey baş verməyibsə, yuyunmağa ehtiyac yoxdur.”[17]

---

17 Buxari, *Elm,* 130.
Qüslün vacib olmağı üçün qadın yuxuda ikən cinsi əlaqədə olmalı və boşalmalıdır.

Ənsar[18] qadınlarından başqa bir qadın da eyni sualı soruşduğu vaxt həzrəti Aişə anamız bunu Ümmü Sələmə anamız kimi qadınları pis vəziyyətə salan bir sual olaraq qiymətləndirdi. Bu vaxt peyğəmbər (əs) ona belə dedi:

*"Ey Aişə! Qadının sözünə müdaxilə etmə.* Qoy, istədiyini soruşsun. *Çünki Ənsarın qadınları* (müsəlman qadınların) *bilməli olduqları məsələləri soruşurlar* (yəni, bu, çox təbii bir haldır)".[19]

Qeyd edək ki, utandığına görə peyğəmbərdən sual soruşa bilməyən qadınlar da var idi. Onlar da

---

18 *Ənsar* dini ədəbiyyatda həzrəti Muhəmmədin sağlığında, yəni, İslamın erkən dövrlərində müşriklərin onlara verdiyi əzab-əziyyətdən qaçıb, Məkkədən Mədinəyə hicrət etmiş mühacirlərə yardım edən və peyğəmbərə yaxınlıq göstərən mədinəli müsəlmanlara verilən ümumi addır. Ənsar sözünün mənası *kömək edənlər,* mühacir kəlməsinin mənası isə *hicrət edənlər, qaçanlardır - tərcüməçinin qeydi.*

19 Müsnəd, 6/377; Məcməu-z-zəvaid, 2/268.
Həzrəti Ümmü Sələmə və həzrəti Aişə analarımızın bu kimi tənqidvari müdaxilələri göstərir ki, ilk İslam cəmiyyətində qadınların peyğəmbərdən sual soruşmaqları təkcə kişilər deyil, qadınlar tərəfindən də qəribə qarşılanıb. Halbuki peyğəmbər özü ondan bu cür suallar soruşmağı adi bir hal hesab etmiş, beləliklə də, bunu qəribə qarşılayanlara müsbət yanaşmamışdır. Deməli, şifahi Sünnənin bir nümunəsi belə, cinsi təlim-tərbiyənin nə dərəcədə əhəmiyyətli olduğunu kifayət qədər izah edir.

araya peyğəmbərin xanımlarını qoyurdular. Cinsi həyatla əlaqədar məlumatları onların vasitəsilə öyrənirdilər.

Peyğəmbərimizin xanımlarından biri olan Ümmü Sələmə (ra) belə bir əhvalat nəql etmişdir:

Mədinəli möminlər – Ənsarın kişiləri öz qadınları ilə arxadan yaxınlaşmaqla, ancaq cinsiyyət üzvündən olmaq şərti ilə cinsi əlaqədə olurdular. Bunu eşidib bilən yəhudilər belə deyirdilər:

*“Arvadı ilə arxadan yaxınlaşıb qabaqdan cinsi əlaqə yaradan adamın uşağının gözü çaş olur.”*

Mühacirlər Məkkədən hicrət edib Mədinəyə gəldikləri vaxt Ənsarın qadınları ilə evləndilər. Onlar qadınlara arxadan yaxınlaşıb cinsi əlaqədə oldular. Amma yəhudilərin müsəlmanlara vurduqları tənələrin təsirinə düşən bir Ənsar qadını ərinin ona bu cür yaxınlaşmağına etiraz edib belə dedi:

“Yaxşı bil ki, mən gedib peyğəmbərdən bu məsələni dəqiqliklə öyrənənə qədər mənimlə bu cür əlaqədə ola bilməyəcəkən!”.

Sonra bu qadın durub Ümmü Sələmənin yanına getdi. Əhvalatı ona danışdı. Ümmü Sələmə də ona dedi ki, peyğəmbər evdə deyil, qayıdana qədər gözlə. Bir qədər keçdikdən sonra

peyğəmbər (əs) gəldi. Həmin qadın bu sualı birbaşa peyğəmbərdən soruşmağa utandı. Durub bayıra çıxdı ki, sualı onun əvəzinə Ümmü Sələmə soruşsun. Ümmü Sələmə məsələni peyğəmbərə açdı. Peyğəmbər (əs) ona dedi ki, qadını içəri çağır. Beləcə, qadın təzədən evə daxil oldu. Həzrəti peyğəmbər ona Bəqərə surəsinin 223-cü ayəsini oxudu. Ardınca da belə dedi:

- *Ərin sənə cinsiyyət üzvündən olmaq şərti ilə istədiyi kimi yaxınlaşa bilər.*[20]

Burada xüsusi diqqət yetirilməli olan məsələ budur: Peyğəmbərimiz utandığı üçün sualını birbaşa soruşa bilməyən qadına məhz özü cavab vermişdir.

**Seksual problemlərini açıq-aydın danışan qadınlar da var idi**

Yuxarıda qeyd etdik ki, qadınlar Muhəmməd peyğəmbərdən (əs) şəxsən və ya bir vasitəçinin köməyi ilə müxtəlif suallar soruşurdular. Onlar eyni zamanda seksual problemlərini də peyğəmbərə bildirirdilər. Bilavasitə peyğəmbərə bildirilən problemlərin arasında ərinin cinsi iqtidarsızlığı (impotentlik) ucbatından boşanmaq istəyən bir qadının tələbi də var idi. Aşağıdakı

---

20 Müxtəsəri ibn Kəsir, Bəqərə, 233. Əlavə olaraq baxın: əl-Lu-lu-u və-l-mərcan, *Nikah,* 16-cı bab.

hədisi buna maraqlı bir misal təşkil etdiyi üçün sizə də təqdim edirik:

Həzrəti Aişə (ra) belə nəql edir:

Rifaa əl-Qurəzinin arvadı peyğəmbərin yanına gəlib belə dedi:

*"Ya rəsulallah! Mən Rifaanın arvadı idim. Məni boşadı. Mən də Abdurrahman ibn Zəbir ilə evləndim. Amma Abdurrahman ibn Zəbirin cinsiyyət üzvü paltarın saçağı kimi yumşaqdır. Mənimlə cinsi əlaqədə ola bilmir."*[21]

Qadının bu sözlərini eşidən peyğəmbər gülümsədi və belə dedi:

*"Sən Rifaanın yanına qayıtmaq istəyirsən* (təzədən ona ərə getmək istəyirsən)? *Xeyr, sən ərə getdiyin (indiki) kişinin balından, o da sənin*

---

21 **Həqiqətpərəst qadınlar:** Şübhəsiz ki, Rifaanın arvadı kimi həya hissi öz problemini açıb deməyinə mane olmayan həqiqətpərəst qadınlar çox az idi. Əlavə olaraq, kişilər qadınların bu cür danışmağına etiraz edirdilər.
Belə ki, peyğəmbərin hüzuruna daxil olmaq üçün eşikdə gözləyən Xalid ibn Səid həmin qadının danışığını eşitmişdi. Vəziyyəti belə gördükdə özünü saxlaya bilmədi və peyğəmbərin yanında olan həzrəti Əbu Bəkrə üz tutub belə dedi:
"Bu qadının Allahın elçisinin yanında bu cür danışmağına mane ol!" (Baxın: Ahmet Davudoğlu, Səhih Müslim tərcümə və şərhi, 7/314-315; əl-Lu-lu-u və-l-mərcan, hədis nömrəsi 908).

*balından dadmadıqca* (aranızda cinsi əlaqə baş vermədikcə) *birinci ərin Rifaaya ərə gedə bilməzsən."*[22]

Biz bu kimi hadisələrdən bir ibrət dərsi almağımız lazımdır. Belə ki, biz Allahın elçisi Muhəmməd peyğəmbər (əs) kimi həqiqətpərəst olmalı, reallığa əsaslanmalı və cinsi həyatla əlaqədar məsələlərin müzakirə edilməyini təbii və adi bir hal kimi qəbul etməliyik.

**Cinsi təlim-tərbiyə təxirə salına bilməz və ona mənfi yanaşmaq (pis baxmaq) düzgün deyil**

İstər kişi, istərsə də qadın olsun, həddi-büluğ dövrünə çatan hər bir müsəlmanla bağlı ilahi buyuruq və qadağaların əsas hissəsi seksual hislər, onları formalaşdıran hərəkətlər, cinsiyyət üzvləri və cinsi fəaliyyətlə əlaqədardır. Məhz buna əsasən Quran və Sünnənin meyarları çərçivəsində cinsi təlim-tərbiyə fərzdir. Başqa sözlə, bu, vacib bir məsələdir. Ümumiyyətlə bu cür bir təlim-tərbiyə ancaq və ancaq Quran və Sünnənin müəyyən etdiyi qaydaları əsas tutan bir təhsil sistemi daxilində həyata keçirilə bilər. Bu, olduqca təbii bir haldır.

---

22 İbn Macə, *Nikah,* 32, hədis nömrəsi 1932; Müsnəd, 6/37. 10-cu fəsildəki Hullə bölməsinə baxın.

Cinsi təlim-tərbiyə sahəsində Quran və Sünnənin müəyyən etdiyi və İslam alimlərinin öz əsərlərində qeyd etdikləri məsələləri deyil, elm və əxlaqdankənar nəşrlərin nümayiş etdirdiyi sui-istifadə və seksual münasibətlərin ekranlaşdırılmasını (şəkil, film və sairəni) başa düşənlər üçün *"cinsi təlim-tərbiyə"* ifadəsi ilə *"fərzlik-vaciblik"* ifadəsinin birlikdə işlədilməsi, üstəlik də hökm qoyan bir üslubla istifadə olunmağı qəribə qarşılana bilər. Ancaq yaddan çıxartmamaq lazımdır ki, həqiqət elə həqiqətdir.

Bu məsələnin çox vacib olan digər bir cəhəti də var: Bizim xaricimizdəki bəzi insanlar cinsi həyatdan sui-istifadə edirlər deyə, yaxud da bunu bəzi müsəlmanlar dərk edə bilmirlər deyib vacib olan bir təlim-tərbiyə işini təxirə salmaq olmaz. Bu sahədə səhlənkarlıq etmək qətiyyən olmaz. Çünki bunun təxirə salınmağı cinsi həyatı ibadət həyatının bir tərkib hissəsi olmaqdan uzaqlaşdırır və günahla dolu bir yaşayış halına salır. Bu isə amansız bir ilahi əzaba düçar olmaqla nəticələnir.

Əlavə olaraq, düzgün məlumatların doldurmadığı boşluqları batil fikirlər və səhv məlumatlar tutur. Hal-hazırda vəziyyət belədir. Bu əsassız və batil şeylər eyni zamanda ibadət və əxlaqımıza mənfi təsir edir. Beləliklə, imanımıza ağır zərbələr vurur.

Şübhəsiz ki, adi bir tədqiqat aparılsa, məlum olacaq ki, İslam dininin qadağan etdiyi çılpaqlıq, siğə (müvəqqəti nikah), heyz halında cinsi əlaqə, pronoqrafik nəşrlər və bu kimi şeyləri təbii qarşılayan və islami boşanma qaydasını, eləcə də məhdudlaşdırılmaq şərtilə çox evliliyə (poliqamiya) verilən icazəni qeyri-mədəni adlandırmaqla kafirləşən çoxlu müsəlman da var.

Odur ki, biz burada sadə bir həqiqəti qısa şəkildə belə ifadə etmək istəyirik: Bu kitab bu cür bir müşahidə aparıldığına görə, əlavə olaraq, müəllif (bir müsəlman kimi) bundan narahat olduğu üçün yazılmışdır.

# İSLAMA ƏSASƏN SEKSUAL HƏYAT

**Müəllif: Ali Rza Dəmircan**

Azərbaycan dilinə çevirib uyğunlaşdıran Fəqani Bəylərov *(fəlsəfə doktoru: fəlsəfə və ilahiyyat elmləri)*

# II FƏSİL

# CİNSİ HƏYAT İBADƏT HƏYATININ BİR HİSSƏSİDİR

**Ağıl və elm vasitəsilə öyrənilməyənləri də öyrədən Qurana əsasən insan Allahın Ruhundan üfürdüyü torpaq mənşəli bir varlıqdır.**[23]

**Yer üzündə ibadət sınağından keçiriləcəyi üçün O, bütün mənfilər kimi** (fücur) **bütün müsbətlərə** (təqva) **də təmayüllü və qabiliyyətli yaradılmışdır.**[24]

**Heyvanlarla ortaq olan cinsi həyatı onun torpaq xüsusiyyəti ilə əlaqədar olub *fücur*a meylli cəhətidir. İslam əmr və qadağaları ilə cinsi həyatı da ibadət halına gətirmişdir. Bununla da onun pis cəhətini ruhi-mənəvi ucalığı üçün vasitəçi etmişdir. Onu bir növ insanı Allahın rizasına (razılıq, məmnunluq) və Cənnətə aparan əmələ çevirmişdir.**[25]

Deməli, cinsi həyat ibadət həyatının bir hissəsidir.

### *Cinsi həyat da Allaha ibadət vasitəsidir*

**"Ölüm gəlib sənə çatana qədər Rəbbinə ibadət et."**

---

23 Baxın: Hicr surəsi, 26-29-cu ayələr.
24 Baxın: Şəms surəsi, 7-8-ci ayələr.
25 Baxın: Muminun surəsi, 1-11-ci ayələr.

(Hicr, 15/99)

Allah varlığını öz zatından əxz edən əzəli və əbədi Rəbbdir.

O, birdir. Bütün varlıqlar Ona möhtacdırlar. O, doğmamış, doğulmamışdır. Tayı-bərabəri (oxşarı) da yoxdur. Bilən, eşidən və görəndir.

Bütün varlıqları xəlq edən Odur.

O, həzrəti Adəmi xəlq etdi. Onu yaratdığı nəfsdən yoldaşını xəlq etdi. Çoxalma qanununu qoydu. Həzrəti Adəm və yoldaşından kişi və qadınları törətdi.

Uca Allah əbədi həyat təqdir edib yaratdığı insana əql və iradə verdi. Ona öz iradəsindən istədiyi kimi istifadə etmək ixtiyarı verdi. Sonra da onu ibadət sınağından keçirdi. Allaha bəndə olmağın bönövrəsini də ibadət olaraq qoydu.

Ulu Allah ilk insan olan həzrəti Adəmə ilk peyğəmbərlik tapşırığını verdi. Həzrəti Adəm və ondan sonrakı insanların arasından seçib göndərdiyi hər bir peyğəmbərin vasitəsilə insanlara əmr etdi ki, Ona ibadət etsinlər. Başa saldı ki, onlar ibadət etmək üçün xəlq olunublar. Onlarıa ölüm gəlib çatana qədər ibadət etmək və ibadətlərdə səbrli olmaq öhdəliyi yüklədi.[26]

---

26 Baxın: Nəhl, 16/36; Zariyat, 51/56; Hicr, 15/99; Məryəm, 19/65. Yeri gəlmişkən, biz bu fəsildə çalışacağıq

ki, islami qayda və məqsədlərə müvafiq formada yaşanan cinsi həyatın ibadətlərin bir hissəsi olduğunu xüsusi olaraq seçilmiş ayə və hədislərlə izah edək. Bununla belə, qeyd etmək lazımdır ki, həmin xüsusi dəlillər olmasaydı belə, cinsi həyatı ibadətlərin bir hissəsi kimi qiymətləndirmək mümkün olardı. Çünki görülməyi və görülməməyi birbaşa savab və günah olmayan mübah işləri də Allahın razılığını nəzərə almaqla ibadətə çevirmək mümkündür. Müfəssir-alim M. Əli Sabuni *Safvətu-t-təfasir* adlı əsərində (Beyyinə surəsinin təfsirinin axırıncı hissəsi, 3/579) bu məsələni belə izah edir:
“İslam alimləri əməlləri 3 yerə ayırırlar:
A) Namaz qılmaq, oruc tutmaq və zəkat vermək kimi əmr edilən əməllər. Bunları ixlasla, yəni, Allahın razılığına nail olmaq məqsədi ilə yerinə yetirmək lazımdır. Əgər bu əməllər həyata keçirildiyi vaxt Allahın rizasının xaricində bir məqsəd güdülsə, riyakarlıq olar (Riyakarlıq isə insanı günahkar hala salır).
B) İçki içmək, zina etmək və faiz yemək kimi haram edilən əməllər. Allahın razılığını qazanmaq məqsədilə bu əməllərdən uzaq duran insan savab qazanır. Həmin əməllərdən Onun razılığını nəzərə almadan çəkinən insan isə ancaq məsuliyyətdən yaxa qurtarmış olur.
C) Yemək, içmək və cinsi əlaqədə olmaq və bu kimi əməllər, eləcə də, görülülb görülməməyi insanın öz seçiminə həvalə edilmiş mübah əməllər. Əgər insan bu işləri Allahın rizasını nəzərə almaqla görürsə, savab qazanır. Əgər Onun rizasını qazanmaq məqsədi ilə görmürsə, savab qazana bilmir. Yaxşı bilmək lazımdır ki, ibadət üçün güc-qüvvə toplamaq məqsədilə yemək-içmək və seksual qadağalardan uzaq durmaq üçün həyat yoldaşı ilə cinsi əlaqədə olmaq kimi, Allahın razılığına çatmaqdan ötrü görülən bütün mübah işlər də ibadət hesab olunur.”

Allah ibadət edən bəndələrinə müjdə vedi: Onları əbədi səadətə çatdıracağını bildirdi. İman gətirib Ona üz tutmayan, üz tutduğu halda layiqincə ibadət etməyən bəndələrini isə Cəhənnəm əzabı ilə qorxutdu.[27]

O, əlbəttə ki, insanları yaratmağa, onları sınaqdan keçirməyə və ibadət tapşırığı verməyə möhtac deyildi. Lakin istədi və xəlq etdi. Xəlq etdi və onlara öhdəliklər yüklədi. O, məsul hesab edən, ancaq məsul hesab edilməyən, dilədiyini edən Rəbdir.[28]

Əsl məsələ bundan ibarətdir ki, insan ibadət etmək üçün yaradıldı. Ona belə bir öhdəlik yükləndi. Əbədi xoşbəxliyi də bundan asılı hesab edildi.

**İbadət nədir?**

İbadət Allah və Onun elçisi həzrəti Muhəmmədin (əs) buyuruq və qadağalarına itaət etmək deməkdir.[29]

**Allahın qanunlarına tabe olub ibadət etmək**

---

27 Baxın: Muminun surəsi, 60-cı ayə.

28 Baxın: Ənbiya surəsi, ayə 23; Buruc surəsi, ayə 16.

29 Bəqərə, 2/21; Hicr, 15/99; Nisa, 4/80.

Dini cəhətdən cavabdeh olan mömin bir insan tərəfindən bilinməli və həyata keçirilməli olan ilk tapşırıq ibadət etməkdir.

İbadət etməli olan insan ibadəti nə cür edəcəyini bilmədiyi üçün bu, ona öyrədilib.

Qiyamətə qədər davam edəcək Muhəmməd dövrü insanlığı üçün ibadətin əsas yolu Allahın Qurani-Kərimdə bildirdiyi əmr və qadağalara boyun əymək, yəni, tabe olmaqdır.

Qurani-Kərim Allahın kitabıdır. Uca Allah onu söz və məna formasında Cibril (Cəbrayıl) adlı mələyin vasitəsilə həzrəti Muhəmmədə (əs) 23 illik bir müddət ərzində hissə-hissə və vəhy yolu ilə nazil etdi.

**Misallar:**

A) Namaz qılmaq, oruc tutmaq, zəkat vermək və sairə ibadətdir. Çünki bunların hamısı Allah tərəfindən Qurani-Kərimdə əmr olunub. Elə isə Onun əmrlərinə tabe olmaq ibadət deməkdir.

B) Allahın qanunları ilə ziddiyyət təşkil edən qayda-qanunu düzgün hesab etmək, içki içmək, qumar oynamaq və faiz alıb vermək kimi haramlardan uzaq durmaq da ibadətdir. Çünki Allah bunları Qurani-Kərimdə qadağan edib. Onun qadağalarına tabe olmaq, başqa sözlə desək, onlardan çəkinib uzaqlaşmaq ibadətdir.

**Allahın elçisinin – peyğəmbərin əmr və qadağalarına tabe olmaqla ibadət etmək**

İbadətə layiq olan yeganə nüfuz sahibi ilah ancaq və ancaq Uca Allahdır. Buna görə də Ona ancaq və ancaq Onun özünün əmr və haramlarına itaət etməklə ibadət etmək olar. Eyni zamanda Allah axırıncı və cahanşümul peyğəmbər olan həzrəti Muhəmmədə (əs) itaət etməyi də məhz Özünə (Allaha) itaət hesab edir. Deməli, peyğəmbərin (əs) buyuruq və qadağalarına riayət etmək də ibadət deməkdir.[30]

**Misallar:**

A) Sünnət olmaq, ilahi qanunların hökm dairəsinə daxil olmayan məsələlərdə məsləhət və məşvərət etmək, geyim-kecim, yaşayış və idarəetmə formasında batil din və ideologiyaların mənsublarına müxalif olmaq, intiqam almağa imkanı olduğu halda, bağışlamaq...

Bütün bunlar ibadət deməkdir. Çünki bunlarla əlaqədar öyüd-nəsihət verən Allahın elçisi həzrəti Muhəmməddir (əs).

B) Allaha üsyan edib insanlara itaət etmək, müqəddəs hesab etmək məqsədilə insanların qabağında yerə döşənmək, gözəlləşmək üçün qaş aldırmaq, dişləri nazikləşdirmək, saqqal və bığı

---

30 Baxın: Nisa surəsi, ayə 80.

dibindən qırx(dır)maq və oxşar əməllərdən çəkinmək (uzaq olmaq) ibadətdir. Çünki bunları peyğəmbər (əs) qadağan edib. Onun qadağalarından uzaq olmaq isə yuxarıda da qeyd etdiyimiz kimi, ibadətdir. Əslində peyğəmbərin (əs) bütün əmr və qadağaları Quranı izah etdiyi üçün ona tabe olmaq Allaha itaət etmək deməkdir.

Xülasə, ata-anaya qarşı cavabdehliklərdən tutmuş beynəlxalq hüquqa qədər, istehsal və istehlakdan miras və cəzalara qədər, yeyib-içməkdən tutmuş ayaqyoluna girib çıxmağadək Allah və peyğəmbərinin (əs) buyuruq və qadağalarına tabe olmaq ibadətdir.

Məhz buna görə hər bir vaxt ibadət vaxtı, hər bir yer də ibadət yeridir. Hər bir söz, hərəkət və rəftar da ya ibadətdir, ya da ondan kənarda qalan bir əməldir.

İndi isə gəlin, ümumi olaraq təhlil etdiyimiz bu məsələyə əsl mövzumuzdan – cinsi həyatdan misallar verək və cinsi həyatın əslində ibadətin bir hissəsi olduğunu izah etməyə çalışaq.

**Seksual münasibətləri mühafizə etmək və ondan istifadə ibadət deməkdir**

Hər bir məxluqun xilqət (yaradılış) qanunlarını qoyan və təbii öhdəliklərini müəyyən edən məhz Allahdır.

Allahın qoyduğu yaradılış qanun və öhdəliklərini mühafizə etmək, yəni, onlara tabe olmaq onun əmri olduğuna görə ibadətdir.[31]

İnsanlarda cinsiyyət üzvlərini, o cümlədən doyurulmalı və ödənməli olan seksual istəkləri yaradan və onlara çoxalma öhdəliyini yükləyən Allahdır. Onun xəlq etdiyi cinsi münasibətlərə hörmət edib qoyduğu qanunlar çərçivəsində evlilik vasitəsilə cinsiyyət üzvlərindən istifadə etmək və çoxalmaq Allahın yaradılış prinsipi və buyuruqlarını qoruyub saxlamaq deməkdir. Bu səbəbdən də xalis ibadətdir.

Bunun xaricində bir fikrə düşmək və bu qəbildən bir iş görmək isə yaradılış nizam-intizamını dəyişdirmək deməkdir. Təbii ki, bu, Allaha üsyan xarakteri daşıyır.

Muhəmməd peyğəmbər (əs) məhz bu üsyanın qarşısını almaq məqsədilə seksual həyatdan uzaqlaşmağı qadağan etmişdir:

*"İslamda* (evlənməmək və evlilikdə) *seksual həyatdan kənar olmaq yoxdur."*

*"Şübhəsiz ki, Allah bizdən ötrü* (cinsi həyatdan çəkilmək olan) *rahibliyi evliliyi əhatə*

31 Baxın: Taha surəsi, ayə 50; Rum surəsi, ayə 30.

*edən və asanlıqla dolu olan İslam şəriəti ilə dəyişdirdi."*[32]

**Cinsi həyata ailə qurmaqla başlamaq və onu davam etdirmək ibadətdir**

Allahın və peyğəmbərinin buyuruqlarını yerinə yetirib evlənmək və beləliklə, cinsi həyata başlamaq ibadətdir.

Halal olan və haramdan uzaq saxlanan seksual ehtiyac və istəkləri ibadət şüuru daxilində Allah və peyğəmbərinin əmr etdiyi evlilik vasitəsilə ödəmək, beləcə, rahatlığa çatmaq da ibadətdir.

Evlənib ailə qurmaq Allahın istəyi, Onun elçisinin həyata keçirdiyi bir əməldir. Çünki bizə tətbiq olunan ibadət sınağına əsasən cavabdeh olduğumuz dini məsələlərin böyük bir hissəsi (misal üçün, qohumluq, dolanışıq xərclərinin təmin edilməsi, miras və boşanma) ailə üzərində qurulub.

---

32 Kəşfu-l-xəfa, hədis nömrəsi 3154; İbn Macə, *Nikah,* 1 (hədis nömrəsi 1843); Camiu-s-səğir, 2/189; Əbu Davud, *Mənasik,* 3. Ruhbaniyyət (rahiblik) sözü dünya işləri və nemətlərindən üz döndərmək mənası versə də, bu hədislərin orijinal mətnlərində seksual həyatdan uzaqlaşmaq mənasında işlədilib. Baxın: Kamil Miras, *Təcrid,* 1-ci nəşr, 6/255; Məcməu-z-zəvaid, 4/252; Haqq dini, Quran dili, 6/3904.

Evlilik sadəcə olaraq cinsi həyatla formalaşdırıla bilir. Məsələyə bu baxımdan yanaşdıqda məlum olur ki, halal seksual münasibətlər də ibadətdir.

**Cinsi haramlardan uzaq durmaq da ibadətdir**

Seksual haramlar da daxil olmaqla Allah və peyğəmbərinin (əs) bütün qadağalarından çəkinmək ibadətdir. Uzaq durulmalı olan ilahi qadağalardan biri zinadır.

Allah buyurur ki, **zinaya yaxın durmayın.**[33]

Quranın Furqan surəsinin 68-69-cu ayələrində isə belə deyilir:

“(Mərhəməti bütün məxluqatı əhatə edən Allahın sevimli bəndələri) **Allahla yanaşı, başqa birini tanrı kimi görüb ona ibadət etməzlər. Ölümə layiq olanlardan başqa Allahın haram etdiyi cana dəyib toxunmazlar. Zina da etməzlər. Kim bu əməlləri etsə, cəzasını çəkər. Qiyamət günü onun əzabı qatbaqat olar.**

---

33 İsra, 17/32.

**Həmin ürpərdici əzabın içində xor və biabırçı bir halda əbədi olaraq qalar.”**

Zina etməyə imkanı olduğu halda Allahın əzabından qorxaraq və Onun razılığını qazanmaq məqsədilə bu günahdan uzaq durmaq elə böyük bir ibadətdir ki, bu dünyada möcüzəvi hadisələrə də səbəb olur. Yəni, bu əməl o dərəcədə ülvi bir əməldir.

**Zina günahından uzaq qalmaq möcüzəvi hadisələrin baş verməyinə səbəb ola bilər**

Abdulla ibn Ömər (ra) nəql edir:

Bir gün Allahın rəsulu bizə belə bir əhvalat danışdı:

“Günlərin bir günü sizdən əvvəlki cəmiyyətlərdən birinin nümayəndəsi olan 3 nəfər yola çıxırlar. Bir qədər yol getdikdən sonra hava qaralır və onlar gecələmək üçün bir mağaraya girirlər.

Elə olur ki, dağdan qopub düşən böyük bir daş parçası mağarının girəcəyini tutur. Vəziyyəti belə gördükdə öz aralarında danışıb deyirlər ki, bizi bu çətinlikdən ancaq və ancaq öz gözəl əməllərimiz xilas edə bilər. Daha doğrusu, Allaha dua edib kömək diləsək, bəlkə, yaxşı əməllərimizin xətrinə buradan xilas olarıq.

Həmin şəxslərdən biri dedi ki, Allahım, mən ata-anama qarşı o qədər xoş rəftar edirdim ki, az qalırdı uşaqlarımı yaddan çıxardam.

O bir şəxs isə öz sərəncamında işlətdiyi adamın haqq-hüququna çox rəayət etdiyini deyib Allaha dua etdi. Allahdan mağaranın qapısının açılmağını dilədi.

Beləcə, bu səmimi duaların sayəsində daş yerindən bir az tərpəndi. Amma mağaradan çıxmaq hələ mümkün deyildi.

Üçüncü şəxs isə belə bir hadisəni danışıb Allaha dua etdi:

- *Ya Rəbbi! Mənim əmimin bir qızı var idi. Mən onu çox istəyirdim. Bir gün istədim ki, onunla cinsi əlaqədə olum. Amma bu, mənə qismət olmadı. Bunun üstündən illər keçdi. Bir gün qıtlıq baş verdi. Əmimin qızı çətinliyə düşdüyü üçün məndən kömək istəməyə gəldi. Ona dedim ki, əgər mənimlə cinsi əlaqəyə razı olsan, sənə 120 qızıl verərəm. O da bunu qəbul edib paltarlarını çıxartdı. Bu dəm mən öz yerimi tutdum. Ona tamamən toxunacaqdım ki, mənə belə dedi:*

“Allahdan qorx! Arada kəbin olmadan yaxınlıq edib) *bakirəliyi pozmaq sənə halal deyil!”*

*Mən isə onu çox sevdiyim və istədiyim halda, günaha batmamaq üçün kənara çəkildim. Verdiyim qızıllar da onda qaldı (mən belə istədim).*

*Allahım! Əgər mən bu əməli sənin razılığına nail olmaq məqsədilə etmişəmsə, bizi hal-hazırda düşdüyümüz bu dar vəziyyətdən xilas et.*

Bu duadan sonra mağaranın ağzındakı qaya yerindən tamamilə oynadı. Onlar da oradan çıxıb yollarına davam etdilər."[34]

**Zina günahından uzaq durmaq insanı Allah tərəfindən verilən əmin-amanlığa aparır**

Yuxarıda qeyd etdik ki, başda zina olmaqla özünü seksual qadağalardan qorumaq möcüzəvi hadisələrə səbəb ola bilər. Yeri gəlmişkən, deyək ki, bu, insanı eyni zamanda Allah tərəfindən bəxş edilmiş bir əmin-amanlığa da çatdırır. Muhəmməd peyğəmbər (əs) bunu aşağıdakı kimi izah etmişdir:

"Başqa bir kölgənin olmadığı Qiyamət günündə Allah Təala, yeddi dəstə insanı öz kölgəsində saxlayacaq:

---

34 Buxari, *İcarə,* 12; Riyazu-s-salihin, İxlas babı, hədis nömrəsi 12. Burada hədis yığcam formada qeyd edilib. Yeri gəlmişkən, dua və təbiət hadisələrinin arasındakı əlaqə üçün Nuh surəsinin 10-12-ci ayələrinə baxın.

- Ədalətli dövlət başçısı (və idarəçi);

- Allaha ibadət edərək böyüyüb boya-başa çatan cavan;

- Ürəyi məscidlərə bağlı müsəlman (məscidlərdə cəm halda ibadətləri çox sevən) şəxs;

- Bir-birlərini Allah üçün sevən və bu sevgiyə əsasən görüşən və ayrılan iki mömin insan;

- Sağ əlinin verdiyini sol əlinin bilməyəcəyi qədər gizli sədəqə verən kimsə;

- Tək başına olduğu vaxt Allahı xatırlayıb göz yaşı tökən adam;

- Gözəl və ictimai mövqeyə malik olan bir qadının birlikdə olmaq istəyinə: "Mən Allahdan qorxuram", - deyə, müsbət cavab verməyən adam."[35]

**Seksual qadağalara rəayət edən mömin Allahın məhəbbətinə nail olur və bu rəftarı onu Cənnətə aparır**

Mömini Qiyamət gününün dəhşətli qorxularından, o cümlədən insanın iliklərinə qədər işləyən əzab-əziyyətdən qoruyan əməllər şübhəsiz ki, onun Cənnətə girməyinə də səbəb olacaq.

---

35 Ət-Tac, 5/76; Buxari, 8/20.

Həqiqətən də, Allah nicat tapan və Firdovs cənnətlərinə girməyə layiq olan bəndələrini bu cür təsvir edir:

- Sidq-ürəkdən namaz qılan;

- Zəkat vermək üçün işləyən, əlləşib-vuruşan;

- Mənasız söz və işlərdən çəkinən;

- Verdiyi sözü yerinə yetirən, sözünə bütöv və əhdinə vəfalı olan bəndələr.

Bununla yanaşı, Allah həmin bəndələrin cinsi haramlardan uzaq durduqlarını da bildirir:

**“Möminlər, həqiqətən də, nicat tapmışlar;**

**(Onlar) o kəslərdir ki, namazlarında mütidirlər,**

**o kəslərdir ki, sözbazlıqdan və boş işdən qaçırlar,**

**o kəslərdir ki, zəkat verirlər** (zəkat vermək imkanına malik olmaq üçün çaışırlar),

**o kəslərdir ki, öz cinsi orqanlarını** (həmişə) **qoruyurlar,**

**azad zövcələri və sahib olduqları cariyələr** (kəbinli əsir arvadları) **istisnadır** (onlarla ancaq cinsiyyət üzvündən əlaqədə olurlar). **Onlar** (buna görə heç) **qınanmazlar.**

**Bundan artığına** (zina və homoseksuallıq kimi haram münasibətlərə) **can atanlar isə** (üsyankar və) **həddi aşanlardır.**

**O (mömin) kəslər ki, onlara verilən tapşırığı və verdikləri sözü yerinə yetirirlər.**

**O kəslər ki, namazlarını müntəzəm olaraq qılırlar.**

**Məhz onlardır varis olanlar!**

**Firdovs cənnətinə varis olanlar, orada əbədi qalanlar!"[36]**

**Evlilik həyatındakı seksual haramlardan uzaq durmaq da insanı Allahın məhəbbətinə layiq hala gətirir**

Uca Allah və Onun peyğəmbəri tərəfindən qoyulan və cinsi münasibətlərlə əlaqədar olan haramlardan uzaq durmaq da ibadətdir. Bu hal da insanın Allahın razılığına nail olmağına zəmin yaradır.

Allah qadının aybaşı halında cinsi əlaqədə olmağı, eləcə də, həyat yoldaşına tərs yoldan yaxınlaşmağı qadağan edib. O, bu iki əməldən uzaq olan bəndələrini sevdiyini belə bildirir:

**"Həqiqətən Allah** (hər ay təmizləndikləri vaxt qadınlarına) **qayıdanları,** (ancaq təmizlik

---

36 Muminun, 23/1-11.

vaxtı əlaqədə olanları) **sevər. O, yaxşı-yaxşı təmizlənənləri** (aybaşı halında qabaq və arxa orqandan cinsi əlaqədə olmaqdan çəkinənləri də) **sevər.”**[37]

**Həyat yoldaşı ilə cinsi əlaqədə olmaq da ibadətdir**

Buraya qədər verdiyimiz məlumatlar göstərir ki, Allahın haram etdiyi şeylərdən uzaq durmaq fərzdir.

Fərzləri həyata keçirmək üçün görülən işlər də fərzdir. Bundan ötrü də seksual xarakterli haramlardan qorunmağımıza kömək edən işlər görmək lazımdır. Fərz əməlləri yerinə yetirmək Allaha itaət etmək deməkdir. Bu, ibadətdir. Aşağıdakı hədis bu məsələni ətraflı izah edir:

**Həyat yoldaşı ilə cinsi əlaqədə olmağa savab yazılır**

Səhabələrdən Əbu Zər (ra) nəql edir:

Bir gün peyğəmbər bizə belə dedi:

- “Sübhanallah” formasındakı hər bir təsbehdə, “əlhəmdulillah” sözündəki hər bir həmddə, “Allahu əkbər” ifadəsindəki hər bir təkbirdə və “la ilahə illəllah” cümləsindəki hər bir

---

37 Bəqərə, 2/222. Mötərizədə bildirilən fikirlər barədə ətraflı məlumat almaq üçün “Aybaşı və zahılıq halında cinsi əlaqədə olmaq” fəslindəki şərhlərə baxın.

təhlildə, o cümlədən hər bir Haqqa çağırışda və kimi isə pis bir işdən uzaqlqşdırmaqda xeyir savabı var.

(Digər tərəfdən) *sizin aranızdan bir nəfərin həyat yoldaşı ilə cinsi əlaqədə olmağında da sədəqə savabı var.”*

Bu sözləri eşidən səhabələr təəccüb və maraqla soruşdular:

“Ey Allahın elçisi! Məgər seksual istəkləri ödəməklə savab qazanmaq olar?”

Peyğəmbər buna belə cavab verdi:

**أَرَأَيْتُمْ لَوْ وَضَعَهَا فِي حَرَامٍ أَ كَانَ عَلَيْهِ وِزْرٌ؟**

**فَلِذَلِكَ اِذَا وَضَعَهَا فِي الْحَلاَلِ كَانَ لَهُ اَجْرٌ**

*“Təbii ki, buna da savab verilir. Bəs sizin aranızdan bir nəfər zina etsəydi, günaha batmayacaqdı? Buna nə deyirsiniz? Elə isə bilin ki, öz arvadı ilə cinsi əlaqədə olduğu vaxt da ona savab yazılır.”*[38]

Başqa bir hədisdə isə belə deyilir:

*“Allah kişinin arvadı ilə cinsi əlaqədə olmağından məmnun olur. Onlara bu səbəbdən savab verir və onlar üçün halal ruzi yaradır.”*

---

38 Müslim, *Zəkat*, 53; Mişkatu-l-məsabih, hədis nömrəsi 1898; Müsnəd, 5/167-168.

**Övlad sahibi olmaq üçün cinsi əlaqədə olmağa da savab yazılır**

Allah ilk insanı torpaqdan yaradıb. Onun çoxalmağını diləyib. Onu elə yaradıb ki, nəslinin çoxalmağı cinsi əlaqədə olmaqdan asılıdır. Dua edən bir övladı olmaq məqsədilə həyat yoldaşı ilə cinsi əlaqədə olmaq Allahın ehsanını (yaxşılıq) istəmək deməkdir. Bu ehsana məhz Onun məqbul hesab etdiyi yolla nail olmağa çalışmaq da Allahın razılığını qazanmaq deməkdir. Buna əsasən uşaq sahibi olmaq məqsədi ilə cinsi əlaqəyə girmək də ibadət hesab olunur.

Aşağıdakı hədis bu məsələni çox yaxşı izah edir:

Əbu Zər (ra) nəql edir:

Bir gün Muhəmməd peyğəmbər (əs) bizə belə öyüd-nəsihət verdi:

- *İnsan günəşin çıxdığı hər gün öz nəfsi üçün sədəqə verməlidir.*

Mən bunu eşidən kimi dedim:

“Ya rəsulallah, axı bizim malımız-pulumuz yoxdur. Mən onu haradan ala bilərəm ki, sədəqə verim?”

Mənə belə cavab verdi:

*“(Sədəqə qapıları çoxdur. İndi sənə sadalayacaqlarım) həmin qapılardandır.*

*Sübhanallah, əlhəmdulillah, Allahu əkbər, la ilahə illəllah, əstəğfirullah* (bütün bu zikrlərin hamısı sədəqə deməkdir).

*İnsanları Haqqa dəvət edərsən, onları din, elm və yetkin ağlın qəbul etmədiyi şeylərdən uzaqlaşdırarsan, insanların keçdikləri yollardan tikan, sümük və daşları təmizləyərsən, kor olana yol göstərərsən, lal və karlara bir şeyi onların başa düşəcəkləri qaydada başa salarsan, başının çıxdığı işdə səndən kömək istəyənə vasitəçilik və kömək edərsən, kömək istəyən aciz və zəifə var qüvvənlə kömək edərsən.*

*Budur, bunların hamısı sənin öz nəfsin üçün aça biləcəyin sədəqə qapılarındandır.*

*Əlavə olaraq, xanımınla cinsi əlaqədə olmağına da savab yazılır.”*

Mən özümü saxlaya bilməyib soruşdum:

“Ya rəsulallah! Mən öz şəhvani hisslərimi cinsi əlaqə vasitəsilə doyururam deyə, necə ola bilər ki, mənə savab yazısın?”

Peyğəmbər (əs) bu sualıma belə cavab verdi:

*“Ey Əbu Zər! De görüm, sənin bir uşağın olsaydı, böyüyüb-boşa çatdıqdan sonra (əsl bəhrə*

*verməyə başladığı vaxtda) ölsəydi, onun ölümünə görə sənə savab verilərdimi?"*

Mən: "Bəli, ya rəsulallah", - deyə cavab verdim.

O isə başqa bir sual da soruşdu:

*"Bəs savab qazanmağına səbəb olan o uşağı sən yaratmış olacaqdın, yoxsa yox?"*

"Xeyr, əlbəttə ki, Allah yaradacaqdı", - dedim.

*"Bəs onu düzgün yola kim çatdırardı?"*

"Allah", - dedim.

*"Ruzisini kim verəcəkdi? Sən?"*

Cavab olaraq: "Xeyr, təbii ki, onun ruzisini də Allah verəcəkdi", - dedim.

Peyğəmbər busual-cavabdan sonra sözlərinə belə davam etdi:

*"Bax belə! Deməli, sən cinsi əlaqədə olmaqla onun həyatına səbəb olursan. Buna görə də Allah tərəfindən sənə savab verilir.*

*İndi sən həyat maddəsini öz yerinə (arvadının bətninə) axıt. Onu haram yerə boşaltma.*

*Əgər Allah istəsə, onu yaradıb yaşadacaq. Diləməsə, yaratmaz. Yaratsa da, öldürər.*

*Bununla belə, sən övlad sahibi olmaq istədiyin üçün savab qazanırsan."*[39]

**Seksual münasibətlərdə peyğəmbərin sünnəsinə tabe olmaq da ibadətdir**

Yuxarıda izah etdik ki, Allahın elçisinin seksual məzmunlu buyuruqlarına itaət etmək də ibadətdir. Deməli, əməli və şifahi Sünnəyə əsasən hərəkət etmək, cinsi əlaqədə bunlara tabe olmaq da ibadət hesab olunmalıdır. Buna misal olaraq aşağıdakıları gösətərmək mümkündür:

a) Cinsi əlaqədən qabaq bismillah demək;

b) Şeytandan Allaha pənah aparmaq;

c) Cinsi əlaqəyə yaxşı-yaxşı sevişdikdən sonra başlamaq;

d) Həyat yoldaşı (xanım) seksual doyuma çatmamış cinsi əlaqəni baş vurmamaq;

e) Xanımın razılığını almadan kənara boşalmamaq.

Yeri gəlmişkən, qeyd edək ki, bu məsələləri müvafiq hədislərə əsasən kitabın xüsusi bir fəslində geniş formada izah edəcəyik.

İndi isə belə hesab edirik ki, cinsi həyatın ibadət həyatının bir hissəsi olduğuna dair şərhlərimiz bu məsələni kifayət qədər izah edir.

---

39 Müsnəd, 5/168-169.

Əslində bu kitabda oxuduğunuz və cinsi həyatımızla əlaqədar olan hər bir dini qayda da bunu açıq-aydın surətdə göstərir. Çünki ibadət hər şeydən əvvəl Allah və peyğəmbərinin əmr və qadağalarına müvafiq hərəkət etmək deməkdir.

Burada bir məsələyə də toxunmaq istəyirik:

Hədisləri nəql edən insanlar (ravi) onları bizə peyğəmbərimizin işlətdiyi sözlərlə deyil, məna olaraq öz söz və ifadələri ilə nəql ediblər. Hədislər o dəqiqə yazılmayıb. Ona görə də bu hal zəruri bir haldır. Buna görə də bilmək lazımdır ki, peyğəmbərimizdən rəvayət olunan sözlər onun (hərfi olaraq) orijinal sözləri deyil.

**İSLAMA ƏSASƏN SEKSUAL HƏYAT**

**Müəllif: Ali Rza Dəmircan**

Azərbaycan dilinə çevirib uyğunlaşdıran Fəqani Bəylərov *(fəlsəfə doktoru: fəlsəfə və ilahiyyat elmləri)*

# III FƏSİL

# SEKS VƏ SEKSUAL HƏYATLA ƏLAQƏDAR İSLAM REALİZMİ

**İslam dini seks və seksual həyata realist bir mövqedən yanaşır**

**“İnsan** (seksual istəklərini kontrol etmək məsələsində) **zəif yaradılıb.”** (Nisa, 4/28)

İslam dininin yaşayış qayda-qanununu qoyan Allah olduğuna görə bu dinlə insanın arasında necə deyərlər, qaynaşma və inteqrasiya var. İslam dini insana münasibətində realist olan bir dindir. Bu baxış insanın seksual həyatını da əhatə edir. Onun səciyyəvi xüsusiyyətlərindən ən əhəmiyyətlisi insanın cinsi həyatının bir reallıq kimi qəbul olunmağıdır.

Məlumdur ki, Uca Allah insanı erkək və dişi şəklində xəlq edib. O, qadını kişiyə, kişini də qadına meylli yaradıb. Bu, Quranda aşağıdakı kimi ifadə olunur:

**“İnsanlara (kişilərə) qadınlara sahib olmaq sevgisi (həvəsi) xoş göstərildi.”**[40]

Ümumi bir qayda kimi demək olar ki, insan həyatının həddi-büluğ dövründə formalaşan və get-gedə ehtiyac halına gələn bu istəyə qalıb gəlmək iqtidarında deyil. Çünki insan seks sahəsində də zəif yaradılıb. Bunu yuxarıda da

40 Ali-İmran, 3/14.

qeyd edildiyi kimi, Quranın Nisa surəsinin 28-ci ayəsindən öyrənmək mümkündür.[41]

Allah insanı elə yaradıb ki, onun nəslinin artıb çoxalması seksual fəaliyyətdən asılıdır. Bu, ilahi bir qanundur. Məhz buna görə kişi və qadına cinsiyyət üzvləri və şəhvani istəklər verilib. Odur ki, seksual yaxınlıq olmadan insan fiziki və mənəvi cəhətdən tam mənada doya bilməz. Allah bu həqiqəti belə bildirir:

**“Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məvəddət** (seksual cazibə) **və məhəbbət salması da Onun varlığının dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır.”[42]**

---

41 **İnsanın seksual cəhətdən zəifliyi**
Şübhəsiz ki, bu ayə bizə insanın təkcə seksual cəhətdən deyil, bir çox baxımdan zəif yaradıldığını bildirir. Əvvəlki ayələri də nəzərə alıb bu ayəni təhlil edən bəzi təfsir alimləri (məsələn, İbn Abbas) buradakı zəifliyin seksual istəkləri kontrol etmək sahəsinə aid olduğunu bildiriblər. Bizim fikrimizcə də bu fikir düzgündür. Bununla bağlı ətraflı məlumat üçün baxın: Təbəri, Nisa, 28, 5/30; İbn Kəsir, Nisa, 28.
42 Rum, 30/21. Bu ayədəki “məvəddət” sözünün mənası başda Həsən Bəsri olmaqla bir çox təfsir alimi tərəfindən “cima – cinsi əlaqə” kimi şərh edilir. Ali-İmran surəsinin 14-cü ayəsi də bu şərhi dolaylı formada təsdiq edir. Ətraflı

Yuxarıda qısa formada izah olunan məsələlər müşahidə vasitəsilə məlum olan, təcrübə ilə sübut edilən və Quran tərəfindən təsdiqini tapmış həqiqətlərdir. Deməli, kişi və qadında şəhvani hislərin, o cümlədən bu hisləri ödəmək ehtiyacının olması təbii bir haldır. Bununla belə, insan Allah tərəfindən bir çox sınağa çəkilir. Ona görə də insan seksual həyatında halal və harama əsasən hərəkət etməlidir.

İndi isə gəlin, kişi və qadının seksuallığı məsələsini İslam dininə əsasən təhlil edək.

**Kişinin seksuallığı**

Həddi-büluğ dövrünə çatan hər bir kişidə şəhvani hislər yaranır. Bu hislərin ödənilməsi ehtiyac halına gəlir. Bu, ilahi bir qanundur. Bu qanuna qarşı olmaq insana zidd düşmək deməkdir. Bu reallığı qüvvədən salınmış bütün səmavi (ilahi) dinlər və fəlsəfi sistemlər, o cümlədən İslam dini də qəbul edir. Lakin İslamda kişinin seksuallığ ilə əlaqədar 2 mühüm xüsusiyyət ön planda durur. Belə ki, bu dinə əsasən;

---

məlumat üçün baxın: Fəxrəddin ər-Razi, ət-Təfsiru-l-kəbir, Rum, 21; İsmayıl Haqqı əl-Bursəvi, Ruhu-l-bəyan, 7/19.

A) Seks və onunla əlaqədar hiss və hərəkətlər peyğəmbərlər də daxil olmaqla bütün kişiləri əhatə edir.

B) Allahın xüsusi olaraq qoruyub saxlamadığı heç bir insan nəinki şəhvani hislərdən, seksual məzmunlu haramlardan belə, qoruna bilməz.

Gəlin, bu xüsuiyyətləri müzakirə edək.

a) İslam realizmi qoca-cavan, qəşəng-eybəcər, alim-nadan demədən hər bir kişidə, eləcə də, Allaha yaxınlıq sirrinə dərindən bələd olan Haqq dostlarında, hətta peyğəmbərlərdə belə, şəhvani istək və hərəkətləri təbii bir hal kimi qəbul edir. İslam dininə əsasən cinsi istəklər və halal çərçivə daxilində həyata keçirilən seksual işlər qətiyyən bir çatışmazlıq deyil. Əlavə olaraq, insanın mənəvi inkişafına da mane olmur. Əksinə, insandakı mənəvi ucalıq onun seksual fəaliyyəti davam etdikcə püxtələşib möhkəmlənir.

Dindar olmaq və dindarlıqda inkişaf edib mənəvi ucalıqlara çatmaq üçün özünü seksual hiss və hərəkətlərdən təcrid etmək fikri (bəzi təsəvvüf-sufizm mənbələrində qeyd edilməyinə baxmayaraq) Quran və Sünnənin hökmlərinə

müvafiq deyil.[43] Yeri gəlmişkən, biz bu məsələləri müzakirə etdiyimiz vaxt bir mömin

---

43 Evlənib ailə qurmaq əsas etibarilə həyat, qurub yaratmaq və sevgi-məhəbbətə şərik olmaq deməkdir. Həyatda insan üçün bunun əvəzini verən ikinci bir şey yoxdur. Təsəvvüf tarixində evlənməməyi üstün tutan və sayları çox az olan zahid-sufi şəxslər əslində öz peyğəmbərlərinə zidd düşən insanlardır. Onların bu hərəkətini təsəvvüfün, yaxud da zahidliyin bir xüsusiyyəti kimi göstərən və beləliklə, təsəvvüfü xristian mistisizminin bir qolu kimi qəbul etdirməyə çalışan şərqşünaslar da səhvə yol verirlər.
Evlənməməyi bir üstünlük kimi qəbul edənlərin əslən sufilərin bölgələrindən olmaqları o demək deyil ki, təsəvvüf cərəyanı evlənməməyi öz düşüncə sistemində bir prinsip halına gətirib. Tamamilə əksinə, bu cür hərəkət edənlər (evlənməməyi üstün tutanlar) əslində bununla mənsub olduqları cərəyanın prinsiplərindən birinə əməl etməmiş olurlar. Əlavə olaraq, təsəvvüfün tarixinə nəzər saldıqda belə bir həqiqətlə üzləşirik: Bəzi sufilər deyirlər ki, evli olmayan bir nəfər insanları irşada çatdıra bilməz; yəni, belə bir insanın sufiliyin tədrisi ilə məşğul olmağa ixtiyarı yoxdur. Həmin sufi-alimlərdən biri də böyük Türk sufisi İbrahim Quşadalıdır (1845-ci ildə vəfat edib). O, bu barədə belə demişdir:
*“Təriqətdə bir şeyx mütəəhhil* (ailəli, evli) *olmasa, öz saliklərini* (şagird, tələbə) *əqəbeyi-nəfsaniyyədən* (nəfsin mane olduğu şeylər) *keçirə bilməz. Mütəəhhil olduğu vaxt isə keçirə bilər.*
Deməli, evlilik-ailə təcrübəsini dadmayan ruh fitrət səhnəsində yerinə yetirilməli (həyata keçirilməli) olan sınaqları natamam buraxır. Belə bir şəxsin insanları Allahın yolunda aparmağı tam mənada baş tutmur.” Baxın: Yaşar Nuri Öztürk, Din ve fitrət, s. 176.

olaraq bəşəriyyət tarixinin ən üstün və Allaha ən yaxın şəxsiyyətləri kimi qəbul etməli olduğumuz peyğəmbərlərin də adi bir seksual həyatlarının olduğunu yaddan çıxartmamalıyıq. Çünki bu, yuxarıdakı fikri sübuta yetirən bir məsələdir. Allah Quranda Nuh, İbrahim, Lut, Musa, Muhəmməd və digər bəzi peyğəmbərlərdən söz açdıqda onların evli olduğunu da bildirir. Həzrəti İsa və həzrəti Yahyadan başqa bütün peyğəmbərlərin əhli-əyalı (ailə, oğul-uşaq) olduğunu da ifadə edir:

**“**(Ey Muhəmməd!) **Şübhəsiz ki, səndən əvvəl də peyğəmbərlər göndərdik. Onlara da zövcələr və övladlar verdik. Heç bir peyğəmbər Allahın izni olmadan möcüzə gətirə bilməz. Hər şeyin müəyyən olunmuş bir vaxtı kitabda qeyd edilib.”**[44]

---

44 Rəd, 13/38.

**Bu ayənin nazil olmasının səbəbi**

Günlərin bir günü yəhudilər onlara xas olan batil və mənasız anlayışlara əsasən Allahın elçisi həzrəti Muhəmmədi lağa qoyub belə dedilər:

“Biz görürük ki, Muhəmməd qadınlara yaman (çox) meyllidir. Əgər (inandığı və təbliğ etdiyi kimi) həqiqətən də, peyğəmbər olsaydı, peyğəmbərlik vəzifəsi onu bu kimi əməllərdən uzaq edərdi.”

Məhz bu əhvalat Allah tərəfindən Rəd surəsinin (digər peyğəmbərlərin də ailəli olduğunu bildirən) 38-ci ayəsinin nazil edilməsinə səbəb oldu. Baxın: Muhəmməd Əli Sabuni, Safvətu-t-təfasir, Rəd, 38.

Həzrəti İbrahim, həzrəti Davud, həzrəti Süleyman və həzrəti Muhəmməd kimi peyğəmbərlər ictimai mövqeləri, eyni zamanda seksual istək və güc-qüvvələri baxımından bir-birindən fərqlənən insanlara nümunə təşkil edirlər. Biz onların və digər bir çox peyğəmbərin birdən artıq qadınla evləndiyini görürük. Həzrəti Muhəmməd bunu aşağıdakı sözlərlə izah etmişdir:

**مِنْ سُنَنِ الْمُرْسَلِينَ: الْحِلْمُ وَالْحَيَاءُ وَالْحَجَامَةُ وَالسَّوَاكُ وَالتَّعَطُّرُ وَكَثْرَةُ الأَزْوَاجِ**

*"Mülayim xasiyyətli olmaq, abır-həya, qan aldırmaq (həcamat qoydurmaq), xoş ətirlər vurmaq və çoxarvadlılıq peyğəmbərlərin malik olduqları xüsusiyyətlərdəndir."*[45]

Peyğəmbərlərin həyatı göstərir ki, mənəvi inkişaf seksual həyatı zəiflədib öldürmür; əksinə, canlandırır. Elə belə də olmalıdır. Çünki mənəvi inkişaf iman, yaxşı əməllər və Allahı çox zikr etməklə baş verir. Bunlar ruha dəstək verir. Əlavə olaraq, bədəni də gücləndirir. Güc-qüvvə qazanan bədəndə isə şəhvani istəklər və nəticədə seksual fəallıq artır. Həqiqətən də, məlumdur ki, səbəblər öz axarına müvafiq olaraq nəticə verir.[46]

---

45 Tirmizi, *Nikah*, 2; ət-Tac, 2/287.

46 Böyük alim və sufi Səhl ibn Abdulla belə deyir:

İbadətləri yerinə yetirən müsəlmanın cinsi istəkləri artır

Evlilik çərçivəsində və onun xaricində seksual istək və hərəkətlərinə nəzarət edə bilən, göz və qulaq kimi bədən üzvlərini cinsi xarakterli haramlardan qoruyan, necə deyərlər, seksual xarakterli siqnalları almaq qabiliyyətini qoruyub saxlayan, üstəlik spirtli içkilərdən uzaq duran, namaz, dua və zikrlə mənəvi doyuma çatan bir mömin nəticədə təbii ki, öz şəhvani istəklərini daha güclü bir hala gətirir.

Bu həqiqəti dərk edə bilməyən bir insandan söhbət belə, gedə bilməz. Bununla belə, imanlı və əməli olan müsəlmanın seksual istəklərini gücləndirən başqa bir faktor da var. Bu da öz növbəsində iman və ibadət nurlarının qəlb vasitəsilə damarlara axmağından ibarətdir. Bu, ondakı şəhvani istəkləri artırır. *"İlahi qanunlara sadiq olan hər bir möminin şəhvani hissləri güclənir"* cümləsi ilə ifadə olunan bu həqiqəti layiqincə dərk və qəbul etmək üçün imanın

---

*"Qadınlar Allah tərəfindən əziz peyğəmbərimizə də sevdirildi. Necə ola bilər ki, onlara maraq göstərməyəsən?"*
Digər bir sufi-alim Süfyan ibn Uyeynə isə: *"Səhabələrin ibadətə son dərəcə bağlı olan zahidləri belə, çoxarvadlı idilər..."*, - demişdir. Baxın: Qazı İyaz, Kitabu-ş-şifa, 1/191.

məntiqini bilmək, gözəl zövq və təcrübəyə malik olmaq lazımdır.

Nəticə olaraq qeyd edilməlidir ki, İslam kişinin seksuallığı məsələsinə olduqca real yanaşır. Ona görə də nəinki subaylığı, eyni zamanda ailə daxilində seksual fəallıqdan uzaq olmağı və cinsi tələbatı ödəməyi təxirə salmaq kimi davranışları da münasib hesab etmir.

Elə buna görə də həzrəti Muhəmməd (əs) kişidə qadın istəyi yarandığı vaxt dərhal həyat yoldaşının yanına gedib cinsi əlaqədə olmağı məsləhət görüb. Qadının bu tələbə mənfi cavab verməyini də qadağan edib. Hətta o, bildirib ki, qüsl üçün su olmadıqda təyəmmüm edin; yəni, seksual tələbatı ödəməkdə gecikməyin.

Əbu Hüreyrə (ra) belə bir hədis nəql etmişdir:

*“Mədinədən kənarda – səhrada yaşayan bir mömin gəlib peyğəmbərdən soruşdu:*

- *Ya rəsulallah! Mən ilin 4-5 ayını səhrada keçirirəm. Bizim aramızda zahılar, heyz halında olan qadınlar və cənabət olanlar var. Bizə nə etməyimizi məsləhət görürsünüz?*

*Peyğəmbər bu suala cavab olaraq: “Təyəmmüm edin”, - dedi.”*[47]

---

47 Məcməu-z-zəvaid, 1/261; Neylu-l-əvtar, 1/304.

b) Yuxarıda qeyd etdik ki, Allahın xüsusi olaraq qoruyub saxlamadığı heç bir insan nəinki şəhvani hislərdən, seksual məzmunlu haramlardan belə, qoruna bilməz. İslam dini bunu məhz bu cür qəbul edir. Gəlin, İslamın bu realist münasibətinə əsl məsələni sübuta yetirən bir misal göstərək:

Əgər həzrəti Yusuf Rəbbinin xəbərdarlığını almasaydı, Züleyxaya yaxınlaşacaqdı. Bunu bizə Quran bildirir:

**“Doğrudan da, o qadın Yusufa meyl salmışdı (onu başdan çıxartmaq istəmişdi). Əgər Yusuf Rəbbinin xəbərdarlığını almasaydı, qadının istəklərinə tabe ola bilərdi. Budur, biz Yusufu xəyanət və biabırçılıqdan kənarda saxlamaq üçün belə etdik! Biz pisliyi və biabırçılığı (zinanı) ondan sovuşdurmaq üçün belə etdik. Çünki o, sadiq (ixlas sahibi) bəndələrimizdən idi.”**[48]

---

Məlumdur ki, Quranın Maidə surəsinin 6-cı ayəsində belə deyilri:

**“Qadınlarınızla əlaqədə olmuş və bu vəziyyətdə su tapa bilməmisinizsə, təmiz bir torpqla təyəmmüm edin.”**

Bu ayə göstərir ki, su olmadığı vaxtlarda da cinsi əlaqədə olmaq olar: Xüsusilə şəhvani hislərin gücləndiyi vaxtlarda, eləcə də, suyu olmayan bölgələrdə təyəmmümdən istifadə etmək mümkündür. Yeri gəlmişkən, təyəmmüm barədə ətraflı məlumat üçün lüğətçəyə baxın.

48 Yusuf, 12/24.

Allahın elçisindən daha yetkin, daha dözümlü və dəmir iradəli, o cümlədən şəhvani hislərini cilovlaya bilən bir insanın olduğunu düşünmək mümkün deyil. Buna əsasən aşağıdakı hədisi peyğəmbərlər də daxil olmaqla heç bir kişinin cinsi haramlardan uzaqlıq kimi bir təminatı olmadığına sübut göstərə bilərik:

Cabir ibn Abdulla nəql edir ki, bir gün həzrəti Muhəmməd (əs) möminlərə belə bir tapşırıq verdi:

**لاَ تَلِجُوا عَلَى الْمُغِيبَاتِ، فَاِنَّ الشَّيْطَانَ يَجْرِي مِنْ اَحَدِكُمْ مَجْرَى الدَّمِ،**

**قُلْنَا وَمِنْكَ؟ وَمِنِّي، وَلَكِنَّ الله أعَانَنِي عَلَيْهِ فَأسْلَمُ**

- *Yanlarında ərləri* (və ya məhrəmləri) *olmayan* (başqa sözlə, uzun müddətdən bəri cinsi əlaqədə olmayan) *qadınların yanına gedib oturmayın. Çünki şeytan sizin hər birinizin qan damarında* (qanınız kimi iradənizin xaricində) *axıb dolaşır.*

Biz peyğəmbərdən soruşduq ki, sizin də damarınızda axırmı?

Bu suala belə cavab verdi:

*- Bəli, mənim qan damarımda da axır. Ancaq Allah şeytana qarşı mənə kömək edir və mən ondan qorunuram.*[49]

İslam kişinin seksuallığını xüsusi olaraq qiymətləndirir. Buna görə də insanı seksual məsələlərdə haramlara aparan nəfsə etibar etməyi deyil, (geyim-kecimə fikir verib örtünmək, arada evlənməyə dair heç bir maneənin olmadığı qadınlarla təkbaşına birlikdə qalmamaq kimi) lazımi tədbirləri görməyi məsləhət bilir.[50] Hətta metodik şübhəyə belə, yer verir.

---

49 Tirmizi, Rəda, 17, hədis nömrəsi 1172.

Quranın Yusuf surəsinin 24 və 33-cü ayələri bu hədisini mənasını təsdiq edir. Eyni zamanda peyğəmbərin cavan qadınlarla əl tutub görüşməməyi və gözlərini qorumağa xüsusi fikir verməyi kimi ehtiyatlı hərəkətlərini də təsdiqləyir. Şeytanın Muhəmməd peyğəmbərə (əs) təsir göstərə bilmədiyini aşağıdakı hədis rəvayəti də təsdiq edir: *"Allahın elçisi yuxusunda heç kirlənmədi. Yuxusunda ehtilam olmadı ki, yuyunmağı vacib olsun. Çünki yuxuda ehtilam olmaq şeytandandır."* (Baxın: Məcməu-z-zəvaid, 5/122; Süyuti, əl-xəsaisu-l-kübra, 1/173-175)

50 Seksual xarakterli haramlardan uzaq durub özünü qorumaq fərz olduğu kimi, qorunmaq üçün lazımi tədbirləri görmək də fərzdir. Bununla belə, insan bu istəyini vacib borclardan qaçmaq məqsədi ilə işə salmamalıdır; yəni, bunu üzrlü bir səbəb kimi irəli sürməməlidir.

Əl-Cəd ibn Qeys bir gün Muhəmməd peyğəmbərin yanına gəldi və üzrlü bir səbəbinin olduğunu deyərək ondan müharibəyə getməmək üçün icazə istədi:

Yeri gəlmişkən, görülməli olan ən vacib tədbirlərdən biri də şəhvani hiss və istəklərin seksual motivli haramlara aparmağından Allaha sığınmaq, Ona pənah gətirməkdir. Bu baxımdan hər bir kişi Allaha sığınmağa möhtacdır. Allah bununla əlaqədar olaraq Quranda Yusuf peyğəmbərin dilindən məsləhət verir və aşağıdakı duanı etməyi tövsiyə edir:

**“**(Allahım! Qadınların cinsi münasibətlərlə bağlı tələlərini məndən uzaq et) **Əgər bu qadınların hiyləsini məndən uzaq etməsən mən onlara meyl edər və cahillərdən olaram”.**[51]

---

“Ey Allahın elçisi! Allaha and olsun ki, bizim camaat da mənim qadınları nə qədər çox sevdiyimi bilir. Mən sarı irqin (sarışın) qadınlarını görən kimi səbrimi basmayıb harama düşməkdən qorxuram. Mənə icazə verin ki, fitnə-fəsada düşməyim.”
Muhəmməd peyğəmbər (əs) onun bu sözlərini dinlədi və o vaxtkı şəraiti dərk etmək istəmədən adiləşən bu adamla maraqlanmadı. Üzünü döndərdi. Bu hadisə Tövbə surəsinin hökmü ümumi olan 49-cu ayəsinin nazil edilməsinə səbəb oldu:
**“Onlardan eləsi də var ki: “Mənə icazə ver (döyüşə getməyim), məni günaha batırma!”– deyir. Doğrusu, onlar artıq günaha batmışlar. Şübhəsiz ki, Cəhənnəm kafirləri çulğayacaqdır.”** Baxın: İbn Kəsir, Tövbə, 49.
51 Yusuf, 12/33.

Muhəmməd peyğəmbərin (əs) də bu məsələyə dair bir duası var. O, bizə də belə dua etməyimizi məsləhət görmüşdür:

**اَللَّهُمَّ اِنّي اَعُوذُ بِكَ مِنْ شَرِّ سَمْعِي وَمِنْ شَرِّ بَصَرِ وَمِنْ شَرِّ لِسَانِي**

**وَمِنْ شَرِّ قَلْبِي وَمِنْ شَرِّ مَنِيِّ يَعْنِي فَرْجَهُ**

*"Allahım! Qulaqlarımın, gözlərimin, dilimin, qəlbimin və cinsiyyət üzvümün şərindən, ondan irəli gələ biləcək pisliklərin şərindən Sənə sığınıram."*[52]

**Qadının seksuallığı**

İslam qadının seksuallığı məsələsinə olduqca realist bir mövqedən yanaşır. Onun cinsi hislərini varlığı qədər təbii qarşılayır. Məlumdur ki, qadın öz həyası ilə şəhvani hislərini gizləməyə xüsusi diqqət yetirir. Buna görə də İslam onun seksual haqq-hüququnu açıq-aydın və təfsilatlı formada müəyyən edib.

Uca Allah qadını cazibədar yaradıb. Onu kişilərə sevdirib. Onun bütün bədən üzvləri kişilərin diqqətini cəlb edir. Bu səbəbdən də İslam dinində deyilir ki, qadın ərə getməyinin mümkün olduğu kişilərə qarşı əl, üz və ayaqlarından başqa bütün bədənini örtməlidir.

---

52 Tirmizi, *Dəavat,* 76, hədis nömrəsi 3487.

Qadın hər söz və hərəkəti ilə seksual ab-hava yarada bilər. Onun belə bir xüsusiyyəti var. Özü də şəhvani hisslərlə yüklü ola bilər. Bu, həm əqli zərurət, həm də nəqli (Quran və Sünnə tərəfindən müəyyən edilmiş) bir həqiqətdir. Qadında seksual həzz mərkəzi olan klitorun yaradılması da buna bir sübutdur.

Muhəmməd peyğəmbərin (əs) ifadəsi ilə desək, qadınlar kişilərin bir növ oxşarıdır və onlar da kişilər kimi cinsi-şəhvani hisslərə malikdirlər; hətta bu, bəzən kişilərdəkindən belə, artıq olur. Bunun da başlıca səbəbləri onlardakı xilqət (yaradılış) xüsusiyyətləri və həmişə kişilər tərəfindən arzulanmaqlarıdır. Arzulanmaq isə elə bir haldır ki, seksual istəkləri təhrik edir.

Deməli, qadın özünəməxsus hissləri və seksual tələbatı olan bir varlıqdır. Məhz buna görə o da İslam dininin ümumi və xüsusi əmr və qadağalarına görə cavabdehdir.

Uca Allah və onun elçisi Muhəmməd peyğəmbər (əs) qadınlara buyurublar ki, şəhvətli baxışla baxmasınlar. Bədənlərinin gözəlliklərini aşkar etməsinlər. Özlərini zinadan və lezbiyanlıq kimi münasibətlərdən qorusunlar. Eyni zamanda ərlərinə qarşı öhdəliklərini yerinə yetirsinlər.

İslam dini tərəfindən qadına verilən bu seksual məzmunlu tapşırıqlar təbii ki, bu dində onun seksuallığının realist bir baxışla

qiymətləndirildiyini göstərir. Əlavə olaraq, İslam dini seksual xarakterli tapşırıq və qadağalar vasitəsilə cavabdeh hesab etdiyi qadının qadınlığını müdafiə edən, eyni zamanda inkişaf etdirən qayda və qanunları da müəyyənləşdirmişdir. Bütün bunlar da göstərir ki, bu din qadının seksuallığına real yanaşır.

### A) Qadının həddi-büluğdan əvvəlki dövrü

*a-İslam dini qadının cinsi cəhətdən inkişaf etmiş bir şəxsiyyət kimi formalaşmağı üçün geyim-kecim, hərəkətlər və danışıq tərzi baxımından kişiləşməyini, bir sözlə, insanlarda özü barədə belə bir təəssürat yaratmağını qadağan edib. Böyüklərlə əlaqədar olan bu qadağa sözsüz ki, qız uşaqlarına da şamil edilir. Ancaq onlar uşaq olduqları üçün dini cəhətdən cavabdeh hesab olunmurlar. Elə isə onları uşaqlıq dövründən etibarən qadın kimi böyüdüb boya-başa çatdırmaq valideynlərin borcudur.*

*b-İslam dini 10 yaşına çatan qız uşaqlarının nəinki qardaşları ilə, hətta bacıları ilə belə, eyni yataqda yatırdılmamalı olduğunu bildirir.*[53]

53 Kəşful-xəfa, hədis nömrəsi 2286; Əbu Davud, *Səlat (namaz),* 26; Müsnəd, 2/180.

Bu ilahi tapşırığın məqsədi şübhəsiz ki, qız uşağının dişiliyini lezbiyanlıq kimi seksual azma təmayül və şəraitindən qorumaqdır.

*c-İslam realizminin həddi-büluğ dövründən əvvəl qadının seksuallığına aid bir qaydası da onun gələcəyi ilə əlaqədar sünnət məsələsidir.*

Hərçənd ki, qız uşaqlarının sünnət edilməsi ilə əlaqədar olaraq peyğəmbərə aid edilən sözlər (adət-ənənəni təsdiq etməyinə baxmayaraq) İslam alimlərinin əksəriyyəti tərəfindən mötəbər sözlər kimi qəbul edilmir. Həmin sözləri peyğəmbərin sözü kimi qəbul edənlər isə bunun vacib edən (öhdəlik yükləyən) bir xüsusiyyətinin olmadığını bildirirlər.

Bizim burada qız uşaqlarının sünnət edilməsindən söz açmağımızın da səbəbləri var. Belə ki, qadınların seksual həzz mərkəzi olan klitor üzərində də kişi sünnətinə oxşar bir əməliyyat aparıla bilir. Amma bu, hər qız uşağına tətbiq edilməli olan bir əməliyyat deyil. Elə isə biz də öz əsərimizdə bu məsələni sadaladığımız səbəblərə əsasən və qadının seksual cəhətdən doyumu baxımından təhlil etmək istəyirik.[54]

**B) Qadının həddi-büluğ dövrü**

---

54 Bu barədə ətraflı məlumat almaq üçün “Sünnət (xitan)” fəslinə baxın.

Qadını həddi-büluğ dövründə əhatə edən İslam realizminin ən çox nəzərə çarpan cəhəti onun məhz peyğəmbər tərəfindən ərə verilməsi və buna xüsusi qaydada diqqət yetirilməsidir.

Həzrəti peyğəmbər (əs) həzrəti Əlinin (ra) timsalında bu işə görə cavabdeh olan hər bir möminə belə demişdir:

**يَا عَلِيُّ ثَلاَثٌ لا تُوَخِّرْهَا: الصَّلاةُ اِذَا اَتَتْ وَالْجَنَازَةُ اِذَا حَضَرَتْ،**

**وَالاَيِّمُ اِذَا وَجَدْتَ لَهَا كُفُوًا**

*"Ya Əli! Bu üç şeyi təxirə salma:*

*1) Vaxtı daxil olduqda namazı;*

*2) (Yuyulub kəfənlənən və hazır hala gətirilən) meyyitin namaz və dəfnini;*

*3) Tayını (gələcək həyat yoldaşı) tapdıqda vəlisi olan qız-qadını evləndirməyi."*[55]

Bu hədisdən çox yaxşı məlum olur ki (peyğəmbərin bu tapşırığına əsasən), həddi-büluğ dövründəki qadının seksuallığına əhəmiyyət vermək lazımdır. Əlavə olaraq, bu dövr lazımsız yerə uzadılmamalıdır.

Qeyd edək ki, qadınlarda həddi-büluğ dövrü heyz (aybaşı, menstruasiya) halı ilə başlayır və bu

---

55 Tirmizi, *Cənaiz (cənazələr, meyyitlər),* hədis nömrəsi 1075.

dövrdə cinsi-şəhvani hislər inkişaf edir. Bu dövr eyni zamanda qadında cinsiyyətlə əlaqədar problemlərin üzə çıxmaq ehtimalının olduğu bir dövrdür. Deməli, qızın özünün də təsdiq etdiyi bir evlənmək istəyinə müsbət cavab vermək, həddi-büluğ dövrünü çox da uzatmamaq lazımdır. Ən münasib yol budur.

**Ərgən bir qızın ərə getməyinə tutarsız səbəblər irəli sürüb mane olmaq düzgün deyil**

İslam dini ərgən olan, yəni, həddi-büluğ dövrünə çatan və ərə getmək üçün münasib olan bir qızı ərə verməyi məsləhət görür. Eyni zamanda onun ərə getməyinə mane olmağı da qadağan edir. Əgər qızı mehri-misil[56] verə bilən bir oğlan-kişi istəsə, qız da buna razı olsa, onu ərə vermək lazımdır. Atanın, yaxud da digər vəlilərin (burada: valideyni əvəz edən şəxs) buna mane olmağa haqları yoxdur. Əgər ortada üzrlü, daha doğrusu, tutarlı və haqlı səbəb yoxdursa, bir qızın ərə getməyinə mane olmaq onun gələcəyinə mənfi təsir göstərir. Elə isə bu, ona qarşı bir zülmdür. Bu halda həmin qız məhkəməyə müraciət edib ona edilən haqsızlığı aradan qaldıra bilər.[57] Əlavə olaraq, Quranda Allah tərəfindən

---

56 Məlumat üçün lüğətçəyə baxın.

57 Ömər Nəsuhi Bilmən, *Hüquqi islamiyyə və istilahati fiqhiyyə külliyatı (İslam hüququ və fiqh (islam hüququ) terminləri külliyatı),* İstanbul, 1985, 2-ci cild, s. 48, 57.

təsdiq edilir ki, qadın nikah əqdi (müqavilə) bağlaya bilər.[58] Odur ki, ərgən bir qız atası da daxil olmaqla vəlisinin icazəsini almadan öz tayı ilə ailə qura bilər.

Burada başqa bir məqam da var. Bu da dul qadınla əlaqədardır. Belə ki, İslam dini qız uşağında olduğu kimi, dul qadının ərə getməyinə mane olmağı da qadağan edib.

**Dul qadının ərə getməyinə də mane olmaq olmaz**

Bu qadağa Allah tərəfindən qoyulub və Quranın Bəqərə surəsinin 232-ci ayəsində öz əksini tapıb.

Aşağıdakı hədis bu ayənin nazil edilməsinin səbəbini və hökmünü izah edir:

Məqil ibn Yəsar həzrəti Muhəmməd peyğəmbərin (əs) dövründə öz bacısını mömin bir adama ərə verdi. Bacısı həmin adamla bir müddət yaşadı. Sonra o kişi onu boşadı. İddə müddəti daxilində də onun yanına qayıtmadı. Beləliklə, onlar təzədən evlənəcək qaydada boşandılar.

Boşanma iddəsinin[59] müddəti başa çatdı. Elə oldu ki, həm qadın, həm də kişi təzədən evlənmək istədilər. Qadını istəyən başqa kişilər də var idi.

---

58 Bəqərə, 2/230, 232.
59 Bu barədə məlumat üçün kitabın “İddə” fəslinə baxın.

Qardaşı Məqil isə and içərək həmin adama etiraz etdi:

- Ey ağılsız! Mən sənə yaxşılıq etdim. Bacımı sənə ərə verdim. Sən də durub onu boşadın. Vallah, bundan sonra o istəsə də, heç vaxt sənin yanına qayıdıb arvadın ola bilməz!

(Məqilin bu rədd cavabından sonra) Uca Allah arvadını boşamış kişinin arvadına, qadının da ərinə ehtiyacı olduğunu bildiyi üçün aşağıdakı ümumi qaydanı (ayə) nazil etdi:

**"Qadınları** (təzədən onlarla evlənə biləcək qaydada) **boşadığınız vaxt iddə müddətlərini başa vurduqda və ər-arvad öz aralarında xoşluqla razılığa gəldikdə qadınların ərləri ilə** (və ya başqa bir nəfərlə) **evlənməyinə mane olmayın. Bu sizlərdən Allaha və Axirət gününə iman gətirənlərə verilən bir öyüd-nəsihətdir. Bu sizin üçün daha yaxşı və daha pakdır. Allah bilir, siz isə bilmirsiniz."**

Məqil peyğəmbərdən bu ayəni eşitdikdə belə dedi:

-Rəbbimin əmrini eşidir və itaət edirəm.

Sonra o, bacısının ərinə xəbər yolladı. O adam gəldiyi vaxt dedi ki, sənə (təzədən) yaxşılıq edir və bacımla evləndirirəm.[60]

Yuxarıda da qeyd edildiyi kimi, Qurandakı qadağaya əsasən dul qadının ərə getməyinə mane olmaq olmaz.

**C) Qadının evlilik dövrü**

İslam dini ərdə olan qadının cinsi həyatına da real yanaşır; onun bir sıra seksual haqqı olduğunu bildirir.

**Qadının seksual haqları**

a-Qadının əsas seksual haqqı budur: Onunla sevişməmiş cinsi əlaqədə olmaq olmaz.

Qadının seksual cəhətdən doyuma çatmamağının başlıca səbəblərindən biri onunla sevişmədən cinsi əlaqəyə girməkdir. Muhəmməd peyğəmbər bu məsələdə (əs) müsəlmanlara xüsusi bir tapşırıq verib. Biz bu barədə kitabın xüsusi fəslində ətraflı məlumat verəcəyik. İndi isə İslam alimlərinin aşağıdakı sözlərinə yer verməklə kifayətlənirik:

*"Cinsi əlaqədən qabaq sevişib pıçıldaşmaq, öpüşmək, dil və dodaqları əmmək müəkkəd*

---

60 İbn Kəsir, Bəqərə, 232 (1/282); Tirmizi, təfsiru-l-Quran, hədis nömrəsi 2985.

*sünnədir. Bunun əksinə hərəkət etmək məkruhdur* (harama yaxın günahdır).”[61]

b-Evlilik daxilində qadının seksual haqlarından biri də budur: Kişinin qadının razılığını almadan hamiləliyin qarşısını alan vasitələrdən istifadə etməsi haramdır.

Qadını seksual həzzə çatdıran əsas səbəblərdən biri sözsüz ki, ərinin onda rahatlıq tapdığını hiss etməyidir. Qadını seksual həzz almaqdan məhrum etmək haqsızlıqdır. Buna görə də Allahın elçisi: *“Razılığını almamış azad qadına əzl tətbiq etməyi* (bətnindən kənara boşalmağı) *qadağan etdi.”*[62]

c-Qadını seksual məhrumiyyətə məhkum etmək olmaz.

Ərinin qadına seksual cəhətdən maraq göstərməməyi böyük bir haqsızlıqdır. Çünki bu hal qadın üçün təkcə fiziki deyil, eyni zamanda psixoloji bir böhran deməkdir. Şübhəsiz ki, Allah xəlq etdiyi məxluqları yaxşı tanıyır. Odur ki, qadının lehinə olsun deyə, hər bir mömin kişiyə belə bir tapşırıq vermişdir:

---

61 Feyzu-l-qədir, 5/90.

62 İbn Macə, *Nikah,* 30, hədis nömrəsi 1928. Bəzi fəqih-alimlər bu məsələdə səhlənkarlıq edən və arvadından icazə almayan kişilərin cəzalandırılmalı olduqlarını bildiriblər.

**“Siz nə qədər istəsəniz də, arvadlarınızın arasında ədalətlə davrana bilməzsiniz.** (Heç olmasa) **Birinə tamamilə meyl edib, digərini** (ərli ərsiz qadın kimi) **asılı vəziyyətdə qoymayın.”**[63]

Qeyd edək ki, peyğəmbər də ailə həyatında seksual münasibətlərdən uzaqlaşmağı mömin kişilərə qadağan edib. Bunu qadınlara qarşı bir zülm kimi qəbul edib. Dindarlıqda inkişaf etmək kimi səbəblər də daxil olmaqla hansı səbəblə olursa olsun, seksual həyatdan uzaq olmağı qadağan edib.

---

63 Nisa, 4/129.

**Kişinin xanımları ilə ədalətlə rəftarı**

Müəyyən səbəblərlə birdən çox arvadı olan kişi onların arasında məişət xərclərini, yəni, bütün dolanışıq məsələlərini həll etmək baxımından ədalətlə hərəkət etməlidir. Eyni zamanda onlarla gecələmək məsələində də ədalətli olmalıdır. O, bunlara görə cavabdehdir. Lakin belə bir kişi sevgi-məhəbbət və cinsi əlaqə məsələlərində ədalətli davranmağa görə cavabdeh deyil. Çünki onun buna bir insan kimi gücü çata bilməz. Deməli, kişi sevgi və cinsi əlaqə baxımından bir arvadına üstünlük verə bilər. Buna baxmayaraq digərlərini tamamilə bir kənara qoya bilməz. Bir çox təfsir alimi belə hesab edir ki, qadını havada asılı vəziyyətdə qoymamağın mənası budur: Ona qarşı sevgi-məhəbbət və cinsi əlaqə məsələlərində səhlənkarlıq etməmək (Təbəri, 5/314-315; İbn Ərəbi, Əhkamu-l-Quran, 1/504-505; Haqq dini, Quran dili, 3/1487).

d-Qadını necə deyərlər, gələcək ümidi olmayan seksual yoxsulluğa məhkum etmək olmaz. Bu da onun İslam dinində nəzərə alınıb qorunan seksual haqlarından biridir. Çünki İslam boşamağı 3, and içib cinsi həyatdan uzaqlaşmağı da 4 ayla məhudlaşdırıb. Əlavə olaraq, bu dinə əsasən əgər bir qadının ərinin müalicəsi mümkün olmayan cinsi iqtidarsızlıq (impotent olmaq) kimi bir xəstəliyi varsa, qadın boşanmaq üçün məhkəməyə müraciət edə də bilər.

e-Qeyd etdiyimiz kimi, İslam dininə əsasən qadının bir sıra seksual haqları var. Bunlardan biri də onun iddəsinin müəyyən bir vaxtla məhdudlaşdırılmasıdır.

Qadın boşandığı vaxt 3 heyz və ya 3 təmizlik dövrünü başa vurduqda, ərinin ölümü halında 4 ay 10 gün gözlədikdə, hamilə vaxtı boşandıqda isə uşağını dünyaya gətirdiyi zaman ərə gedə bilər. Onun ərə getməyinə mane olmaq olmaz.[64]

Aşağıda misal verilən hədis İslam dininin bu kimi məsələlərə nə dərəcədə real yanaşdığını göstərir:

*Sübeyə adlı bir qadının əri öldü. Qadın 23 gündən sonra azad oldu (uşağını dünyaya gətirdi). Sonra ərə getmək istədi. Camaat onu qınadı. Ona dedilər ki, sən ərə gedə bilməzsən.*

---

64 Bəqərə, 2/228, 234; Talaq, 65/4.

*Gedib əhvalatı peyğəmbərə (əs) danışdılar. O, belə dedi:*

- *Əgər bu qadın istəsə, ərə gedə bilər. Çünki iddə müddəti doğuşla başa çatır.*[65]

**Békslə məşğul olmaq labüddür**

Yuxarıda izah etməyə çalışdığımız kimi, İslam dini cinsi həyata Allahın tənzim etdiyi bir sahə kimi yanaşır. Bu din kişi və qadının seksuallığını insan həyatının təbii və ayrılmaz bir hissəsi kimi qəbul edir. Seksə göstərilən bu realist və düzgün münasibəti qısa formada aşağıdakı kimi ifadə edə bilərik:

İstər kişi, istərsə qadın olsun, həddi-büluğ dövrünə çatan hər bir insanda cinsi-şəhvani hislər yaranır. Qidalanan və yatan ərgən insan kənardan təhrik edici-oyadıcı bir mesaj almasa belə, bu hislər onun iradəsinin xaricində meydana gəlir. Bu minvalla da inkişaf edir.Yəni, bir insan özünü xüsusi olaraq qorumağa çalışsa da, bu prosesə mane ola bilməz. Həyatın təbii axarı da öz işini görür. Beləliklə, ehtiyac və tələbat halını alan cinsi-şəhvani istəkləri ödəmək lazım gəlir.

---

65 Buxari, *Talaq*, 39; ət-Tac, 2/361; İbn Macə, hədis nömrəsi, 2027.

Bəli, insanı əhatə edən cinsi-şəhvani məzmunlu reallıq budur. Elə isə insanın qarşısında görə biləcəyi 4 iş durur:

1. Seksual fəallıq qabiliyyətini yox etmək;

2. Seksual istəklərini həmişə nəzarətdə saxlamaq (kontrol etmək) və bu sahədə öz-özünə təzyiq göstərmək. Yəni, subay qalmağa davam etmək.

3. (Kişi və ya qadın) Cinsi əlaqədə ola bildiyi insanlarla zina, homoseksualizm və lezbiyanlıq kimi yollarla öz cinsi-şəhvani istəklərini yerinə yetirmək;

4. Evlənmək və seksual ehtiyaclarını həyat yoldaşı ilə yaradılışa əsasən (təbii-fitri halda) ödəmək.

İnsan yuxarıda sadalanan işlərin hamısını görə bilər. Lakin onun öz istədiyini seçməyə ixtiyarı yoxdur. Çünki insanı hər dəqiqə seksual xarakterli bir addım ata bilmək qabiliyyətində yaradan Allah onu cinsi həyatında da ilahi imtahandan keçirir. Buna görə də ona cinsi məzmunlu tapşırıqlar vermiş, qadağalar qoymuşdur.

Mömin bir insan öz seçimini bu ilahi buyuruq və qadağalara əsasən etməyə məcburdur.

İslam dininin bir-birini tamamlayan 2 əsas mənbəyi olan Quran və Sünnə yuxarıda qeyd etdiyimiz yollardan ilk üçünü qadağan edir. Təkcə 4-cü yolun düzgün yol olduğunu bildirir. Üstəlik də insanlara bu yolla getməyi buyurur.

# İSLAMA ƏSASƏN CİNSİ HƏYAT

**Müəllif: Ali Rza Dəmircan**

Azərbaycan dilinə çevirib uyğunlaşdıran Fəqani Bəylərov *(fəlsəfə doktoru: fəlsəfə və ilahiyyat elmləri)*

# IV FƏSİL

# İNSANIN ÖZÜNÜ CİNSİ HƏYATDAN TƏCRİD ETMƏSİ HARAMDIR

**Allahın elçisi həzrəti Muhəmməddən müdrik kəlamlar**

*"İslam dinində evlənməmək və özünü cinsi həyatdan təcrid etmək – ruhbanlıq yoxdur."*

*"Hər ümmətin özünəməxsus bir rubanlığı var. Mənim ümmətimin (müsəlmanların) ruhbanlığı Allah yolunda cihad etməkdir."*

*"Həyatı özünüzə çətin hala salmayın. Elə etməyin ki, sizə də çətinlik törədilməsin. Tarixi cəmiyyətlərdən biri olan xristianlar ruhbanlığa meyl etdilər. Həyatı özləri üçün çətinləşdirdilər. Beləcə, gün-güzəranları çətinləşdi. Budur, onların özlərindən çıxartdıqları (qondarma)*

*ruhbanlığın qalıqları monastırlardadır. Allah onlarla əlaqədar olaraq belə deyir:*[66]

**“Biz onlara ruhbanlığı tapşırmadıq. Onlar bunu Allahın razılığını qazanmaq məqsədilə özləri uydurdular. Ancaq sonra ona layiqincə riayət etmədilər.”** (Hədid, 57/27)

### Seksual aktivliyi aradan qaldırmağa cəhd etmək haramdır

**“Biz onlara ruhbanlığı tapşırmadıq. Onlar bunu Allahın razılığını qazanmaq məqsədilə özləri uydurdular. Ancaq sonra ona layiqincə riayət etmədilər.”** (Hədid, 57/27)

Uca Allahın lənətlədiyi, bununla belə, insanları yoldan çıxardan işlər görməyinə icazə verdiyi şeytan o vaxt belə and içmişdi:

**“Mən insanlara təlqin edəcəyəm, onlar da Allahın yaratdığı məxluqatdakı təbii quruluşu pozacaq, əsl məqsədindən uzaqlaşdıracaqlar.”**

Quranın yuxarıda mənası verilən bu ayəsinə (Nisa, 4/119) əsasən insanın xilqət (yaradılış) nizamını bu və ya digər şəkildə pozub dəyişdirmək şeytan əməlidir və haramdır.

Bu ayə və peyğəmbərin onu izah edən qadağalarına əsasən İslam dini seksual

66 Baxın: Kəşfu-l-xəfa, hədis nömrəsi 3154; İbn Kəsir, Hədid, 57/27.

qabiliyyətin insanın özü və ya başqa bir nəfər tərəfindən aradan qaldırılıb yox edilməsini, o cümlədən belə bir arzu və təşəbbüsü qəti surətdə qadağan edib. Şübhəsiz ki, buradakı əsas məqsəd insanın yaradılışla zidd düşməyi kimi bir ehtimalın və onun ilahi imtahana üsyan etməyinin qarşısını almaqdan ibarətdir.

Qeyd edək ki, seksual iqtidarı aradan qaldırmağın əsas yolu xədimləşmək və kimi isə xədim etməkdir.

### Xədimləşmək

Xədimləşmək kişinin yumurtalarını çıxartmaq və ya onları burmaqla seksual iqtidarını və dölləmə (mayalandırma) qabiliyyətini aradan qaldırmaq deməkdir. Bu, insanın özünə qarşı etdiyi bir zülmdür. Halbuki insan özünə zülm tətbiq etməli deyil. Əksinə öz-özünə ədalətlə yanaşmalıdır. Çünki peyğəmbərimiz (əs): *"Nəfsinin də sənin boynunda haqqı var"*, - demişdir.[67]

Məlumdur ki, İslam dini Allahın elçisi həzrəti Muhəmməd (əs) tərəfindən təbliğ edilirdi. O vaxt imkanı olmadığına görə evlənə bilməyən və günaha batmaqdan ehtiyat edən bəzi möminlər xədimləşmək barədə fikirləşirdilər. Ancaq onlar peyğəmbərin qəti qadağası ilə üzləşdilər.

67 Buxari, *Ədəb*, 86, *Savm (oruc)*, 51; ət-Tac, 2/99.

Aşağıdakı hədislər də xədimləşməyin İslam dinində qadağan olduğunu açıq-aydın göstərir:

Əbu Hüreyrə (ra) belə rəvayət etmişdir:

“Mən bir problemim haqda peyğəmbərə dedim:

-Ya rəsulallah, siz də bilirsiniz ki, mən cavanam. Nəfsimə hakim olmamaqdan – şəhvani hislərimə təslim olmaqdan çəkinirəm. Zina günahına batmaqdan qorxuram. Evlənməyə də imkanım yoxdur. Bu halda özümü xədim edə bilərəm?

Peyğəmbər mənə cavab vermədi. Mən eyni məsələni təzədən dilə gətirdim. Bunu 2 dəfə təkrar etdim. Yenə cavab vermədi. Bu sualı 4-cü dəfə soruşduqda isə belə dedi:

**يَا اَبَا هُرَيْرَةَ جَفّ الْقَلَمُ بِمَا اَنْتَ لاقٍ فَاخْتَصِ عَلَى ذَلِك اَوْ ذَرْ**

*-Ey Əbu Hüreyrə! Qəza-qədər ssenarisini yazan qələmin işi başa çatdı.*

*Bu vəziyyətə görə istər xədimləş, istərsə də xədimləşmə. Bunun əhəmiyyəti yoxdur. O halda sən sənə əmr verildiyi kimi yaşa, xədimləşməyə cəhd etmə!”*[68]

---

68 Buxari, *Nikah,* 7.

Səid ibn As rəvayət edir ki, Osman ibn Mazun Allahın elçisindən belə bir şey xahiş etdi:

-Ya rəsulallah! Mən xədimləşmək istəyirəm. Buna icazə verirsinizmi?

Muhəmməd peyğəmbər (əs) cavab olaraq belə dedi:

*-Allah qadınlardan uzaqlaşmağı (ruhbanlıq) bizim üçün evlilik və tətbiq edilməsi asan olan İslam şəriəti ilə dəyişdirdi. Əgər sən də bizim kimi İslama iman gətirənlərdənsənsə, bizim etdiyimiz kimi et* (xədimləşməyə cəhd etmə, evlən)*!”*[69]

### Xədimləşdirmək

Can, ağıl, din, mal-mülk və nəsli qorumaq məqsədi güdən İslam dinində faiz və içki məsələlərində olduğu kimi, haram bir işi görmək də, gördürmək də haramdır. Deməli, xədimləşmək kimi, xədimləşməyə səbəb olmaq, yaxud xədim hala salmaq da haramdır.

Muhəmməd peyğəmbər (əs) insanın cinsiyyət üzvünü məhv etmək (funksiyasını pozmaq) və dölləmə (mayalandırma) qabiliyyətini aradan qaldırmağa qəsdən adam öldürməyə oxşar və ya səhvən adam öldürməyə verilən cəzanı münasib bilib. Bu da onu göstərir ki, kimi isə xədim etmək

---

69 Ayni, 20/72; Sünən-i-Nəsai, 6/59.

nə dərəcədə haramdır.[70] Çünki İslam cəza hüququnda bir qayda kimi haram edilməyən və ya İslama müvafiq idarə sistemi tərəfindən qadağan olunmayan əməllərə görə cəza tətbiq etmək olmaz.

Yuxarıda misal verdiyimiz hədislər və şərhlər göstərir ki, yaradılış nizam-intizamını dəyişdirməyə cəhd etmək, o cümlədən xədimləşmək və ya kimi isə xədim etmək Allaha üsyan etmək deməkdir. Bu, böyük bir günahdır. İslam dini (peyğəmbərin sözü ilə) nəinki insanları, hətta heyvanları belə, xədim etməyi (axtalamaq, burmaq) qadağan edib.[71]

Osmanlı dövlətinin tarixində baş verən xədimləşdirmə halları şübhəsiz ki, İslam dininə əsasən zülmdür. Bu işkəncədir, yaradılış nizam-intizamını dəyişdirmək deməkdir. Bir sözlə, haramdır. Aşağıda misal verilən fitvadan da məlum olur ki, haramlığı izah edildiyi halda bu iş davam etdirilib:

---

70 İbn Macə, *Diyat*, 29.

71 Beyhəqi, Sünəni-kübra, hədis nömrəsi 20289; Məcməu-z-zəvaid, hədis nömrəsi 9368; İbn Kəsir, Nisa, 119.
İslam alimləri ayqırı (damazlıq at) maydana (dişi at) yaxın buraxmamağı da günah kimi qəbul edirlər. Çünki Muhəmməd peyğəmbər bunu o heyvanın haqlarına təcavüz olduğu üçün qəti surətdə qadağan edib. Baxın: İslamda halallar və haramlar, 1/675.

Sual: *“Həbəşistan və zənci tayfasından olan, Misir və həndəvərindən alınan kişi və oğlan uşaqlarının bəzilərinin tənasül alətlərini* (cinsiyyət üzvü) *kəsib məcbub* (xaya və penisi kəsilmiş)*, yaxud da axta* (buruq) *hala salmaq dini cəhətdən düzgün olarmı?”*

Cavab: *“Xeyr, bu, haramdır.”*[72]

Əgər subay, yaxud da evli bir mömin öz seksual istəklərinin ucbatından zina günahına batmaq və beləliklə də, axirət əzabına düçar olmaqdan ehtiyat edirsə, evlənməlidir. Əgər buna maddi cəhətdən gücü çatmırsa, evlənənə qədər peyğəmbərin tövsiyəsinə müvafiq qaydada müstəhəb (vacib olanların xaricində qalan) oruc tutmalı, gecə namazına durmalı və Quran oxumalıdır.

Səhabə Abdulla ibn Amr belə rəvayət edir:

**جَاءَ رَجُلٌ اِلَى رَسُولِ الله فَقَالَ: يَا رَسُولُ الله اِئذَنْ لِي اَنْ اَخْتَصِيَ**

**فَقَالَ رَسُولُ الله خِصَاءُ أُمَّتِي أَلصِّيَامُ وَالْقِيَامُ**

Bir adam peyğəmbərin yanına gəlib dedi:

-Ey peyğəmbər! Mənə icazə verin, xədimləşim.

---

72 Şeyxulislam Arif Əfəndidən nəql etməklə A. Akgündüz, Osmanlıda hərəm, s. 277.

Allahın elçisi buna icazə vermədi. Belə dedi:

-*Mənim ümmətimin xədimləşməyi gündüz oruc tutmaq, gecə namaz qılmaq və Quran oxumaqdır. Beləcə, cinsi istəklərini nizamlayıb kontrol etməkdir.*[73]

Seksual məzmunlu haramlardan qorunmaq üçün xədimləşməyin əvəzinə məsləhət görülən müstəhəb oruc və namazlarla yanaşı, cihad da tövsiyə olunur.

Aşağıdakı sənəd bunu ifadə edir:

Bir nəfər səhabələrdən biri olan Əbu Səid əl-Xudrinin yanına gəlib ona məsləhət vemrəyini xahiş etdi. Əbu Səid də ona dedi ki, mən sənin məndən xahiş etdiyin şeyi vaxtilə peyğəmbərdən istədim. Gəl, onun mənə verdiyi öyüd-nəsihəti sənə də danışım:

*Sənə məsləhət görürəm ki, Allahın əmr və qadağalarına sadiq ol. Əsl məsələ və əməllərin əsası budur.*

*Bir də cihaddan yapış. Çünki İslam dininin ruhbanlığı (seksual həyatdan dinə müvafiq qaydada çəkilmək forması) cihaddır. Əlavə olaraq, Allahı zikrə və Quran oxumağa da əhəmiyyət ver. Bütün bunlar (xüsusilə zikr və*

---

73 Müsnəd, 2/173; Müzzəmmil, 73/1-4.

*Quran oxumaq) sənin üçün göydə rəhmət, yerdə qədir-qiymətdir.*[74]

Yuxarıdakı hədisdə məsləhət görülən cihadı Allah bilir, belə də başa düşmək olar: Geyim-kecimə fikir vermək (örtünmək) və təhlükəsizlik qaydalarına rəayət etmək şərtilə bütün idman fəaliyyətləri ilə məşğul olmaq. Məsləhət görülən zikr və Quran oxumaq da bütün faydalı elmi-mədəni işləri əhatə edir.

## Qısırlaşmaq-qısırlaşdırmaq

Əməliyyat vasitəsilə həyata keçirilən və dölləmə-mayalandırma qabiliyyətini aradan qaldırmaq mənası daşıyan qısırlaşma-qısırlaşdırma da yaradılış nizam-intizamını pozduğu üçün İslam dinində haram hesab olunur. İkinci bir əməliyyatla dölləmə qabiliyyətini qismən bərpa etmək olur. Bununla belə, yəqin ki, haramlıq hökmü dəyişmir.

## Subaylıq xüsusi şərtlər daxilində haramdır

İslam dini seksual aktivliyi aradan qaldırmaq mənasını daşıyan xədimlik və xədimləşdirməyi qadağan etdiyi kimi, seksual istəkləri müntəzəm qaydada zəiflədib onlara həmişə təzyiq göstərməyi də qadağan edib. Eynilə bunun kimi, Allahın yaratdığı seksuallığı öz funksiyasını

---

74 Müsnəd, 3/82; İbn Kəsir, Hədid, 27.

yerinə yetirə bilməyən hala salmağı, yəni, subaylığı da qadağan edib. Çünki o da şeytandan irəli gələn bir rəftardır və yaradılış nizam-intizamına ziddir:

**“Mən insanlara təlqin edəcəyəm, onlar da Allahın yaratdığı məxluqatdakı təbii quruluşu pozacaq, əsl məqsədindən uzaqlaşdıracaqlar.”** (Nisa, 4/119)

Aşağıdakı hədislər də subaylığın İslam dinində hansı şərtlər daxilində və hansı məqsədlə qadağan olunduğunu izah edir.

### İslam dininə əsasən subaylığı prinsip halına gətirmək olmaz

Allahın elçisi (əs) subaylığın prinsip və məqsəd halına gətirilməməli olduğunu belə izah etmişdir:

“(Fiziki və maddi imkan ola-ola) *İslamda evlənməmək deyilən bir şey yoxdur.”*[75]

### “Biz evlənməyəcəyik”, - deyənlər lənətə düçar olurlar

**لَعَنَ رَسُولُ الله مُخَنَّثِى الرِّجَالِ الَّذِينَ يَتَشَبَّهُونَ بِالنِّسَاءِ وَالْمُتَرَجِّلاَتِ مِنْ النِّسَاءِ الْمُتَشَبِّهَاتِ بِالرِّجَالِ، وَالْمُتَبَتِّلِينَ مِنَ الرِّجَالِ الَّذِينَ يَقُولُونَ لاَ تَتَزَوَّجُ وَالْمُتَبَتِّلاتِ مِنَ النِّسَاءِ اللاتِي يَقُلْنَ مِثْلَ ذَلِكَ**

---

75 Feyzu-l-qədir, 6/428, hədis nömrəsi 9892.

*"Allahın elçisi qadınlara oxşamağa çalışan arvadsifət kişilərə, kişilərə oxşamağa çalışan erkəksifət qadınlara və bir də seksual həyatdan uzaqlaşıb: "Biz evlənməyəcəyik", - deyən kişilərlə belə deyən qadınlara lənət etdi."*[76]

Buradan belə bir nəticə çıxır ki, Allahın elçisi yaradılış nizam-intizamı ilə ziddiyyət təşkil edən əməlləri və insanın öz iradəsinə əsasən qadına/kişiyə oxşamağa çalışmağını lənətləyib. Eyni zamanda o, mənəvi cəhətdən xədimləşmək olan subaylıqdan möhkəmcə yapışmağa da lənət yağdırıb. Başqa sözlə desək, o, bütün bunları insanı ilahi mərhəmətdən məhrum edən əməllər kimi qiymətləndirib. Doğrudan da, bu təhlil Nisa surəsinin 119-cu ayəsi ilə üst-üstə düşür.

## Evlənməyən şəxs peyğəmbərin yolundan çıxmış hesab olunur

Muhəmməd peyğəmbər (əs) üzrsüz yerə subay qalmaq barədə belə demişdir:

مَنْ كَانَ مُوسِراً لأَنْ يَنْكِحَ ثُمَّ لَمْ يَنْكِحْ فَلَيْسَ مِنِّى

*"Evlənmək üçün* (lazımi seksual və) *maddi imkana malik olduğu halda evlənməyən şəxs mənim yolumda gedənlərdən deyil."*[77]

---

76 Məcməu-z-zəvaid, 4/251; Müsnəd, hədis nömrəsi 7891.
77 Məcməu-z-zəvaid, 4/251; Abdurrəzzaq, Müsənnəf, hədis nömrəsi 10376; Darimi, *Nikah,* 1.

## Subaylar şeytanların qardaşları ola bilərlər

Ərəblərin Təmimi qəbiləsindən Ukkaf ibn Bişr adlı bir şəxs günlərin bir günü Muhəmməd peyğəmbərin (əs) yanına gəldi. Peyğəmbər (əs) ondan evli olub olmadığını soruşdu. Həmin adam: "Xeyr", - cavabını verdi. Peyğəmbər (əs) bunun üstündən belə soruşdu:

-(Evlənmək üçün lazım olan sağlamlıq və) *maddi imkanın var?*

Adam: "Var ya rəsulallah", - deyə cavab verdi.

Peyğəmbər (əs) sözlərinə davam edib dedi:

*"Bu halda sən şeytanların qardaşları kimisən. Əgər xristian olsaydın, onların rahiblərinə qoşulardın.* (Halbuki sən xristian deyilsən. Elə isə niyə subaysan?) *Bizim yaşayışımıza əsaəsn evlənmək lazımdır, lazımlıdır...*

*Bilirsənmi, şeytanlar* (öz aralarında) *belə danışırlar:*

*İbadətlərini yerinə yetirən və gözəl əxlaqı olan bəndələri* (ibadət yolundan) *çıxartmaq üçün şeytanların* (əxlaqsız) *qadınlardan daha güclü silahı yoxdur. Şeytanlar təkcə evli olan ibadətli və əxlaqlı Allah bəndələrini yoldan çıxarda*

*bilməzlər. Onlar pak, seksual məzmunlu haramlardan qorunmuş bəndələrdir. Allah sənə yaxşılıq etsin Ukkaf! Dayanma, evlən! Əgər evlənməsən,* (fəzilətlə fəzilətsizliyin arasında) *vurnuxanlardan olarsan!"*

(Bu açıq-aydın və qəti əmri eşidən) Ukkaf peyğəmbərdən (əs) xahiş etdi ki, onu evləndirsin. Muhəmməd peyğəmbər (əs) də onun xahişini qəbul edib dedi:

*"Səni Gülsümün qızı Kərimə ilə evləndirdim."*[78]

**Subaylıqla əlaqədar ilahi meyarların təhlili**

İslam dininin ümumi qayda-qanunları və subaylığı pisləyən peyğəmbər hədislərini təhlil etdikdə subay qalmağın aşağıdakı səbəblərə əsasən qadağan edildiyini görürük:

*1) Subaylıq Allahın qoyduğu yaradılış nizam-intizamı və nəslin çoxalmasına zidd düşmək deməkdir. Belə bir ziddiyyət şeytanın təhriki ilə xilqəti (yaradılış) dəyişdirmək deməkdir. Ona görə də haramdır.*[79]

---

78 Məcməu-z-zəvaid, 4/250; Müsnəd, 5/163. Burada hədisin xülasəsi verilib. Bu hədisin məzmunu evlənməyə böyük əhəmiyyət verən Quranla üst-üstə düşür.
79 Nisa, 4/119.

*2) Subaylıq Allahın qoyduğu qanunların bir qisminə görə cavabdehlik daşımamaq üçün ilahi imtahandan qaçmaq deməkdir. Çünki Allahın qoyduğu və ilahi imtahan üçün vasitə seçdiyi Quran hökmlərinin bir hissəsi qohumluq münasibətləri, ailə qurmaq, boşanmaq, vərəsəlik və sairə ilə sıx əlaqədardır.*

*3) Subaylıq fiziki və psixi narahatlıqlara səbəb olan bir məhrumiyyətdir. Bu, insanın nəfsinə qarşı zülmdür. İnsan isə öz nəfsinə qarşı zülm etməli deyil; əksinə, onunla ədalətli rəftar etməlidir. Çünki peyğəmbərimiz (əs): "Nəfsinin də sənin boynunda haqqı var", - demişdir.*

*4) Uca Allah buyurur ki,* **canlarınızı** (özünüzü) **öz əllərinizlə təhlükəyə atmayın** *(Bəqərə, 2/195). Subaylıq həyatın təbii istək və ehtiyacları ilə toqquşduğu üçün bir növ insanı sekslə əlaqədar haramlara aparmaq deməkdir. Onu mənəvi cəhətdən təhlükəyə salmaq deməkdir. Həqiqətən də, heç bir subay insan sekslə bağlı haramlardan sığortalanmayıb.*[80]

*5) Yer üzündəki kişi və qadınların sayında demək olar ki, tarazlıq olduğuna görə subaylıq əks cinsdən bir nəfəri də subaylığa məhkum etmək və beləcə, onu da xoşbəxtlikdən uzaqlaşdırmaq deməkdir.*

---

80 Yusuf, 12/14, 33; Nisa, 4/28.

*6) Subaylıq bizim varlığımıza həyat yoldaşı məhəbbəti yerləşdirən, onları Öz elm, qüdrət və hikmətinin əlaməti olaraq təqdim edən və bir nemət kimi tanıdan Allaha qarşı laqeyd qalmaq deməkdir. Onun əhəmiyyət verməyi lazım bildiyi şeylərə biganə yanaşmaq deməkdir.*[81]

*7) Subaylıq batil din və ideologiyalara mənsub olanlara, eləcə də, xristianların keşişlərinə oxşamaq deməkdir. Onlara oxşamaq isə haramdır.*

Muhəmməd peyğəmbər (əs) bununla əlaqədar olaraq belə demişdir:

**تَزَوَّجُوا فَاِنِّى مُكَاثِرٌ بِكُمُ الأُمَمَ، وَلا تَكُونُوا كَرُهْبَانِيَّةِ النَّصَارَى**

*"Evlənin. Mən digər ümmətlərə qarşı sizin çoxluğunuzla iftixar edərəm. Nəbadə, xristianların keşişləri kimi subaylıqdan yapışıb qalmayın!"*[82]

*8) Bütün bunlarla yanaşı, subaylıq Allahın: "Evlənin!", - əmrinə, xüsusilə də yolundan getməli olduğumuz peyğəmbərin (əs) tapşırıqlarına və yaşayış tərzinə ziddir. Ona zidd olmaq isə haramdır, böyük günahdır. Çünki o peyğəmbər (əs) buyurub ki, evlənmək mənim*

---

81 Rum, 30/21; Nəhl, 16/72.
82 Əl-Camiu-s-səğir, "təzəvvəcu" bəndi, 1/130.

*sünnəmdir. Elə isə bundan üz döndərənlər mənim yolumda deyillər.*

Burada bir məsələni xüsusi olaraq vurğulamaq istəyirik: Evlənib ailə qurmaqla əlaqədar hədislərdə işlədilən *sünnə* sözü bəzilərinin güman etdiyi kimi fərz və ya müstəhəb demək deyil. Bu cür hədislərdəki *sünnə* sözü məsuliyyət ifadəsi kimi fərzi də, vacibi də, sünnəni də əhatə edən yol və həyat tərzi mənalarını daşıyır.[83]

Bəli, İslam dininin yuxarıda sadaladığımız qaydalarına əsasən subaylığı pisləyən buyuruqlarını birlikdə təhlil etdikdə belə bir faktla üzləşirik: Fizki və maddi imkan olduğu halda və həyat yoldaşına zülm etmək kimi bir narahatlıq hissi olmamağına baxmayaraq təkidlə subay qalmaq çoxcəhətli bir haramdır. Bunu bütün bu məlumatlardan açıq-aydın şəkildə başa düşmək mümkündür. Bu məsələni öz bütünlük və müqəddəs meyarları daxilində təhlil etməyin nəticəsi budur.

Təəssüf ki, bəzi İslam alimləri qeyd etdiyimiz mövzuya dair münasibət bildirdikləri vaxt əsl məsələyə bu cür yanaşmayıblar. Belə ki, onlar azad qadınlarla evlənməyin mümkün olmadığı hallarda əsir mömin qadınlar olan kənizlərlə

83 Təcridi-sərih, 11/391.

evlənməyi məsləhət görən Quran ayəsinin (Nisa, 4/25) axırıncı hissəsindən subaylığa haqq qazandıran bir nəticəyə gəliblər. Doğrudan da, onların bu fikirlərini qəribə qarşılamamaq mümkün deyil. Çünki məhz həmin ayə belə, azad qadınlarla evlənməyi əsas tutur.

Qurani-Kərimin evliliklə əlaqədar hökmlərini ehtiva edən Bəqərə, Nisa, Nur, Əhzab və Talaq surələri göz qabağında ola-ola, Quran bütün peyğəmbərləri evli və övlad sahibi kimi təqdim etdiyi halda, üstəlik başda Allahın elçisi Muhəmməd peyğəmbər (əs) olmaqla bir çox peyğəmbərin məhdud çoxarvadlılığının bilinməyinə baxmayaraq həzrəti Yəhyanın Ali-İmran surəsində "Həsur"[84] kimi səciyyələndirilməsini əsas götürüb subaylığın heç bir eybi olmadığını irəli sürmək, hətta bunun məsləhət görülə biləcəyinə dair dəlil-sübut tapıb çıxartmaq qətiyyən mümkün deyil. Ki, həzrəti İsa və həzrəti Yəhya Muhəmməd ümmətini bu mənada maraqlandırmayan müstəsna nümunələrdir. Doğrudan da, həzrəti Yəhya məsələsini də ehtiva edən bir hədis bu məsələni açıq şəkildə izah edir:

Allahın elçisi belə buyurur:

---

84 Gücü çatdığı halda cinsi həyatdan çəkilən şəxs.

*“Dörd zümrənin dünya və axirətdə lənətə düçar olmağı, ilahi mərhəmətdən kənar edilməyi istəndi. Mələklər də bu diləyin qəbul olunmağı üçün: “Amin!”, - dedilər. Bunlar aşağıdakılardır:*

*a) Allah onları kişi olaraq xəlq etdiyi halda özlərini qadınlaşdıran və qadınlara oxşamaya çalışan kişilər;*

*b) Allah tərəfindən qadın olaraq yaradıldığı halda nəfsini kişiləşdirən və kişilərə oxşamağa cəhd edən qadınlar;*

*c) Kor bir insanın yolunu çaşdıran* (səhv salmağına səbəb olan) *adamlar;*

*d) Allah Zəkəriyyə oğlu Yəhya peyğəmbərdən başqa heç kəsə “Həsur” qalmağı buyurmadığı halda “Həsur” qalan, qadınlardan uzaq durub subaylıqdan yapışan insanlar.”*[85]

Burada qeyd etmək istərdik ki, subaylığı dini cəhətdən təhlil etmək üçün verdiyimiz izahlar nəticə etibarilə (əsasən) İslam alimlərinin əksəriyyətinin fikirlərini ifadə edir. Çünki bütün İslam alimləri *“Nəfsin tüğyan etdiyi vaxt və zina günahına batmaq qorxusu halında infaqa* (baxmaq, himayə etmək, dolandırmaq) *gücü*

---

85 Əd-Durru-l-mənsur, Ali-İmran, 39.

*çatanlar üçün* (evlənməyin) *fərzi-ayn olması"* məsələsində həmfikirdirlər.[86]

Bundan əvvəlki fəsildə kişinin seksuallığı məsələsini təhlil edərkən Yusuf surəsinin 24-cü ayəsi və Muhəmməd peyğəmbərin (əs) bir hədisinə əsaslanaraq izah etmişdik ki, heç bir insan zina da daxil olmaqla haramlardan sığortalanmayıb. Bu səbəbdən də cinsi iqtidar və maddi imkanı olanın evlənməyi fərzi-ayndır.

Əlavə olaraq, evlənməklə əlaqədar Quran və Sünnə buyuruqları fərziyyəti (fərz olmaq) də, nədbiyyəti (məndub olmaq) də əhatə edir. Buna görə də: *"Evlənmək etiqadi (inanc baxımından) olmasa da, əməl baxımından fərzdir"*, - deyən müctehidlər və böyük alimlər əksəriyyət təşkil edirlər. Evlənməyin bütün İslam ümmətinə fərz olduğuna dair fikir də geniş yayılan və üstünlük təşkil edən bir fikirdir.[87]

### Üzrlü bir səbəb olmadığı halda həmişə subay qalmaq haramdır

Yuxarıda ümumi və xüsusi xarakterli dini dəlillərə əsasən və İslam alimlərinin qənaəti

---

86 Haqq dini, Quran dili, 2/1289.
87 Ömər Nəsuhi Bilmən, *Hüquqi islamiyyə və istilahati fiqhiyyə külliyatı (İslam hüququ və fiqh (islam hüququ) terminləri külliyatı),* İstanbul, 1985, 2/42-2.

çərçivəsində izah etdik ki, evlənmək şərtlərini yetirə bilənlər üçün fərzdir.

Fərzi tərk etmək (yerinə yetirməmək) haram olduğu üçün fərz olan evliliyi tərk etmək də haram hesab edilir. Sözsüz ki, burada haram olduğunu qeyd etdiyimiz subaylıq seksual güc və maddi imkan olduğu halda, eləcə də, həyat yoldaşına zülm vermək qorxusu olmamağına baxmayaraq davam etdirilən daimi subaylıqdır.

### Seksual güc-qüvvə

Uca Allahın Qurani-Kərimdə sayələrində doyuma çatacağımız həyat yoldaşları yaratdığını və aramıza seksual cazibə qoyduğunu bildirməsi, o cümlədən kişini qadın üçün pərdə kimi səciyyələndirməyi, evlilik əqdində qadına verilən mehirin cinsi əlaqə ilə bağlı olduğunu bildirməyi, uşaq üçün cinsi əlaqədə olmağı tapşırması və yoldaşlarımızın bizə oğul-uşaq verməyinin Öz nemətlərindən olduğunu qeyd etməsi onu göstərir ki, evlənmək üçün seksual güc-qüvvə lazımdır.[88]

Buna görə də seksual iqtidarı olmayan bir nəfər subay qalmaq məsələsində dinin prinsiplərinə əsasən üzrlü hesab olunur. Onun üçün əsl məsələ elə subaylıqdır. Çünki seksual güc-qüvvə olmadığı halda evlənmək həyat yoldaşına zülm etmək deməkdir. Bu isə haramdır.

---

88 Rum, 30/21; Bəqərə, 2/187; Nisa, 4/24; Nəhl, 16/72.

Belə bir şəxs evlənsə də, arvadı məhkəmə vasitəsilə ondan ayrıla bilər. Qadının belə bir haqqı var.

### Maddi imkan

İnsanın subaylıq ucbatından Allah dərgahında məsul hesab edilməyi üçün həm seksual güc-qüvvəsi, həm də maddi imkanı olmalıdır. Çünki Quranın hökmünə əsasən ər arvadının nəfəqəsini[89] ödəməlidir.[90]

Maddi imkanı olmayana evlənmək fərz deyil. Buna görə də kasıb adamın subaylığında dini cəhətdən bir eyib yoxdur. Əsl eyib vəziyyət mehir verə bilməyən, yaşamaq üçün evi olmayan (və ya ev tuta bilməyən) və dolanışıq xərclərini daimi olaraq ödəməyə gücü çatmayan bir nəfərin evlənməyə cəhd etməyidir.

### Həyat yoldaşına zülm verməkdən ehtiyat etmək

---

89 Yemək-içmək, səhiyyə xərcləri və yaşamaq üçün yer kimi zəruri ehtiyacları ödəməyə çatacaq miqdarda pul, mal-mülk və ya əşya – *tərcüməçinin qeydi.*

90 Nisa, 4/34. Qadına nəfəqə verilməyinin vacibliyi, verilməməsi və ya verilə bilməməyi kimi hallarda ər-arvadlığın aradan qalxması və ayrılmağın mümkünlüyü ilə əlaqədar hədislər üçün baxın: Zadu-l-məad, "hukmu rəsulillahi fi təmkini-l-mər-əti min firaq-i-zəvciha" fəsli.

Subaylığı üzrlü hala gətirən 3-cü dərəcəli bir səbəb də kişinin yoldaşına zülm verəcəyindən ehtiyat etməsi və ya ona qarşı evlilik əqdindən yaranan öhdəlikləri yerinə yetirə bilməməkdən qorxmağıdır. Təbii ki, bu, olduqca xüsusi bir səbəbdir. Hətta onu səbəb kimi qəbul edib subay qalmaq qərarına gəlmək mənəvi cəhətdən təhlükəlidir. Çünki gələcəyi ancaq Allah bilir; gələcək Onun sərəncamındadır. Əlavə olaraq, bu cür həssas düşünəcək qədər ehtiram (Allah xofu) və qorxusu olan bir insan öz üstünə düşən öhdəlikləri zülm etmədən də yerinə yetirə bilər. Bu səbəblə əlaqədar olaraq tündxasiyyətli bəzi müstəsna şəxslərə olsa da, bəraət qazandıran bir hədisi aşağıda qeyd etmək istərdik:

İbn Abbas (r. a.) nəql edir ki, Əsəm qəbiləsindən bir qadın Allahın elçisinin yanına gəldi və ondan belə bir şey xahiş etdi:

-Ya rəsuləllah! Mən dulam. Mənə kişinin (ərin) arvadının boynundakı haqları başa sal. Onlar nədən ibarətdir? Əgər görəsm ki, qadının öhdəliklərini yerinə yetirə bilərəm, o vaxt ərə gedərəm. Əgər bunun mümkün olmadığını düşünsəm, dul kimi yaşamağa davam edərəm.

Allahın elçisi (əs) o qadına belə dedi:

*Ərin arvadının üstündəki əsas haqqı odur ki, onun ürəyi istədiyi vaxt qadın onunla cinsi*

*əlaqədən qaçmasın. Ərin arvadının üzərindəki o biri haqları isə bunlardır:*

*a) Qadın müstəhəb orucları ancaq ərinin icazəsi ilə tutmalıdır. Əri ilə razılığa gəlmədən oruc tutan qadın* (arvadlıq vəzifəsini yerinə yetirməkdən boyun qaçırmış və ərinin haqqını tapdamış olacağına görə) *sadəcə olaraq ac-susuz qalmış olur. Çünki orucu qəbul olunmaz.*

*b) Qadın ərindən icazəsiz* (dini və adət-ənənə ilə əlaqədar səbəblər olmadan, şübhəyə səbəb olacaq şəkildə) *evindən çıxmamalıdır. Çıxıb ictimai münasibətlər yaratmamalıdır. Əgər çıxsa, səma, rəhmət (mərhəmət) və əzab mələkləri ona evinə qayıdana qədər ilahi mərhəmətdən kənarlaşdırılmağı üçün qarğış edərlər.*

Muhəmməd peyğəmbərin (əs) bu cavabını eşidən qadın belə dedi:

*Mənim başqa əlacım yoxdur. Əsla ərə getməyəcəyəm.*[91]

---

91 Məcməu-z-zəvaid, 2/306-307; əl-mətalibu-l-aliyətu, hədis nömrəsi, 1607.
Bu hədis zəif xarakterli olduğu üçün qəbul olunmaya bilər. Bununla belə, məzmunu baxımından səhihdir. Bu barərə məlumat üçün baxın: İbn Macə, *Nikah,* 4; Müxtəsəri səhihi-Müslim, hədis nömrəsi 830; Mişkatu-l-məsabih, hədis nömrəsi 3269.

İndi isə yaxşı olar ki, bu hədis vasitəsilə səhv şərhlər verilməyinin qarşısını alan bəzi məlumatlar verək:

*Ər-arvad evlilik əqdindən irəli gələn öhdəlikləri yerinə yetirməlidirlər. Buna görə də ərdə olan bir qadın aybaşı (heyz) və zahılıq kimi dini, xəstəlik kimi tibbi-fizioloji səbəblər olmadığı halda, cinsi əlaqədə olmaq öhdəliyindən boyun qaçıra bilməz. Belə etməməlidir. Çünki bunu üzrsüz səbəbdən təxirə salmaq belə, arada ərinin haqqı tapdandığı üçün qadını günahkar hala salır.*

*Eynilə bunun kimi, ərdə olan bir qadın ərində başqa bir kişi ilə münasibətdə olduğuna dair şübhə yaradacaq şəkildə məlumat vermədən – özbaşına gəzib dolaşa bilməz, ictimai münasibətlər yarada bilməz.*

### Daimi subaylıq

Subaylığın haramlığı üçün, daha doğrusu, subaylıq haqqında haram hökmü vermək üçün onun daimi olmağı da şərtdir. Çünki bir insanın seksual güc-qüvvəsi və maddi imkanı olduğu halda evlənmək imkanı olmaya bilər. Yəni, təhsil, hərbi xidmət, müharibə və digər bu kimi hallar

---

Bu hədisdə qeyd olunan qeyri-münasib hərəkətləri qəsdən edən qadın Quran dilində "nüşuz" olan və pislənən bir qadındır. Baxın: Nisa, 4/34.

insanın evlənməyini gecikdirə bilər. Buna görə də müvəqqəti subaylıq haramın sərhədlərinin kənardadır. Lakin insan subaylıqdan irəli gələn problemləri aradan qaldırmaq üçün müvafiq tədbirləri görməlidir. Xədimləşməklə əlaqədar fəsildə izah etdiyimiz kimi, həmin tədbirlərin ən vacibləri oruc tutmaq, gecə namazı və cihaddır. Allahın elçisi evlənməyi, o cümlədən evlənmək mümkün olmadığı halda özünü qoruyub saxlamağı məsləhət görən bir hədisində belə demişdir:

**يَا مَعْشَرَ الشَّبَابِ مَنِ اسْتَطَاعَ مِنْكُمْ الْبَاءَةَ فَلْيَتَزَوَّجْ، فَإِنَّهُ أَغَضُّ لِلْبَصَرِ وَاَحْصَنُ لِلْفَرْجِ، وَمَنْ لَمْ يَسْتَطِعُ فَعَلَيْهِ بِالصَّوْمِ، فَإِنَّهُ لَهُ وَجَاءٌ**

*“Ey cavanlar! Cinsi cəhətdən güc-qüvvəsi olub evlənə bilənləriniz evlənsin. Həqiqətən, evlənmək gözü şəhvətli baxışlardan daha çox saxlayır, cinsiyyət üzvünü* (harama vasitə olmaqdan) *çox qoruyur.*

*Evlənə bilməyənləriniz isə oruc tutmağa davam etsin. Şübhəsiz ki, oruc insanı* (şəhvət hücumlarından) *qoruyan bir qalxandır.”*[92]

Göründüyü kimi, subaylıq məsələsini İslam realizmi baxımından tədqiq etməyə çalışdıq. Nəticə olaraq, subaylıqla əlaqədar həqiqət qısa

---

92 Tirmizi, hədis nömrəsi 1081; Mişkatu-l-məsabih, hədis nömrəsi 3080.

desək, budur: Fiziki və maddi bir problem olmadan həmişə subay qalmaq İslam dininə əsasən qəbuledilməzdir.

Seksual ehtiyaclara görə olsa da, məhdud çoxevliliyi qəbul edən İslam dini subaylığı peyğəmbərin vasitəsilə şər mühiti kimi qiymətləndirir.

Muhəmməd peyğəmbərin (ona Allahın səlat və salamı olsun) sekslə əlaqədar reallığa əsasən təlim-tərbiyə verdiyi və İslama dərindən bələd olan əshabələrin fikri də bu cürdür.

**Misallar:**

*"Subay bir cavan gördüyüm vaxt baş verəcək şər tüklərimi ürpərdir. Cəmi 3 gün ömrümün qaldığını bilsəydim, o 3 gün ərzində yenə evlənərdim."*

***Ömər ibn Xəttab***

*"Mənim evlənmək imkanı tapacağım 10 günlük ömrüm qalsaydı və mən 10-cu gün öləcəyimi bilsəydim, seksual xarakterli haramlara düşməmək üçün mütləq evlənərdim."*

***Abdulla ibn Məsud***

*"Allahım! Cinsi doyuma çata biləcəyim bir yoldaşım olmadığı vaxt şəhvani istəklərimin*

*şiddətli hala gəlməyindən Sənə pənah aparıram.”*[93]

***Əbu-d-Dərda***

## Evlilikdə cinsi həyatdan kənara çəkilmək haramdır

**“Biz onlara cinsi həyatdan kənarlaşmaq olan ruhbanlığı tapşırmadıq. Onlar bunu Allahın razılığını qazanmaq məqsədilə özləri uydurdular. Ancaq sonra ona layiqincə riayət etmədilər.”** (Hədid, 57/27)

İslam dini xədimləşmək, xədimləşdirmək və subaylığı rədd etdiyi kimi, evlənməyə maneçilik törətməyi, eləcə də evlilik daxilində cinsi həyatdan kənar olmağı və onun xüsusi bir forması olan ilanı da qadağan edib.[94]

Evlənməyə/ərə getməyə mane olmaq məsələsini “Qadının seksuallığı” fəslində izah etmişdik. İla məsələsini də növbəti fəsillərdə tədqiq edəcəyik. İndi isə ibadət məqsədilə olsa belə, evlilik həyatında seksual münasibətlərdən uzaqlaşmağın qadağan olunduğunu sübut edən hədisləri təqdim etməklə kifayətlənirik:

---

93 Müntəxəbu kənzi-l-ummal, 6/391; Məcməu-z-zəvaid, 4/251; Qurtubi, 3/433.

94 İla: Kişinin 4 və ya daha artıq bir müddətdə arvadı ilə cinsi əlaqədə olmayacağına dair and içməsi. Ətraflı məlumat üçün “İla” fəslinə baxın.

Həzrəti Ənəs (ra) nəql edir ki, əshabələrdən 3 nəfərlik bir dəstə Allahın rəsulunun xanımlarının yanına gəlib onun ibadət həyatı barədə məlumat almaq istədilər. Onlara verilən məlumatın az olduğunu fikirləşdilər və bunun səbəbi olaraq belə dedilər:

“Biz harada, Allahın gəlib-keçmiş və gələcək bütün günahlarını bağışladığı həzrəti peyğəmbər harada?”

Beləliklə, özlərini inandırdılar ki, daha çox ibadət etmək lazımdır. Aralarından biri: *“Mən bütün gecələri namaz qılacağam”*, - dedi. Başqa biri: *“Mən fasiləsiz olaraq hər gün oruc tutacağam”*, - dedi. Üçüncü şəxs isə öz fikrini: *“Yoldaşlarımdan ayrılacaq, bir də (heç vaxt) evlənməyəcəyəm”*, - deyə, ifadə etdi. Yəni, onlar belə bir qərara gəldiklərini bildirdilər. Allahın rəsulu onların qərarını öyrəndikdə yanlarına gəldi və bu hərəkətlərini pisləyən bir tərzdə belə dedi:

**أَنْتُمْ الَّذِينَ قُلْتُمْ كَذَا؟ أمَّا وَاللهِ اِنِّي لأخْشَاكُمْ للهِ وَأَتْقَاكُمْ لَهُ، لَكِنِّي اَصُومُ وَاُفْطِرُ، وَاُصَلِّي وَارْقُدُ، وَاَتَزَوَّجُ النِّسَاءَ، فَمَنْ رَغِبَ عَنْ سُنَّتِي فَلَيْسَ مِنِّي**

*“Siz belə hətərən-pətərən sözlər deyib (bu cür) qərarlara gəlirsiniz?*

*Baxın, Allaha and olsun ki, mən sizin Allaha təzim edib Ondan ən çox qorxanınızam. Sizin aranızda Onun əmr və qadağalarına ən çox sadiq*

*qalan mənəm. Bununla belə, mən bəzi günlər oruc tutur, bəzi günlərdə də tutmuram* (ət və yağ da yeyirəm). *Gecələrin hir hissəsini namaz qılıb ibadət etməklə, bir qismini də yatmaqla keçirirəm. Qadınlarla evlənir, ailə həyatımı yaşayıram. Mənim yolumdan kənara çıxanlar məndən deyillər."*[95]

Bundan sonra əziz peyğəmbərimiz məscidə gəlib əshabələrə dedi:

*"Sizin bəzilərinizə nə olub ki, öz-özlərinə qadınları, yeməkləri, halal nemətləri, yatıb dincəlməyi və dünyanın müvafiq zövqlərini haram edirlər? Ağlınızı başınıza yığın! Mən sizə demədim ki, xristianların keşiş və rahibləri kimi olun. Bizim dinimizdə ət yeməmək, qadınlardan kənar olmaq, xristianların etdikləri kimi fasiləsiz ibadət etmək üçün xüsusi yerlər ayırmaq yoxdur. Mənim ümmətimin yalnızlığı oruc tutmaq, həyat və seksdən çəkilməyi isə cihad etməkdən ibarətdir. Allaha ibadət edin və heç bir şeyi Ona şərik tutmayın! Həcc və Ömrəni yerinə yetirin.*

---

95 Buxari, *Nikah,* 1; Müslim, *Nikah,* 5; əl-Lu-lu-u və-l-mərcan, hədis nömrəsi, 885.
Bir dəfə bir adam həzrəti Muhəmmədin (əs) yanına gəlib belə deyir:
"Ət yediyim vaxt qadınlara qarşı istəyim gücləndiyi üçün ət yeməyi özümə qadağan etdim".
Bu əhvalat səbəbindən Maidə surəsinin 87-ci ayəsi nazil olur. Baxın: İbn Kəsir, Maidə, 5/87.

*Namazınızı qılın vəı zəkatınızı verin. Ramazan orucunu da tutun. Sizdən əvvəl ifrata varanlar həlak olub getdilər. Siz özünüzə hakim olun!"*

Peyğəmbərimiz bundan sonra Maidə surəsinin 87-ci ayəsini oxudu:

**"Ey iman gətirənlər! Allahın sizə halal qıldığı pak nemətləri qadağan etməyin. İfrata da varmayın** (həddi aşmayın)**. Çünki Allah ifrata varanları sevməz."[96]**

# İSLAMA ƏSASƏN CİNSİ HƏYAT

## Müəllif: Ali Rza Dəmircan

Azərbaycan dilinə çevirib uyğunlaşdıran Fəqani Bəylərov *(fəlsəfə doktoru: fəlsəfə və ilahiyyat elmləri)*

# V FƏSİL

96 Vaqidi, əsbabu-n-nuzul, Maidə, 5/87; İbn Kəsir, Maidə, 5/87.

# EVLƏNMƏK TƏBİİ BİR EHTİYAC, DİNİ BİR ÖHDƏLİKDİR

## Quran mesajları

**“Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məvəddət** (seksual cazibə) **və rəhmət** (sevgi) **salması Onun varlığının dəlillərindəndir. Həqiqətən, bunda düşünən bir xalq üçün alınmalı olan ibrətamiz dərslər vardır.”**

(Rum, 30/21)

### Evlənmək fitri-təbii bir ehtiyac, dini bir öhdəlikdir

İstər kişi, istərsə də qadın olsun, həddi-büluğ dövrünə çatan hər bir insan seksual hislərə malik olur. Ruh və bədənin sağlamlığından asılı olaraq həmin hislər artıb azalır. İnsan aldığı tərbiyə və yaşadığı şəraitdən asılı olaraq bu hislərini aşkara çıxardır və onları ödəməyə cəhd edir.

Ciddi bir müsəlman və yaxud da insanın anadangəlmə malik olduğu əxlaq xüsusiyyətini qoruyub saxlaya bilən hər bir insan üçün cinsi ehtiyaclarını ödəyib doyuma çatmağın yeganə

yolu evlənməkdir. Məhz buna görə də evlilik ilk insan cəmiyyətlərindən indiyədək mövcudluğunu davam etdirmişdir.

Evlilik həqiqi qiymət və müqəddəsliyinin ifadəsini peyğəmbərlərin yolundan gedən cəmiyyətlərdə tapsa da, seksual anarxiya şəraitində belə, öz varlığını qorumuşdur. Bunun da öz növbəsində 2 əsas səbəbi var:

*a) Evlənmək, başqa sözlə desək, ailə hissi insanda fitridir. Yəni, yaradılışdan irəli gəlir.*

*b) Evlənmək həzrəti Muhəmməd (əs) də daxil olmaqla bütün peyğəmbərlər tərəfindən məlahət görülüb əmr olunmuşdur.*

İnsanları xəlq edən Uca Allah kişini qadına, qadını da kişiyə meylli və möhtac yaradıb. Allah kişilərdə qadın və oğul sevgisi yaradıb. Kişiyə mayalandırmaq, qadına da doğmaq güc-qüvvəsi bəxş edib. Beləliklə, kişi ilə qadının arasında uşaq sahibi olmaq kimi bir nəticəyə varan çox güclü bir cazibə qüvvəsi xəlq edib. Eyni zamanda ər-arvada övlad məhəbbəti və bununla yanaşı, onu böyüdüb boya-başa çatdırmaq üçün lazım olan fədakarcasına zəhmət çəkmək, səbr və mərhəmət etmək kimi hisləri bəxş edib.

Yuxarıda qeyd etdiyimiz bu xüsusiyyətlər hər bir insanın varlığına yaxşı-yaxşı yerləşdirildiyinə görə onlar qadın-kişi, cavan-qoca və alim-cahil

olub olmamağından asılı olmayaraq evlənməyə meylli, istəkli və təşəbbüskar olublar.

Allahın bəşəriyyətə göndərdiyi axırıncı ilahi nizam-intizam olan İslamın idarəsindən məhrum qalan insanlığın evliliyi qoruyub saxlamağının sirri də elə budur: Yaradılışdan irəli gələn evlənmək ehtiyacı.

Uca Allah insanları evlənib ailə qurmağa meylli və möhtac yaratdığı kimi, onların arasından seçib göndərdiyi peyğəmbərlərin vasitəsilə də evlənməyi əmr etmişdir. Həqiqətən də, bəşəriyyət üçün böyük liderlər olan peyğəmbərlər insanlara mütəmadi olaraq evlənməyi aşılayıblar. Özləri də buna şəxsən nümunə olublar. Beləcə, insanlar görüblər ki, yaradılışdan etibarən malik olduqları evlənmək istəyi Allahın xüsusi buyuruqları ilə müqəddəs hesab olunur. Nəticə etibarilə bu amil də onları evlənməyə həvəsləndirmişdir. Beləliklə, evlənib ailə qurmaq bəşər mədəniyyətinin əsas təşkilatına çevrilmişdir.

Yeri gəlmişkən, insanın fitri-təbii quruluşu eyni xüsusiyyəti mühafizə edir. İslam dini ilə yanaşı, təhrif edilmiş səmavi-ilahi dinlər də öz təsirini davam etdirir. Bu səbəblərdən ailə öz mövcudluğunu qoruyub saxlayır. Gələcəkdə də saxlayacaqdır.

## İslam dini evlənməyi əmr edir

Məlumdur ki, cinsi həyat fitri-təbii bir ehtiyacdır; əgər mane olan fiziki və maddi bir zərurət yoxdursa, onu təxirə salmaq ancaq seksual məzmunlu haramlara səbəb olur. Buna görə də Uca Allah həzrəti Muhəmmədin (əs) vasitəsilə göndərdiyi İslam dinində möminləri evlənib ailə qurmağa təşviq etmişdir.

Evlənmək məsələsi İslam dininin iki əsas mənbəyi olan Quran və Sünnədə xüsusi olaraq vurğulanıb. Buna əsasən demək olar ki, ilahi qanunların əksəriyyəti onun ətrafında bir yerə cəm olub.

## Qurani-Kərimdə evlilik

Evlənib ailə qurmaq məsələsi Qurani-Kərimdə başda Bəqərə, Nisa, Nur və Təlaq surələri olmaqla demək olar ki, bütün surələrdə birbaşa və dolayı yolla ifadə edilir. Çünki boşanma, vərəsəlik (miras), nəsəb-süd-evlilik qohumluğu, vəsiyyət, örtünmək, ata-ana və qohum-əqrəbaya yaxşılıq, seksual xarakterli haramlara dair bəzi cəzalar və sairə kimi məsələlər evliliklə əlaqədardır.

Qurani-Kərimdə qayda-qanunların insanların evli-ailəli olması prinsipinə əsasən qoyulduğunu belə, deyə bilərik. Çünki evlilik demək olar ki, Quranın hər bir surəsinə nüfuz etmişdir. Quranda əsir müsəlman qadınlarla evlənmək əmri (Nisa, 4/25) ilə yanaşı, "Evlənin!" buyuruğunun açıq

şəkildə Nisa surəsinin 3-cü ayəsində sadəcə olaraq bir dəfə, o da birdən artıq qadın almaq icazəsi ilə əlaqədar olaraq verilməsi yuxarıda qeyd etdiyimiz həqiqətin sübutudur.

Nəticə olaraq belə deyə bilərik:

Quranda: *"Evlənin!"* və: *"Evləndirin!"* kimi tapşırıqlar xüsusi olaraq bir dəfə qeyd edilir, lakin bütün Quran evlənib ailə qurmağa istiqamətləndirir.

### Sünnədə evlilik

Qurani-Kərimin izahı olan Sünnədə isə evlənib ailə qurmaq açıq-aydın formada məsləhət görülür. Hətta təkrarən əmr olunur.

Biz burada Muhəmməd peyğəmbərin (əs) insanları evlənib ailə qurmağa istiqamətləndirən buyuruqlarını üç qrupa ayırmaqla izah edəcəyik:

a) Evlənməyə həvəsləndirən ümumi prinsiplər;

b) Övlad sahibi olmaq üçün evlənməyə həvəsləndirən düsturlar;

c) Seksual məzmunlu haramlardan qorunmaq məqsədilə evlənməyə istiqamətləndirən qaydalar.

### Evlənməyə həvəsləndirən ümumi prinsiplər

İslami yaşayış tərzini evlənib ailə qurmağın üzərində quran və Quranda: **“Evləndirin!”** və: **“Evlənin!”** əmrlərini verən Uca Rəbbimiz yoldaşlardan hər birini digərini tamamlayan və bütöv hala gətirən mənasında “zövc” adlandırıb.[97] Onun elçisi olan əziz peyğəmbərimiz həzrəti Muhəmməd (əs) də insanları bu çərçivədə evlənməyə istiqamətləndirib. Həzrəti Muhəmməd (əs) subaylıq və dulluğun mənəvi cəhətdən kasıblıq olduğuna toxunmuş və belə demişdir:

### Subaylıq kasıblıqdır

**مِسْكِينٌ مِسْكِينٌ مِسْكِينٌ رَجُلٌ لَيْسَ لَهُ اِمْرَأَةٌ وَاِنْ كَانَ كَثِيرَ الْمَالِ،**

**مِسْكِينَةٌ مِسْكِينَةٌ مِسْكِينَةٌ اِمْرَأَةٌ لَيْسَ لَهَا زَوْجٌ وَاِنْ كَانَتْ كَثِيرَةَ الْمَالِ**

*“Arvadı olmayan kişi çox mal-mülk sahibi olsa da, kasıbdır, kasıbdır, kasıbdır. Əri olmayan qadın da varlı-hallı olsa da, kasıbdır, kasıbdır, kasıbdır.”*[98]

Peyğəmbər (Allah şanını ucaltsın və ona sadiq olanları artırsın) digər bir hədisində evlənib ailə qurmağın onun özünün və o biri peyğəmbərlərin yolu olduğunu belə izah etmişdir:

### Evlənmək peyğəmbərlərin yoludur

97 Nur, 24/32; Nisa, 4/3, 25; Rum, 30/21.
98 Məcməu-z-zəvaid, 4/252.

*“Nikah (evlənmək) mənim sünnəmdir; əmrimdir, həyata keçirdiyim bir işdir. Sünnəmə əməl etməyən mənim həyat yolumda deyil. Evlənin. Çünki mən digər ümmətlərə qarşı sizin çox olmağınızla fəxr edirəm, edəcəyəm. Elə isə imkanı olan evlənsin. Evlənə bilməyən oruc tutsun. Oruc oruc tutan üçün qoruyucudur.”*

*“Utanmaq, gözəl ətir vurmaq, dişləri təmizləmək və evlənmək bütün peyğəmbərlərin xüsusiyyət və tövsiyələrindəndir.”*[99]

## Evlənib ailə qurmaqda ruzi var

Peyğəmbərlərin əmr etdikləri və fitrətin lazım bildiyi evlənmək məsələsində kasıblıq ümumən bir maneə hesab olunur. Bu səbəbə görə Rəbbimiz Quranın Nur surəsinin 32-ci ayəsində **“Kasıb evlilərin ehtiyaclarını ödəyəcəyini və onların rahatlığa çatacağını”** vəd edib.

Peyğəmbərimiz də Qurana müvafiq olaraq: *“Ruzini evlilikdə axtarın”*, - deyə, insanları evlənməyə istiqamətləndirmiş və: *“Kasıblıqdan qorxub evlən(dir)məyənlər bizim (yaşayışımız) kimi deyillər”*, - demişdir.[100]

Biz belə hesab edirik ki, islami şüurla evlənib ailə qurmağı qarşısına məqsəd qoyan və dolanışıq

---

99 Tirmizi, *Nikah,* 2 (hədis nömrəsi 1080; ət-Tac, 2/287; Məcməu-z-zəvaid, 4/252.

100 Müntəxəbu kənzi-l-ummal, 6/390-391.

qayğılarını öz öhdəsinə götürən şəxs daha həssas hərəkət edir. Beləcə də, daha çalışqan və təşəbbüskar olur. Əgər məsələyə bu cür yanaşsaq, peyğəmbər (əs) tərəfindən verilən istiqamət və xəbərdarlıqları həqiqi mənada dərk edə bilərik.

### Evli insan Allahın dərgahında daha qiymətlidir

Evli bir şəxsin Allahın dərgahında daha üstün bir mövqedə olacağını fikirləşmək də mümkündür. Çünki evli şəxsin yerinə yetirəcəyi (dolanışıq xərclərini ödəməkvə oğul-uşaq böyütmək kimi) ilahi əmrlər subay və dulla müqayisədə daha çox olur. Eyni zamanda o, seksual xarakterli haramlardan daha yaxşı qoruna bilir. Beləliklə də, Allahın gözəl bir bəndəsi olur; yəni, o, bu mövqeyə daha çox yaxınlaşır. Onun öhdəlik, məsuliyyət və ailədaxili problemlərinin arasında öz əql və qəlbini hazır hala gətirib yerinə yetirdiyi ibadətlər də təbii ki, ona daha çox savab qazandırır. Elə buna görə də Allahın elçisi evlənməyə təşviq və həvəsləndirmə kimi qiymətləndirdiyimiz bir hədisində belə demişdir:

رَكْعَتَانِ مِنَ الْمُتَزَوِّجِ اَفْضَلُ مِنْ سَبْعِينَ رَكْعَةً مِنَ الْعَزَبِ

*“Evlinin 2 rükət namazı subayın 70 rükət namazından üstün və savablı olacaq mövqedədir.”*[101]

*“Allah bir bəndəsinə imanlı, ibadət edən və əxlaqlı bir qadınla ruzi versə, ona dininin yarısında kömək etmiş olur. O biri yarısı üçün də özünü Allahın əmr və qadağalarına zidd düşməkdən qoruyub saxlasın.”*[102]

## Övlad sahibi olmaq üçün evlənməyə həvəsləndirən düsturlar

Bəşəriyyətin həyatını çoxalma qanunundan asılı hala gətirən və biz insanlara mayalandırmaq və mayalanmaq (dölləmək və döllənmək) qabiliyyəti bəxş edən Rəbbimiz Quranda uşaq və nəvələri şükrlə qarşılanmalı olan nemətlər kimi təqdim edir. O, buyurur ki, Onun qəza-qədər ssenarisi ilə müəyyənləşdirdiyi övladları məhz Ondan şifahi və əyani dua olan əlaqə ilə istəyək. Misal üçün, məhsul götürülən əkin sahəsinə oxşatdığı qadınlarla - həyat yoldaşlarımızla onların təbii döllənmə dövrləri olan aybaşı (heyz) halından sonra əlaqədə olmağımızı tapşırır.

Tədqiq edildikcə məlum olur ki, Qurandakı nizam-intizam övlad sahibi olmaq məqsədi güdən

---

101 Yenə orada.
102 Eyni mənbə, 6/389, 396; İbn Macə, hədis nömrəsi, 1846.

evlilik-ailə üzərində qurulub. Bütün həyatı Qurandan ibarət olan Muhəmməd peyğəmbər (əs) də Qurana müvafiq olaraq insanları öz hədisləri ilə evlənməyə istiqamətləndirdiyi kimi, uşaq sahibi olmaq məqsədilə evlənməyi də xüsusi vurğulamışdır.[103]

## Bərəkətli qadınlarla evlənin

Məqil ibn Yəsar (ra) nəql edir:

Bir nəfər Allahın elçisinin (əs) yanına gəlib belə bir əhvalat danışdı:

-Ya Rəsulallah! Mən gözəl və əsilzadə bir qadınla evlilik məsələsində razılığa gəldim. Məsələ burasındadır ki, həmin qadın uşaq doğa bilməz (sonsuzdur). Sizcə mən onunla evlənimmi?

Rəsulullah cavab verib dedi ki, xeyr, evlənmə.[104]

---

103 Ətraflı məlumat üçün kitabın VI fəslinin "Qorunma tədbirlərinə müraciət etmək"qisminə baxın.

104 Bu kimi hədislərdə gördüyümüz qadağa peyğəmbərin sonsuz dul qadınla evlənməyi haram etdiyini göstərmir. Düzünü Allah bilir, bu, uşağı olmadığı halda sonsuz bir dul qadınla evlənməyə üstünlük verilməməsini məsləhət bilən bir qadağadır.

Həmin adam 2-ci dəfə gəldi və eyni sualı bir də soruşdu. Allahın elçisi (əs) ona dedi ki, xeyr, o qadınla evlənmə.

Sonra o şəxs bir də peyğəmbərin (əs) yanına gəldi. Eyni sualı təkrar etdi. Allahın elçisi ona əsaslandırılmış bir cavab verdi:

**تَزَوَّجُوا الْوَدُودَ، فَإِنِّي مُكَاثِرٌ بِكُمُ الأُمَمَ**

-(Zənci olsa da) *ərini sevə bilən bərəkətli (doğurgan) qadınlarla evlənin. Mən başqa ümmətlərə qarşı sizin çoxluğunuzla fəxr edirəm.*[105]

Əziz peyğəmbərimiz (əs) müsəlmanları ümumiyyətlə övlad sahibi olmağa həvəsləndirməklə kifayətlənmir, görüşüb söhbət etdiyi əshabələrini xüsusi olaraq da uşaq sahibi olmağa təşviq edirdi.

## Övlad sahibi olmaq üçün cinsi əlaqəyə davam et

Həzrəti Cabir (ra) nəql edir:

Mən (bir dəfə) hərbi səfərdə peyğəmbərin yanında idim. Mədinəyə qayıdış başladığı vaxt yavaş-yavaş yola davam edən dəvəmi sürətləndirmək istədim. Elə oldu ki, arxamdan bir atlı gəlib mənə çatdı. Bir də kimi görsəm,

---

105 Əbu Davud, *Nikah*, 4, hədis nömrəsi 2050.

yaxşıdır?! Allahın elçisi mənimlə üzbəüz dayanıb! (Aramızda belə bir söhbət oldu):

-(Ey Cabir!) *Niyə belə tələsirsən?*

-Mən təzə evlənmişəm.

*-Bakirə ilə evlənmisən, yoxsa dulla?*

-Dul qadınla.

*-Gərək sənin onunla, onun da səninlə sevişib oynaşağı bakirə bir qızla evlənəydin!*[106]

---

106 Buxari, *Nikah,* 121.

**Bakirəliyin əhəmiyyəti**

Biz burada bu hədisin vasitəsilə bakirəliklə əlaqədar müəyyən məlumatları verməyi münasib hesab edirik:

Belə ki, Uca Allah insanı mükəmməl surətdə yaradıb. İnsanın bədənində lazımsız və funksiyası olmayan bir orqan yoxdur. Elmi sübutlara əsasən qadın bədəni cinsiyyət üzvü yolu ilə yoluxan xəstəliklərə qarşı ancaq həddi-büluğ dövrünə çatdıqdan sonra müqavimət göstərə bilir. Məsələyə bu baxımdan yanaşdıqda bakirəliyin qoruyucu xüsusiyyəti olduğunu da başa düşmək olar. Bədənin sağlamlığının ruhun sağlamlığı üçün vacibliyi isə açıq-aydın bir həqiqətdir.

İslam dini psixoloji və seksual cəhətdən münasib olmaq və doğurqanlıq kimi səbəblərə əsasən xüsusilə subay kişilərə bakirə qızlara üstünlük verməyi tövsiyə edir. Bununla belə, bakirəliyin əsas əhəmiyyəti aşağıdakılardan irəli gəlir:

- Bakirəlik İslam hüququna əsasən cəzalandırılmalı olan bir qəbahətin törədilmədiyini sübut edir;
- Bakirəlik hamiləlik kimi nəslin qarışmasına səbəb olan bir hadisənin baş vermədiyini göstərir;

Həzrəti Cabir rəvayətinə bu sözlərlə davam edir:

Biz Mədinəyə qayıtdığımız vaxt evlərimizə dağılışmağa başladıq. Allahın elçisi bizə xəbərdarlıq etdi:

-*Evlərinizə getmək məsələsində axşama qədər tələsməyin. Belə edin ki, saçları pırtlaşıq qadın daransın, əri yanında olmadığına görə* (bir müddətdir) *özünə fikir verməyən qadın da bədənini təmizləsin.*

Sonra peyğəmbər (əs) şəxsən Cabirə belə tapşırdı:

-*Ey Cabir! Uşaq sahibi olmaq üçün lazım olanı et! Cinsi əlaqəyə davam et!*[107]

---

- Bakirəlik qadının xəstəliyə səbəb olan mikroblardan qorunduğuna dair bioloji bir sənəd rolunu oynayır.
Bu fikirləri başqa sözlərlə də ifadə etmək olar:
Bakirəliyin ülviliyi ərə təqdim olunmalı olmasından çox Yaradana qarşı bəndəliyin yerinə yetirmək, eləcə də, zina kimi böyük bir haramdan qorunmaq vasitəsi olmağından irəli gəlir. Buna görə də qəza keçirən və yaxud təcavüzə məruz qalan, nəticədə də bakirəliyini itirən qız İslamın ictimai mühakimə məntiqi baxımından öz dəyərini itirimir. Lakin vəlisi və ya özü tərəfindən bakirə olduğu deyilən və kəbini kəsilən qızın bakirəliyi sübuta yetirilə bilməsə, əri tərəfindən ona qarşı kəbini ləğvetmə (evliliyə xitam vermək) iddiası qaldırıla bilər.
107 Buxari, *Nikah*, 121.

## Seksual məzmunlu haramlardan qorunmaq və doyuma çatmaq məqsədilə evlənməyə istiqamətləndirən düsturlar

Uca Rəbbimiz seksual haramlardan çəkinib özünü qoruyanları mədh etmiş, onlara böyük mükafatlar vəd vermişdir (Muminun, 23/5-6; Əhzab, 33/35). Rum surəsinin 21-ci ayəsində isə bizim üçün öz cinsimizdən yoldaşlar yaratmağının və aramızda seksual cazibə və məhəbbət xəlq etməyinin fiziki (bədənlə əlaqədar) və mənəvi rahatlığa çatmaq məqsədi daşıdığını ifadə etmişdir. Beləliklə O, çoxcəhətli doyumun vacibliyinə işarə vurmuşdur.

Bütün həyatı canlı Quran olduğuna görə Muhəmməd peyğəmbər (əs) insanları uşaq sahibi olmaq üçün evlənməyə həvəsləndirdiyi kimi, seksual haramlardan qorunmaq, fiziki və mənəvi doyuma çatmaq üçün də evlənməyi təşviq edib.[108]

---

Həzrəti peyğəmbərin (əs) müsəlmanları övlad sahibi olmağa həvəsləndirən bu və bu kimi hədislərini əsas tutan həzrəti Ömər belə demişdir:
"Mən öz nəfsimi cinsi əlaqəyə məcbur edirəm. Çünki Allahın mənim nəslimdən Onu zikr edəcək bir bəndə yaradacağına ümid edirəm." Müntəxəbu kənzi-l-ummal, 6/319.
108 Şübhəsiz ki, evlənməyin əsas məqsədi nəslin çoxalmağıdır. Bununla belə, yoldaşlarımızın yaradılış məqsədi, evlənməklə əlaqədar dini buyuruqların sonsuzları da əhatə etməsi, əzlin (qorunmaq) bəzi İslam alimləri

O (Ona Allahın salamı olsun), haramlardan qorunmaq üçün evlənməyə istiqamətləndirmə kimi qiymətləndirdiyimiz hədislərində belə deyir:

### Allah qorunmaq üçün evlənənə kömək edir

**ثَلاَثَةٌ حَقّ عَلَى اللهِ عَوْنُهُمْ: اَلْمُكَاتَبُ الَّذِي يُرِيدُ الاَدَاءَ،**

**وَالنَّاكِحُ الَّذِي يُرِيدُ الْعَفَافَ، وَالْمُجَاهِدُ فِي سَبِيلِ اللهِ**

*"Azadlığına qovuşmaq üçün müəyyən edilən məbləği ödəmək məqsədilə işləyib çalışan müharibə əsirinə, Allah yolunda döyüşən şəxsə və seksual haramlardan qorunmaq üçün evlənmək istəyən insana, bəli, bu 3 təbəqəyə Allah mütləq kömək edəcəkdir!"*[109]

### Qadın seksual məzmunlu haramlardan qorunmaq məqsədilə alınır

*"Allah ictimai mövqeyindən istifadə etmək üçün bir qadınla evlənən kişinin ancaq ləyaqətsizliyini, mal-dövlətini istifadə etmək üçün evlənən kişinin kasıblığını, təkcə gözəlliyi üçün evlənən kişinin də ancaq alçaqlığını artırır.* (Amma evlənəcəyi) *qadınla gözünü şəhvani*

---

tərəfindən caiz hesab edilməsi və bu fəsildə təqdim etdiyimiz bəzi hədislər təkcə haramlardan qorunmaq və seksual doyuma çatmaq məqsədilə evlənməyin mümkünlüyünü də izah edir.

109 Ət-Tac, 2/279; Tirmizi, hədis nömrəsi 1655; Nəsai, hədis nömrəsi 3120.

*baxışlardan qorumaq, cinsiyyət üzvünü haram əmələ düşməkdən saxlamaq və ya qohumluq yaradıb davam etdirmək məqsədilə evlənən kişi üçün Allah (o evlilikdə həm kişiyə, həm də qadına) xeyir-bərəkət yaradır."*[110]

## Evlənmək insanı həqiqətən də, haramlardan qoruyub saxlayır

*"Ey cavanlar! Evlənin! Çünki evlənmək gözü şəhvani baxışlardan çox qoruyur, cinsiyyət üzvünü* (haram əmələ düşməkdən) *çox saxlayır.*

*Sizin aranızdan evlənə bilməyənlər isə oruc tutmağa davam etsin. Şübhəsiz ki, oruc oruc tutanı* (şəhvət hücumlarından) *qoruyan bir qalxandır."*[111]

Yuxarıda təqdim olunan peyğəmbər hədisləri seksual məzmunlu haramlardan qorunmağın vacibliyini, evliliyin bu məqsədlə həyata keçirilməli olduğunu, eləcə də, onun xeyir-bərəkətini izah edir.

Aşağıdakı hədislər isə evlənməyin haramlardan qorunmaq qədər seksual doyum məqsədi daşıdığını, daha doğrusu, sonuncunun da vacib olduğunu göstərir.

---

110 Məcməu-z-zəvaid, 4/252.

111 Tirmizi, *Nikah*, 1; Müxtəsəri səhihi Müslim, hədis nömrəsi 648.

## Haramlardan qorunmaq kimi, seksual doyum da məqsəd olmalıdır

Yuxarıda da qeyd edildiyi kimi, əziz peyğəmbərimiz (əs) həzrəti Cabirə: *"Gərək sənin onunla, onun da səninlə sevişib oynaşağı bakirə bir qızla evlənəydin"*, - deyib. Aşağıdakı hədis eynilə bunun kimi, evlənməyin seksual doyum məqsədilə həyata keçirilməli olduğunu vurğulayır:

*"Bakirə qızlarla evlənin. Çünki onlar cavan olduqlarına görə daha bərəkətlidirlər (doğurqan). Daha şirin dodaqlı/dillidirlər.* (Cinsi əlaqədə və pul xərcləməkdə) *aza daha çox qənaətkardırlar. Onların cinsiyyət üzvləri daha aktivdir."*[112]

Qadında seksual həzz və ləzzət mərkəzi olan və əsas funksiyası orqazmı təmin etmək olan klitorun yaradılması da seksual doyumun bir məqsəd kimi qəbul edilməli olduğunu vurğulayır.

Peyğəmbərimizin (əs) Qurana müvafiq şərhlərinə əsasən insanı Cəhənnəmə aparan günahların əsas hissəsi cinsiyyət üzvü ilə baş verir. Deməli, belə hesab etmək olar ki, insan Cənnətə həmin günahlardan qorunmaqla daxil ola biləcək. Buradan da belə başa düşülür ki, seksual doyum məqsədi güdən evlilik iman məsələsində

---

112 Məcməu-z-zəvaid, 4/254.

kamilləşmək deməkdir. Muhəmməd peyğəmbər (əs) yəqin buna görə belə buyurur:

*"Evlənən insan* (seksual məzmunlu haramlardan qorunub) *imanının yarısını kamilləşdirir. O biri yarısı üçün də özünü Allahın əmr və qadağalarına zidd düşməkdən qoruyub saxlasın."*[113]

## Quran və Sünnədə evləndirməklə əlaqədar hökmlər

Xədimləşmək və subaylıq kimi vasitələrlə cinsi həyatdan kənara çəkilməyi qadağan edən İslam dini Quran və Sünnənin buyuruqları ilə insanları evləndirməyə həvəsləndirir.

Evlənib ailə qurmaq əksər hallarda mənəvi dəstək və maddi kömək tələb edir. Buna görə də möminlər Quran və Sünnə tərəfindən başqalarını evləndirməyə və evlənmək istəyənlərə kömək etməyə istiqamətləndirilirlər.

## Quran və Sünnədə evləndirmə öhdəliyi

### Quranda evləndirməyə təşviq

Uca Allah Maidə surəsinin 2-ci ayəsində İslam dininin, eləcə də, müştərək ağlın lazım bildiyi bütün müsbət sahələrdə köməkləşməyi əmr edir. Evləndirmək formasındakı köməyi isə

113 Müntəxəbu kənzi-l-ummal, 6/389.

xüsusi olaraq vurğulayır və Nur surəsinin 32-ci ayəsində möminlərə belə bir tapşırıq verir:

**“Öz aranızdakı azad subay və dulları, kişi əsirləriniz və qadınlarınızdan** (müsəlman və ya kitab əhli olub) **məsuliyyəti öz üzərinə götürə bilənləri evləndirin. Əgər kasıbdırlarsa, Allah onları Öz lütfü ilə yoxsulluqdan xilas edib varlı hala gətirər. Allah** (ruzini) **bol-bol verən və hər şeyi çox yaxşı biləndir.”**

İslam alimləri belə hesab edirlər ki, bu ayədə əmr olunan evləndirməyin mənası evlənənlərə maddi və mənəvi kömək etmək deməkdir. Kömək etmək öhdəliyi olanlar da bütün möminlər, İslami dövlət idarəsi və vəlilər olmaqla 3 qrupa bölünür:

### a) Bütün möminlərin köməyi

Bütün möminlərin köməyi isə çoxcəhətlidir: Subaylığa qarşı mənfi münasibət bəsləyib evlənməyə istiqamətləndirmək və bu mənada vasitəçilik etmək, zəkat vermək və Allah yolunda könüllü qaydada maddi kömək etmək.

### b) İslam dövlətinin köməyi

İslam dövlətinin bu məsələdəki köməyi maddi və hüquqi olmaqla 2 yerə bölünür:

#### 1) Maddi kömək

Əsas idarə prinsiplərini Quran və Sünnə qaydalarından ibarət olan İslam dövləti dövlət

qulluqçusu və işçilərinə əgər subaydırlarsa, evlənmək üçün kömək edir. Bu kömək Allahın elçisinin (əs) də əmr etdiyi bir kömək növüdür. O, bu məsələ ilə əlaqədar olaraq belə demişdir:

*“Bizim sərəncamımızda olan İslam dövlətimizdə dövlət qulluqçusu və ya işçi olan şəxs* (subaydırsa, Beytu-l-mal olan dövlət büdcəsindən kömək alıb) *evlənsin. Xidmətçisi yoxdursa və buna ehtiyacı varsa, xidmətçi də alsın. Bu ianəni aldıqdan sonra xəyanət edən şəxs xaindir, cəmiyyətin oğrusudur.”*[114]

İslam dövləti evlənmək və ya kimi isə evləndirməyə görə borca düşən və sonra borcunu qaytara bilməyən şəxsə zəkat büdcəsindən köməklik edir. Zəkat İslamda dini səciyyəli dövlət vergisidir. Bu vergi dövlət tərəfindən varlılardan alınır və başda kasıblar olmaqla dövlət xətti ilə Quranda müəyyən edilən 8 təbəqəyə verilir.[115]

Həmin 8 təbəqədən biri də *borcu olanlar*dır. Dövlətdən yardım alan əsas borclular isə yuxarıda qeyd etdiyimiz kimi, evlənmək və ya kimi isə evləndirməyə görə borca düşən və onu ödəyə bilməyən möminlərdir.[116]

---

114 Mişkatu-l-məsabih, hədis nömrəsi 3751.

115 Baxın: Tövbə, 9/60.

116 Yusuf Qaradavi, fiqhu-z-zəkati, 2/623.

### 2) Hüquqi yardım

İslam dövləti mehri-misil verənlər olduğu halda dinə müvafiq və məntiqli olmayan müxtəlif səbəblərlə qızlarını ərə verməyən valideynləri hüquqi yolla buna məcbur edir. Vəlisi olmayan qız və qadınlara isə o bölgənin səlahiyyətli hakimlərinin vasitəsilə vəlilik etdirir.[117]

### c) Vəlilərin köməyi

Vəlilərin yardımı isə bundan ibarətdir: Hazırkı tələbləri tədqiq etmək və maddi yardım göstərib evləndirməyə çalışmaq. Atalar bir vəli kimi uşaqlarının evlənməyinə kömək etməlidirlər. Onların belə bir öhdəlikləri var. Eynilə bunun kimi, övladlar da dul qalan atalarının evlənməyinə kömək etməlidirlər. Onların da bu cür bir cavabdehlikləri var.[118]

### Sünnədə evləndirməyə təşviq

Aşağıdakı hədislərə əsasən Allahın elçisi (əs) də Qurana (Nur, 24/32) müvafiq olaraq mömინləri evləndirməyə təşviq edib:

---

117 Bəqərə, 2/232; Ömər Nəsuhi Bilmən, *Hüquqi islamiyyə və istilahati fiqhiyyə külliyatı (İslam hüququ və fiqh (islam hüququ) terminləri külliyatı),* İstanbul, 1985, 2-ci cild, s. 48, 57.

118 İslam fiqhi ensiklopediyası (Türk dilinə tərcümə, 10/124).

*“Oğlan və qız uşaqlarınızı evləndirin.*

*Kim onları Allahın razılığını qazanmaq məqsədilə evləndirsə, Allah onu* (Cənnətdə) *hökmdarlıq tacı ilə şərəfləndirər.”*[119]

Peyğəmbərimiz bildirir ki, bizim öz övladlarımızın qarşısında belə bir öhdəliyimiz var: Onlara İslam etiqadının əsaslarını, bu dinin vacib hesab etdiyi işləri və qadağan etdiyi söz və əməlləri öyrətmək. Eyni zamanda şəraitdən asılı olaraq onları evləndirmək/ərə vermək, yaxud da buna kömək etmək. Biz bunu peyğəmbərimizin (əs) aşağıdakı hədislərindən öyrənirik:

*“Dini etiqad və əxlaqlı yaşayış tərzi baxımından müsbət yanaşdığınız bir nəfər yanınıza gəlib* (vəlisi olduğunuz qız və ya bacınız kimi bir qadınla evlənmək istəsə) *onu evləndirin.*

*Əgər belə etməsəniz, bu hərəkətiniz yaşadığınız cəmiyyətdə fitnə-fəsad, ictimai problem və nizam-intizamsızlığa səbəb olar.”*

Peyğəmbərimiz (əs) bu sözləri dediyi vaxt əshabələr belə soruşdular:

-Ya rəsulallah! Əgər evlənmək istəyən o şəxs kasıb və sıravi bir adamdırsa, nə edək?

---

119 Müntəxəbu kənzi-l-ummal, 6/393; Əbu Davud, *Ədəb*, babun fi-l-vaqar.

O da bu suala eyni sözləri ilə cavab verdi:

إِذَا جَاءَكُمْ مَنْ تَرْضَوْنَ دِينَهُ وَخُلُقَهُ فَانْكِحُوهُ

*“Dini etiqad və əxlaqlı yaşayış tərzi baxımından müsbət yanaşdığınız bir nəfər yanınıza gəlib* (vəlisi olduğunuz qız və ya bacınız kimi bir qadınla evlənmək istəsə) *onu evləndirin.”*

Allahın elçisi (əs) bunu 3 dəfə təkrar etdi.[120]

Bununla belə, əziz peyğəmbərimiz (əs) kimi isə evləndirdikdə, yaxud da evlənməyinə kömək edildiyi vaxt evliliyin seksual və psixoloji doyuma çatmaq məqsədinin həyata keçib keçməyəcəyi məsələsinə xüsusi diqqət yetirmək lazım olduğunu da bildirib. Bu da tərəflərin fiziki və mədəni cəhətlərdən bir-birinə uyğun olub olmamasına fikir vermək deməkdir. O, bununla bağlı olaraq belə demişdir:

*“Övlad sahibi olmaq üçün həyat maddəsini axıdacağınız qadınları axtarıb seçin. Öz tayınız olanlarla evlənin. Bir-birinə tay olanları evləndirin.”*

O, Quranın *qadınların yetimləri* kimi səciyyələndirdiyi (Nisa, 4/3, 127) uşağı olan dulların ərə verilməyini də tapşırmışdır:

---

120 Tirmizi, *Nikah,* 3, hədis nömrəsi 1085.

**“Uşaqlı dulları da ərə verin.”**[121]

Əziz peyğəmbərimiz (Allah onun şanını ucaltsın) kasıblıqdan qorxub uşaqları öldürməyi/abort etdirməyi qadağan edən Qurana müvafiq olaraq (Ənam, 6/151) belə bir xəbərdarlıq etmişdir:

**مَنْ تَرَكَ التَّزْوِيجَ مَخَافَةَ الْعَيْلَةِ فَلَيْسَ مِنَّا**

*“Kasıblıqdan qorxub evləndirməyənlər bizim yolumuzda deyillər.”*[122]

## İslamda evlənib ailə qurmağı asanlaşdırmaq da bir öhdəlikdir

Buraya qədər Quran və Sünnədə möminlərin evlənmək və evləndirməyə istiqamətləndirildiklərini bir-birini püxtələşdirən ayə və hədislərlə izah etdik.

İndi isə qeyd etməliyik ki, İslam dini möminləri evlənmək və evləndirməyə həvəsləndirdiyi vaxt bu məsələlərin asanlaşdırılmasını da əmr edir.

Həqiqətən də, evliliyin qarşısında duran əsas maneələrdən biri də qadına məhkəmə vasitəsilə dolayı yoldan, ancaq kişiyə birbaşa verilən boşama haqqının müqabilində qadına verilməli

---

121 Məcməu-z-zəvaid, 4/258.

122 Bu və bundan əvvəlki hədisin mənbəyi üçün baxın: Müntəxəbu kənzi-l-ummal, 6/390, 393-394.

olan və bir kompensasiya da adlandıra biləcəyimiz mehiri çox istəməkdir. Belə ki, hazırkı dövrdə heç mehir sözünü işlətmədən sanki mehir şərti qoyurlarmış kimi, çoxlu qızıl-zinət əşyaları və sairə tələb olunur. Təbii ki, bu hal evlənmək və kimi isə evləndirmək istəyənlərin qarşısında bir maneə kimi durur. Halbuki, Muhəmməd peyğəmbər (əs): *"Mehrin ən xeyirlisi ən asan və ən az olanıdır"*, - deyir.[123]

Həyata keçirilməli olan evlilikdir. Çünki subaylıqda hər cür seksual məzmunlu yoldançıxma baş verə bilər. Bu səbəbdən evliliyə mane olmaq olmaz; əksinə, onu dəstəkləmək lazımdır. Peyğəmbərin (əs) bu sahədə gördüyü işlər evlənənlərə dayaq olmaq üçün ən sadə vasitələrin belə, nəzərə alındığını göstərir. Buna dair çoxlu misal var. Evlənənlərə həmçinin Allahın kömək edəcəyinə dair müjdə verilmişdir. Özü də peyğəmbər tərəfindən!

---

123 Kəşfu-l-xəfa, hədis nömrəsi 1237.
Mehir İslam ailə hüququnda işlədilən bir termin kimi qadının həyat yoldaşı (arvad) olmaq müqabilində aldığı pul, daşınan-daşınmaz əmlak və ya mədəni yardımı ifadə edir.
Peyğəmbərimizin xanım və qızlarının mehiri orta hesabla 400-500 dirhəm (1200-1500 qram gümüş, 170-210 qram qızıl) olub. Ancaq bu, yükləyəcəyi dolanışıq xərcləri öhdəliyinə görə çoxuşaqlı Ümmü Sələmə anamızda olduqca simvolik bir məbləğə qədər endirilib. Baxın: Enbiya Yıldırım, həzrəti peyğəmbərin albomu, s. 100-125.

Aşağıdakı hədis evlənmək məsələsinə mehir baxımından nə cür bir məntiqlə yanaşmalı olduğumuzu reallığa əsasən izah edən bir misaldır:

### Mehir verməyə bir şeyin var?

Səhl ibn Səd (ra) nəql edir:

Bir qadın Allahın elçisinin (əs) yanına gəlib dedi:

-Mən özümü sənə hədiyyə edirəm. Mehirsiz olaraq sizin xanımınız olmaq istəyirəm.

Həmin qadın bunu dedikdən sonra orada xeyli vaxt dayandı. Peyğəmbər (əs) ona bir cavab vermədi. Bu vaxt möminlərdən biri ondan belə bir xahiş etdi:

-Ya rəsulallah! Əgər siz bu qadını öz nikahınıza daxil etmək istəmirsinizsə, mənimlə evləndirin.

Allahın elçisi (əs) o adamdan soruşdu:

-*Səndə ona mehir verəcəyin bir şey var?*

Adam cavab olaraq: “Yanımda təkcə üstümə sarıdığım (öz geyindiyim)  izarım var”, - dedi.

Peyğəmbər (əs): *“Əgər izarını ona versən, özün izarsız qalarsan. Vermək üçün bir şey axtar tap”*, - dedi.

Həmin adam bir şey tapa bilməyəcəyini dedikdə peyğəmbər (əs) ona: *"Dəmir üzük olsun,* (bir şey) *axtar tap"*, - deyə, tapşırıq verdi.

Adam getdi. Ancaq heç bir şey tapıb gətirə bilmədi. Məsələni belə görən peyğəmbər (əs) ondan soruşdu:

*"Sənin əzbər bildiyin Quran surələri var?"*

-Bəli, ya rəsulallah, var. Filan-filan surələri əzbər bilirəm.

Muhəmməd əleyhissəlam axırda belə dedi:

*"Elə isə əzbər bildiyin surələri bu qadına öyrət. Bunun müqabilində səni onunla evləndirdim (onu sənə ərə verdim)."*[124]

---

124 Buxari, *Nikah,* 40 (6/134-135).
O vaxt dəmir üzük taxmaq halal idi. Sonradan qadağan olundu. Yeri gəlmişkən, İslam alimlərinin bir qismi belə hesab edir ki, bəzi Quran surələrini öyrətməyin müqabilində nikah müqaviləsi bağlamaq düzgündür (caiz). Bu halda əlavə olaraq mehirə ehtiyac yoxdur. Onlar bu fikriləri bu və buna oxşar hədislərə əsasən irəli sürürlər.